**CƏFƏROV TALEH VƏZİR oğlu**

# QONDARMA ERMƏNİ SOYQIRIMI
# faktların dili ilə

**BAKI – 2013**

*ADPU-nun Tarix fakültəsi Elmi Şurasının 12 yanvar 2013-cü il tarixli iclasının qərarına əsasən çap edilir* (pr.№5)

**Elmi redaktor:** **O.B.Sultanov**
*Tarix elmləri doktoru, professor*

**Redaktor:** **M.İ.Əmrahov**
*Tarix elmləri doktoru, professor*

**Rəyçilər:** **S.A.Məmmədov**
*Əməkdar elm xadimi, professor*
**A.C.İsgəndərov**
*Tarix elmləri doktoru, professor*
**A.A.Məmmədli**
*Tarix üzrə fəlsəfə doktoru, dosent*
**R.Ə.Əliyev**
**Tarix üzrə fəlsəfə doktoru, dosent**

***Cəfərov Taleh Vəzir oğlu. Qondarma erməni soyqırımı faktların dili ilə.*** *Bakı; "Kitab aləmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2013.*

***Monoqrafiyada XIX əsrin 70-80-ci illərindən etibarən türk dünyasının baş ağrısına çevrilmiş "erməni məsələsi"nin meydana gəlməsi, iri dövlətlərin Osmanlı siyasəti, Anadoluda erməni qiyamlarının törədilməsi, ermənilərin Osmanlı dövlətinin parçalanmasında iştirakı, dinc türk əhalisinin erməni millətçi ekstremistləri tərəfindən qətlə yetirilməsi, ermənilərin "soyqırımı" iddiaları və pərdəarxası məqamları faktoloji materiallar əsasında təhlil edilir.***

***Həmçinin monoqrafiyada XX əsrdə Avropada erməni lobbisinin antitürk fəaliyyəti, II dünya müharibəsindən sonra yeni erməni millətçiliyinin alovlanması, türk diplomatlarına, missiyalarına və təşkilatlarına qarşı erməni terroru, Müstəqil Ermənistan Respublikasının antitürk fəaliyyəti faktlar və arxiv sənədləri əsasında tədqiq edilmişdir.***

***Monoqrafiya ali və orta ixtisas məktəblərinin tələbələri, ümumtəhsil məktəblərinin müəllimləri və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Kitabdan doktorantlar və problem üzrə tədqiqat aparanlar faydalana bilərlər.***

# MÜNDƏRİCAT

**ÖN SÖZ ....... 5**
**GİRİŞ ....... 11**

**I FƏSİL. XIX əsrin sonu – XX əsrin əvvəllərində Osmanlı imperiyasında türk-erməni münasibətlərinin gərginləşməsi ....... 35**
*1.1. 1877-1878-ci illər rus-türk müharibəsinin başa çatması. "Erməni məsələsi"nin meydana gəlməsi ....... 35*
*1.2. Avropa dövlətləri və Çar Rusiyası tərəfindən Şərqi və Cənub-Şərqi Anadolu bölgələrində erməni qiyamlarının törədilməsi və acı nəticələri (1880-1890) ....... 60*
*1.3. I Dünya müharibəsinin başlanması ərəfəsində İttihad və Tərəqqi hökumətinin ermənilərlə əməkdaşlığının Osmanlı imperiyası üçün acı nəticələri ....... 70*

**II FƏSİL. Osmanlı sultanı tərəfindən Şərqi Anadolu ermənilərinin ölkənin ucqar cənub bölgələrinə köçürülməsinin səbəbləri, gedişati və nəticələri ....... 81**
*2.1. Şərqi Anadolu ermənilərinin ruslarla əməkdaşlığı. Van üsyanı ....... 81*
*2.2. Osmanlı imperiyası I dünya müharibəsi illərində. 1914-1915-ci il hadisələri. Ermənilərin köçürülməsi haqqında qərarın həyata keçirilməsi və nəticələri ....... 97*
*2.3. I Dünya müharibəsinin başa çatması. Köçürülmüş ermənilərin geri dönməsi haqqında "Geri dönüş qanunnaməsi"nin həyata keçirilməsi ....... 120*

**III FƏSİL. Qondarma "erməni soyqırımı"nın beynəlxalq aləmdə tanıdılması istiqamətində erməni diasporunun fəaliyyəti (1920-2001) ....... 128**

*3.1. Qondarma "erməni soyqırımı"nın beynəlxalq aləmdə tanıdılması istiqamətində erməni lobbisinin fəaliyyəti ...................... 128*
*3.2. Qərb dövlətlərinin parlamentlərində qondarma "erməni soyqırımı"nın tanıdılması cəhdləri ........................................ 140*
*3.3. Qondarma "erməni soyqımı"nın beynəlxalq aləmdə tanıdılmasında Ermənistan Respublikasının fəaliyyəti (1991-2001) ........................................................................ 151*

**IV FƏSİL. Hay Dad ("Erməni məhkəməsi") ideologiyasının hüquqi-siyasi mahiyyəti və əsas hədəfləri ..................................... 162**

**NƏTİCƏ ........................................................................ 179**

**CƏDVƏLLƏR .................................................................. 203**

**ŞƏKİLLƏR ..................................................................... 215**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT ............................................. 229**

# ÖN SÖZ

SSRİ dağıldıqdan sonra yenidən müstəqilliyinə qovuşmuş Azərbaycanda tarix elmi qarşısında bir sıra qaranlıq səhifələrə yenidən müraciət olunmağa başlandı. Yetmiş il sovet ideologiyasının bizlərə təlqin etdiyi şəkildə öyrəndiyimiz Azərbaycan tarixi və eləcə də Osmanlı tarixinə baxış konsepsiyasının kökündən dəyişdirilməsi zərurəti ortalığa çıxdı. Ulu öndər Heydər Əliyev ermənilərin xalqımıza qarşı etdikləri amansız vəhşilikləri, işgəncələri, Qərbi azərbaycanlıların öz dədə-baba torpaqlarından amansızlıqla qovulmasını, ermənilərin Qafqaza gəlmə xalq olduqlarını və digər taleyüklü məsələlərinin tarixi faktlar və arxiv sənədləri əsasında araşdırılmasını və olduğu kimi xalqa catdırılmasını tarixçilər qarşısında əsas vəzifələrdən oldu. Bununla bağlı H. Əliyevin bir-birinin ardınca imzaladığı fərman və sərəncamlarda iki yüz ildən artıq dövrdə xalqımızın başına gətirilən fəlakətlərin ağrı-acıları xronoloji ardıcıllıqla əksini tapdı.

Ulu öndərin iki mühüm tarixi faciə haqqında "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlardan deportasiyası haqqında" və "Azərbaycanlıların soyqırımı haqqında" fərmanları nəticəsində "31 Mart Azərbaycanlıların soyqırımı günü" kimi elan edildi. Beləliklə, əsil həqiqəti dünya ictimaiyyətinə çatdırmaq, soyqırımı aparıldığını, Ermənistan SSR ərazisinin qədim Azərbaycan torpaqları olduğunu rəsmiləşdirməklə yanaşı, xalqımızın tarixinə "ağ ləkələr" kimi düşmüş, əslində isə qanlı faciəvi hadisə-

lər kimi yaddaşlara köçmüş bu səhifələri düzgün və obyektiv yazmaq üçün şərait yarandı.

Ulu öndərin müvafiq tapşırıq və tövsiyələrindən sonra qısa zaman kəsiyində istər AMEA-nın Tarix İnstitutu əməkdaşları tərəfindən, istərsə də ayrı-ayrı tarixçi alimlər tərəfindən bir sıra araşdırmalar aparıldı və bu boşluğun aradan qaldırılması istiqamətində əsaslı dönüş yarandı.

Bu baxımdan T. Cəfərovun "Qondarma erməni soyqırımı faktların dili ilə" adlı monoqrafiyası tarixi zərurətdən irəli gələrək yazılmışdır və günümüzlə səsləşir. Bütövlükdə, türk dünyasına qarşı yüz ildən artıqdır ki, ermənilərin apardığı soyqırımı və deportasiya siyasəti xalqdan gizlədilmiş və ya ən yaxşı halda etnik qarşıdurma kimi tarixdə öz yerini tutmuşdur. Əslində isə nələrin baş verdiyini əsərdə çılpaqlığı ilə görmək mümkündür. Əsərdə hadisələrin 1877-78-ci illər rus-türk müharibəsindən başlayaraq gərginləşməsi və erməni məsələsinin meydana gəlməsi, 90-cı illərdən başlayaraq Şərqi Anadolu ərazilərində erməni qiyamlarının törədilməsi və acı nəticələri, eləcə də I dünya müharibəsində ermənilərin öz dövlətlərinə qarşı açıq-aşkar xəyanəti arxiv sənədləri əsasında ifşa edilmişdir.

Müəllif doğru olaraq qeyd edir ki, XIX əsrin II yarısından etibarən beynəlxalq münasibətlər sistemində İngiltərə və Rusiyanın yeni müstəmləkələr və satış bazarları uğrunda apardıqları işğalçılıq yarışının növbəti mərhələsi Osmanlı İmperiyası ərazilərinin parçalanması və isti dənizlərdə hökmran olma siyasəti ilə yeni bir

mərhələyə qədəm qoydu. İngiltərə Hindistana qədər uzanan bütün boğazları əldə möhkəm saxlamaq üçün Şərqi Anadolu və Qara dəniz hövzəsində qüvvətlənməyi qarşısına məqsəd qoyduğu halda, Rusiya Bəsrə və İsgəndərun limanlarına uzanan təhlükəsizlik dəhlizi yaratmaqla isti dənizlərə çıxış əldə etməyə can atırdı. Hər iki imperiyanın işğalçılıq siyasəti bu regionda möhkəmlənmək və yerli etnik azlıqlardan Osmanlı hökümətinə təzyiq vasitəsi kimi istifadə etməkdən ibarət idi. Məhz bu iki dövlətin qarşıdurmasından yararlanan ermənilər bu ərazilərdə qarışıqlıq yaratmaqla öz istəklərinə nail olmağa can atırdılar. Qarşıdurmalar dərinləşdikcə türk-erməni ziddiyyətləri də qarşısıalınmaz prosesə çevrildi. Bu ziddiyyətlərin məntiqi sonluğu kimi 1877-78-ci illər rus-türk müharibəsi nəticəsində "erməni məsələsi" meydana gətirildi.

Müəllifin "Qondarma erməni soyqırımı faktların dili ilə" adlı monoqrafiyası ilə tanış olarkən burada XIX əsrdə böyük dövlətlər tərəfindən qızışdırlan erməni millətçi ekstremistlərinin Şərqi Anadolu torpaqlarını qan gölünə çevirdiklərinin, dinc əhalini öz dədə-baba torpaqlarından didərgin saldıqlarının, üsyan qaldırmaqla bölgənin bütün infrastrukturunun iflic vəziyyətə düşdüyünün şahidi oluruq. Müəllif əsrlər boyu öz torpaqlarında əmin-amanlıq şəraitində yaşayan yerli türk əhalisinin erməni silahlı dəstələrindən qorunmaq üçün qonşu ərazilərə pənah gətirdiklərini, türk əhalisinin kökünü kəsmək və monoetnik erməni dövləti yaratmaq yolunda ermənilərin Vilayəti-Sittə adlandırdıqları Şərqi Anadolu bölgəsini

tamamilə nəzarətdən çıxarmaq sahəsindəki fəaliyyətlərini, böyük dövlətlərin islahat layihəsi adı altında burada apardıqları iyrənc oyunların pərdəarxası məqamlarını faktlarla vermişdir.

Qeyd edək ki, müəllifin uzun müddətli araşdırmaları sayəsində ərsəyə gətirdiyi əsərdə diqqəti çəkən əsas məsələlərdən biri də, araşdırılan dövrdə Osmanlı imperiyasında ermənilərin sayı, onların yaşam tərzi və dövlətdə təmsilolunmasının arxiv sənədləri və statistik külliyyatlara əsasən faktlarla göstərilmişdir. T.Cəfərov sübut edir ki, heç bir arxiv sənədində ermənilərin ümumi sayının 1 milyon 300 mindən artıq olduğu təsdiqini tapmır. Həmin dövrdə ermənilər dövlətdə bütün yüksək vəzifələrdə təmsil olunurdular. İmperiyada bütün maaliyə aristokratiyasına erməni maqnatları rəhbərlik edirdi. Bu cür yüksək yaşayış səviyyəsinə və bir sıra imtiyazlara malik bir toplum birdən-birə öz dövlətinə xəyanət etmiş, düşmən tərəfə keçərək öz silahları ilə xalqına atəş açmağa başlamış, iki milyon nəfərə yaxın türkün həyatına son qoyulmuşdur. Müəllif haqlı olaraq belə nəticəyə gəlir ki, bu fakt əslində ermənilərin deyil, türklərin soyqırımının baş verdiyinin göstərcisidir.

Monoqrafiyada qiyamçı ermənilərin sultan fərmanı ilə imperiyanın cənub ərazilərinə köçürülməsinə diqqət yetirilmişdir. Əsərdə qeyd olunduğu kimi qərarın heç bir yerində ermənilərin köçürülməsi deyil, dövlətə xəyanət etmiş bütün qüvvələrin köçürülməsi öz əksini tapmışdı. Nəticədə, hökumət bütün gücünü, qüvvəsini səfərbər edərək 702 900 nəfər qiyamçını Suriya və İordaniya

ərazilərinə köçürməyə başlamış, bir sözlə hökumət bu işin öhdəsindən layiqincə gələ bilmişdir. Bunun üçün xəzinədən ilkin olaraq 25 milyon lirə xərclənmiş, prosesin gedişində bu məbləğ artırılmışdır. Hökumət ermənilərin köçürülməsi zamanı onların təhlükəsizliyinə də xüsusi önəm vermişdir. Müharibə qurtardıqdan sonra hökumət daha bir fərman verərək köçürülmüş ermənilərin geriyə-öz torpaqlarına dönmələrinə şərait yaratmış, yenidən həyat burada öz axarı ilə davam etmişdir.

Müəllifin monoqrafiyada üzərində dayandığı əsas məsələlərdən biri də, XX əsrin 20-30-cu illərində ermənipərəst qüvvələrin Avropada türk dünyasına qarşı apardığı iyrənc kompaniya, güya müharibə zamanı 1,5 - 2 milyona yaxın ermənin türklər tərəfindən xüsusi amansızlıqla qətlə yetirilməsi iddiasıdır. Bu doğurdan da gülünc doğuran bir məsələdir. Ona görə ki, o zaman ki, Osmanlı arxiv sənədlərinin heç birində ermənilərin buradakı sayının 2-3 milyon arasında dəyişdiyi haqqında məlumat yoxdur. Uzun müddət yalan, əsası olmayan saxta sənədlər (Andonian, Price sənədləri) hazırlanaraq Avropada guya ermənilərin türklər tərəfindən amansızlıqla qətlə yetirilməsinə cəhdlər edilmişdir. Bir əsrə yaxın bu sərsəm ideyaların Avropada hakim olması və eləcə də erməni diasporu və lobbisinin yorulmaz səyləri nəticəsində bu gün 20-dən artıq dövlət rəsmi şəkildə qondarma "erməni soyqırımı"nı tanımaqdadır. Dünyanın müxtəlif şəhərlərində qondarma "erməni soyqırımı" qurbanlarının xatirəsinə əbədi məşəl abidəsi ucaldılmaqdadır. Qarşıdan 2015-ci il yaxınlaşır və bütün

dünya erməniləri yorulmadan qondarma "erməni soyqırımı"nın 100-cü il dönümünə hazırlıq işləri görməkdədirlər. Erməni diasporu və lobbisi bütün gücünü səfərbər edərək dünyada Türkiyənin və Azərbaycanın daha da güclənməsinə mane olmağa cəhdlər edəcəklər. İstənilən təzyiqlərə baxmayaraq Türkiyə və Azərbaycanın birlikdə erməni idddialarına qarşı yorulmaz mübarizəsi öz müsbət nəticəsini verməkdədir. Son yüz ildə erməni diasporunun antitürk və antiazərbaycan fəaliyyətinə qarşı Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsi ilə birlikdə apardığı siyasət yüksək qiymətə layiqdir. Görülən işlərin nəticəsidir ki, artıq Xocalı soyqırımı 6 dövlət tərəfindən tanınmaqdadır. Güman edirəm ki, yaxın gələcəkdə onlarla dövlət bu soyqırımı aktını rəsmi şəkildə qəbul edəcəkdir.

Bütövlükdə, monoqrafiyada əksini tapan məsələlər və faktlar dəfələrlə təhlil edilmiş, ümumiləşdirmələr aparılmışdır. Əsər bir daha dünyada erməni yalanın ifşa olunması baxımından olduqca dəyərlidir. Monoqrafiya araşdırılan problemlə bağlı tarix elmi qarşısında qoyulan bir sıra məsələlərə aydınlıq gətirilməsi baxımından yüksək qiymətləndirilməlidir.

***Aytən MUSTAFAYEVA***
*AMEA-nın İnsan Hüquqları İnstitutunun direktoru, millət vəkili*

# GİRİŞ

*"Hadisələr haqqında bilərəkdən susan tarixçi olmayan hadisələri uyduran adamdan daha çox yalançıdır"*

*Roma tarixçisi*
*Ammian Marsellin*

**Tədqiqat mövzusunun aktuallığı.** Oğuz türklərinin XIII əsrdə yaratmış olduğu Osmanlı imperatorluğu XIX əsrin sonu - XX əsrin əvvəllərində artıq öz əvvəlki qüdrətinin zirvəsindən enmiş durumda idi. Bəhs olunan dövrdə Osmanlı imperatorluğunda torpaq üzərində feodal münasibətlərinin bərqərar olması, şəhərlərin kəndlərlə mövcud əlaqələrinin istənilən səviyyədə olmaması, imperiyanın tez-tez xarici müdaxilələrə məruz qalması, daxili feodal çəkişmələri, irriqasiya sistemlərinin dağılması, təsərrüfat sisteminin bərbad hala düşməsi kimi məsələlər dövlətin inkişafını əhəmiyyətli dərəcədə ləngidirdi. Həmçinin bir-birinin ardınca baş vermiş müharibələrdə (Rus-türk, rus-İran, I və II Balkan müharibələri), xüsusilə I dünya müharibəsində Osmanlı imperatorluğunun ağır məğlubiyyəti onun süqutunu daha da sürətləndirdi. Bu dövrdə Osmanlı imperiyası öz mövcudluğunu qoruyub saxlamaq və parçalanmaq təhlükəsindən xilas olmaq üçün mübarizə aparır, tez-tez müharibələrə sövq edildiyindən sosial-iqtisadi inkişaf qanunauyğunluqlarını ciddi nəzərə alan nizamlı daxili siyasət həyata keçirə bilmirdi. Bunun əksinə olaraq, Avropanın sürətli

inkişafa, hərbi-siyasi üstünlüyə can atması Osmanlı imperiyasının hegemonluğunun qarşısını almaq səyləri ilə yanaşı, onun ərazilərini bölüşdürmək niyyətindən irəli gəlirdi. Bu iyrənc siyasəti həyata keçirmək üçün millətlər məsələsindən faydalanmağa qərar verən böyük dövlətlər erməni kartından istifadə etmək qərarına gəldilər. Belə ki, XIX əsrin əvvəllərinədək bir millət olaraq hələ Avropada tanınmayan erməniləri yer üzünə dağılmış tacirlər, öz mənfəətlərindən başqa bir şeylə əlaqəsi olmayan şəxslər, milliyyətsiz, sərsəri olaraq tanıyırdılar.

Qeyd etmək lazımdır ki, Fateh Sultan Mehmet zamanından formalaşan türk-erməni münasibətləri nəticəsində ermənilər Osmanlı dövlətinin hər bir vətəndaşı kimi, bu dövrdə o zamana qədər heç bir məmləkətdə və bir başqa dövlətin içərisində çata bilmədikləri din, dil, düşüncə sərbəstliyi ilə bütün siyasi və sosial haqlara sahib olmuş və Osmanlı dövləti ərazisində asudə, əmin-amanlıq şəraitində yaşamışlar. Çoxsaylı etnik birliklərin təmsil olunduğu imperiyada daha çox erməni tacir və sənətkarların mövqelərinin güclənməsi onların hökumətdə təmsil olunmasını da labüd edirdi. Qeyd edək ki, XV yüzillikdən etibarən hökumətdə təmsil olunmağa başlayan ermənilər uzun müddət ərzində öz mövqelərini qoruyub saxlamağa müvəffəq olmağı  bacardılar. Ölkənin demək olar ki, maliyyə strukturlarında yüksək mövqeləri ələ keçirən varlı ermənilər XIX əsrin başlanğıcından etibarən Qərbin və Çar Rusiyasının şirnikləndirici vədləri nəticəsində xəyanətə əl atmış oldular. Onlara olan inamın və etibarın azaldığını hiss edərək terror və qiyamlara baş-

ladılar. Xüsusilə, XIX əsrin II yarısında baş qaldıran və biləvasitə Osmanlı dövlətinin bütövlüyünə qarşı yönələn qiyamlar real təhlükə mənbəyinə çevrilməkdə idi. Vilayəti-Sittə deyilən Şərqi Anadolu torpaqlarında erməni qiyamlarının baş verməsi nəticəsində minlərlə dinc türk vətəndaşı qətlə yetirildi, bəziləri isə əzəli dədə-baba yurdlarından didərgin salınaraq digər ərazilərə qovuldular. Hökumətin bu qanlı hadisələrin qarşısını almaqda olduqca çətin duruma düşdüyünü arxiv sənədlərindən də görmək mümkündür.

Qeyd etmək lazımdır ki, I dünya müharibəsinin ən şiddətli vaxtlarında Osmanlı təbəəsi olan ermənilərin ruslarla əməkdaşlığı sultan hökumətini bərk narahat edirdi. Osmanlı hökuməti vaxt itirmədən bu problemin tezliklə aradan qaldırılması üçün bütün gücünü səfərbər etdi. 27 may 1915-ci ildə hökumət qiyamçı ermənilərin və onların ailə üzvlərinin Şərqi Anadolu ərazilərindən çıxarılaraq Suriya və Mesopotamiya ərazilərinə köçürülməsi barədə qərar qəbul etdi. Hərbi komandanlığın nəzarəti altında köçürülən qiyamçı ermənilər və onların ailə üzvləri xüsusi ayrılmış və nəzarətə götürülmüş kənd və qəsəbələrdə yerləşdirildi. Ümumilikdə, çoxlu sayda ermənilərin tam təhlükəsiz şəraitdə təyin olunmuş ərazilərdə məskunlaşdırılmasına başlanıldı. Nəticədə, hökumətinin qəbul etdiyi bu qərar olduqca mükəmməl və vaxtında atılmış düzgün addım idi. Ermənilər köçürülməsə idi daha nələr baş verə bilərdi? Daha necə şəhər və kənd xarabalığa çevrilə bilərdi? Bu və ya digər maraq doğuran

suallar monoqrafiyanın I və II fəsillərində ətraflı şəkildə təhlil edilmişdir.

Uydurma erməni "soyqırımı" XX əsrdə erməni diasporu dəstəyilə 20-dən çox dünya dövləti tərəfindən tanınmışdır. I dünya müharibəsi dövründə baş vermiş erməni xəyanətinin gizli niyyətlərini pərdələyən qərbin xristian dövlətləri sadəcə olaraq müsəlman Türkiyə Cümhuriyyətinin beynəlxalq nüfuzuna zərbə vurmaqla dünya ictimaiyyətində "qatil türk" obrazı yaratmaq üçün bütün ideoloji vasitələrdən istifadə etmişdir. Bu baxımdan baş vermiş hadisələrə zaman və məkan baxımından doğru-dürüst yanaşmaqla ermənilərin uydurma soyqırımı iddialarının cəfəngiyatdan başqa bir şey olmadığını sübut etməyə səy göstərilmişdir. Bütün bunlar onu göstərir ki, tədqiq olunan problem kifayət qədər aktualdır və günümüzlə yetərincə səsləşir.

Qeyd etmək lazımdır ki, Sovet hökuməti yetmiş il müddətində xalqımızdan Türkiyə ilə bağlı həqiqətləri gizlətmiş və ört-basdır etməyə çalışmışdır. Xüsusilə, erməni millətçi ekstremistlərinin dinc türk əhalisinə qarşı məkirli planları, törətdikləri qanlı qətliamlar və Türkiyənin əleyhinə olan fəaliyyətləri barədə həqiqətlərin təhrif edilməsi nəticəsində yalan, əsası olmayan soyqırımı iddiaları qabardılmışdır. Bu problemin müxtəlif aspektləri tədqiqatçılar tərəfindən geniş şəkildə araşdırılsa da, ermənilərin soyqırımı iddiaları və Türkiyə əleyhinə olan fəaliyyəti sistemli şəkildə öyrənilməmiş və ayrıca tədqiqat predmetinə çevrilməmişdir. Nəticədə, I dünya müharibəsi zamanı Osmanlı hökumətinin milli azlıqlara

qarşı məkirli və təhlükəli siyasət apardığı, 1,5-2 milyona yaxın günahsız ermənininin qətlə yetirilməsi, ev-eşiklərinin talan edilməsi haqqında fikirlər formalaşmağa başlamışdır.

Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra digər sahələrdə olduğu kimi tarixi araşdırmalara yeni yanaşma nəticəsində milli məsələlərdə gizli qalan, saxtalaşdırılan və təhrif edilən məqamlər, həqiqətlər açılaraq xalqa olduğu kimi çatdırılmağa başlandı. Bu istiqamətdə ümummilli lider Heydər Əliyevin imzaladığı bir sıra sərəncam və fərmanlarda ermənilərin xalqımıza qarşı apardığı etnik təmizləmə, deportasiya, soyqırımı siyasəti  ifşa olunur, həmçinin onların Qafqaza gəlmə xalq olduğu tutarlı faktlarla sübuta yetirildi. Həmçinin ulu öndər özündə cəsarət taparaq xalqın qan yaddaşında yaşayan iki mühüm tarixi faciə haqqında “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlardan deportasiyası haqqında” və “Azərbaycanlıların soyqırımı haqqında” fərmanlar verdi. ”31 Mart Azərbaycanlıların soyqırımı günü” elan edildi. Beləliklə, əsil həqiqəti dünya ictimaiyyətinə çatdırmaq, soyqırımı aparıldığını, Ermənistan SSR ərazisinin qədim Azərbaycan torpaqları olduğunu rəsmiləşdirməklə yanaşı, talqımızın tarixinə “ağ ləkələr” kimi düşmüş, əslində isə qanlı faciəvi hadisələr kimi yaddaşlara köçmüş bu səhifələri düzgün və obyektiv yazmaq üçün şərait yarandı. Azərbaycan Respublikası Prezident Adminstrasiyasının rəhbəri, akademik R. Mehtiyevin “Görus 2010: absurd teatr mövsümü”kitabı oxuculara təqdim edildi.

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu tərəfinən də bu istiqamətdə bir sıra sanballı araşdırmalar aparılmış, arxiv sənədləri toplanmış və ictimaiyyətə təqdim edilmişdir. "Azərbaycan Xalq Cümhuriyyətinin tarixi Böyük Britaniyanın arxiv sənədlərində" (Bakı, 2008), Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımının I cildi (Bakı, 2009), "İrəvan əyalətinin müfəssəl dəftəri" (Bakı, 2009), "Azərbaycan tarixi arxiv sənədlərində" I cild (1917-1920-ci illər), "Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. III cild. Xatirələr" Sənədlər toplusu (Bakı, 2010), Azərbaycan xalqına qarşı 1918-1920-ci illər soyqırımı. II cild, I kitab, "Azərbaycan xalqına qarşı 1918-1920-ci illər soyqırımı.II cild, 2-ci kitab", "İrəvan quberniyasında soyqırımı". (Bakı, 2010) və digər nəşrlər institut əməkdaşlarının gərgin əməyinin nəticəsi olaraq bütövlükdə tarix elminə mühüm töhfələridir.

Göründüyü kimi, qondarma "erməni soyqırımı" istiqamətində həm Azəbaycan, həm də Türkiyə tarixçiləri tərəfindən aparılmış tədqiqatlar nəticəsində "soyqırımı" iddiasının tamamilə cəfəng təbliğat istiqaməti olduğu sübut olundu. Məhz bu baxımdan Osmanlı imperiyası ilə bağlı tarixi həqiqətlərin dərindən öyrənilməsi və dünya ictimaiyyətinə olduğu kimi çatdırılması olduqca vacib əhəmiyyət kəsb edir.

**Tədqiqatın məqsəd və vəzifələri**: Tədqiqat işinin əsas məqsədi qondarma "erməni soyqırımı" iddialarının uydurma olduğunu tarixi faktlar və xüsusilə də arxiv sənədləri əsasında sübuta yetirmək olmuşdur. Bunun

üçün tədqiqatda daha çox hadisələrin xronoloji ardıcıllığına, müqayisəli təhlil metoduna və ümumiləşdirmələrə üstünlük verilmişdir. Müxtəlif mənbələrdən əldə etdiyimiz faktlar diqqətlə araşdırılmış, hadisələrin izahında və nəticələrin ümumiləşdirilməsində Osmanlı arxiv sənədlərinə istinad olunmuşdur. Tədqiqatın qarşısında duran əsas vəzifələrdən biri də ermənilərin və onlara himayədarlıq edən böyük dövlətlərin irəli sürdüyü 1,5-2 milyon nəfərə yaxın ermənininin türklər tərəfindən "qətlə yetirilməsinin" cəfəngiyyatdan başqa bir şey olmadığını sübuta yetirmək olmuşdur.

Tədqiqat prosesində aşağıdakı məsələlərin araşdırılması müəyyənləşdirilmişdir:

1. "Erməni məsələsi"nin meydana gəldiyi şəraitdə Osmanlı imperiyasının daxili-siyasi vəziyyətinin gərginləşməsini tədqiq etmək;

2. İmperiya ərazisində ermənilərin sosial-iqtisadi durumunu təhlil etmək;

3. Qərbin və Çar Rusiyasının Osmanlı imperiyasına müdaxiləsində erməni faktorundan istifadə olunmasını araşdırmaq;

4. Ermənilərin I dünya müharibəsi zamanı imperiyanın ucqarlarına köçürülməsinin səbəbi, gedişi və nəticələrini, hökumətin qabaqlayıcı tədbirlərini arxiv sənədləri əsasında tədqiq etmək;

5. Köçürülmüş ermənilərin geri dönməsi haqqında Sultanın əmr və göstərişlərini araşdırıb üzə çıxarmaq;

6. Ermənilərin əsassız "soyqırımı" iddialarının Avropada, eləcə də dünyanın müxtəlif ölkələrində dəstək-

ləyən lobbiçilərin xidmətlərini və gizli qalan maraqlarını üzə çıxarmaq;

7. Qondarma "erməni soyqırımı"nın Avropanın və dünyanın digər ölkələrinin qanunverici orqanlarında dəstəklənməsini araşdırmaq;

8. "Hay Dad" ideologiyasının hüquqi-siyasi mahiyyətini, qarşıya qoyulan vəzifələri, gələcəyə hesablanmış hədəfləri müəyyənləşdirmək;

**Tədqiqatın obyekti və predmeti**. XIX əsrin sonu–XX əsrin əvvəllərində Osmanlı imperiyasında türk-erməni münasibətlərin gərginləşməsi, qiyamçı ermənilərin və erməni millətçi ekstremistlərinin rəhbərliyi altında Şərqi Anadolu ərazilərində ardıcıl olaraq qiyamlarının törədilməsi, İttihad və Tərəqqi hökuməti ilə ermənilərin əməkdaşlığı, Van üsyanı, Osmanlı imperiyasının I dünya müharibəsində iştirakı, 1914-1915-ci il hadisələri, osmanlı hökuməti tərəfindən terrorçu ermənilərin Şərqi Anadolu ərazilərindən çıxarılaraq Suriya və Mesopotamiya ərazilərində müvəqqəti məskunlaşdırılması, müharibəsinin başa çatması ilə köçürülmüş ermənilərin geri qaytarılması haqqında "Geri dönüş" qanunnaməsinin imzalanması və həyata keçirilməsi, erməni diasporu tərəfindən saxta "erməni soyqırımı"nın beynəlxalq müstəvidə müzakirəsi və qərb dövlətləri tərəfindən dəstəklənməsi, bu işdə erməni diasporunun fəaliyyət istiqamətləri, bir sıra qərb dövlətlərində və parlamentlərində saxta "erməni soyqırımı"nın tanıdılması cəhdləri və uydurma "erməni soyqırımı"nın beynəlxalq aləmdə tanıdılması, həmçinin buradan irəli gələn bir sıra mühüm məsə-

lələrin Ermənistan Respublikası xarici siyasət institutunun əsas prioritet istiqamətlərindən olduğuna (1991-2000) toxunulmuş, daha çox xronoloji ardıcıllıq, müstəqil analitik təhlil və hadisələrə obyektiv baxış əsas götürülmüşdür.

**Tədqiqatın elmi yeniliyi**. Məlum olduğu kimi, Sovet hakimiyyəti illərində tarix elmi sahəsində araşdırmalarda mühüm nailiyyətlər əldə olunmasına baxmayaraq, sosializm sistemindən irəli gələn ideoloji mübarizə formaları ("pantürkizm", "panislamizm" ideologiyasına qarşı mübarizə) özünü 1914-1915-ci illər Osmanlı imperiyasında baş vermiş hadisələrə münasibətdə də birüzə vermişdir. Kommunist ideologiyasının təsiri altına düşən tarixçilər, ziyalılar uydurma "erməni soyqırımı" məsələsində vahid antitürk mövqeyi nümayiş etdirmişdilər. Osmanlı imperiyasının daxili və xarici siyasəti ilə bağlı əsərlərdə, dissertasiyalarda və məqalələrdə araşdırılan problem məsələyə münasibətdə ümumerməni mənafeyi əsas götürülmüş, "qatil türk" obrazı yaradılmasına cəhdlər edilmişdir. Lakin müstəqillik əldə edildikdən sonra Azərbaycanda bu problem yenidən gündəmə gətirilmiş və baş vermiş hadisələrə dövlət səviyyəsində hüquqi-siyasi qiymət verilmişdir. Araşdırılan qondarma erməni soyqırımı probleminə münasibətdə obyektivlik qorunmuş, bir sıra faktlar və sənədlər ilk dəfə tədqiqata cəlb edilmişdir. 1923-cü ildə Lozanna konfransında saxta "erməni soyqırımı" ilə bağlı qərb dövlətlərinin nümayiş etdirdiyi vahid antitürk mövqe, həmçinin II dünya müharibəsindən sonra bəzi qərb

dövlətlərinin parlamentlərində saxta "erməni soyqırımı"nın tanıdılması cəhdlərinə və nəticələrinə ilk dəfə olaraq toxunulmuş və hadisələrə qiymət verilməsində qərəzsiz və ədalətli mövqe tutulmuş, saxta "erməni soyqırımı"nın Ermənistan Respublikası xarici siyasət strategiyasının tərkib hissəsi olduğu faktlarla təsdiq olunmuşdur. Monoqrafiyada ilk dəfə olaraq "Daşnaqsütyun" partiyasının toplantılarında "Hay Dad" ("Erməni məhkəməsi") ideologiyasının qəbul edilməsi, qarşıya qoyulmuş ümumi vəzifələr, prinsiplər və istiqamətlər araşdırılaraq təhlil olunmuşdur.

**Problemin öyrənilmə səviyyəsi.** Osmanlı imperiyası ərazilərində ermənilərin yerləşməsi prosesi, sosial-iqtisadi vəziyyəti haqqında məlumatların öyrənilmə səviyyəsinə, tədqiqinə keçməmişdən öncə qısaca olaraq bu haqda məlumat verməyi məqsədəuyğun hesab etdik. Belə ki, orta əsrlər dövründən başlayaraq talelərini Osmanlı imperiyası ilə bağlayan ermənilər daha çox iri şəhərlərdə məskunlaşmaqda idilər. Sultan II Mehmetin fərmanı ilə dini mərkəzlərinin Bursadan İstanbula köçürülməsi ermənilərin mövqelərini daha da gücləndirdi. Dəniz ticarətində və sənətkarlıq sahələrində mövqelərini gücləndirən ermənilər sultandan bir sıra imtiyazlar almağa da müvəffəq oldular. İmperiya ərazilərində müstəqil ticarət hüququ alan ermənilər burada iri ticarət evləri və karvansaralar tikməyə başladılar. Artıq ticarət sahəsində iri erməni maqnatları meydana gəldi. Bu şəxslərin hökumətdə yüksək vəzifələrdə təmsil olunmaları və heç bir maneəyə rast gəlmədən irəliləmələri onların xalq

içərisində "etibarlı xalq" imicinin formalaşmasından irəli gəlirdi. Bütün dövlət işlərində təmsil olunan ermənilərin XIX əsrdən başlayaraq qərb dövlətlərinin oyuncağına və sultan hökumətinin başağrısına çevrilməsi artıq dövlət rəhbərlərini əməli fəaliyyətə keçməyə məcbur etdi. Hökumətin qabaqlayıcı tədbirləri də problemin öhdəsindən gəlməyə kömək etmirdi. Hadisələr artıq öz məcrasından çıxmaqda idi. Bu zaman hakimiyyətdə təmsil olunan İttihad və Tərəqqi hökumətinin əsas simaları olan Tələt paşa, Ənvər paşa və Camal paşa birlikdə bu təhlükələrin qarşısını birlikdə almağa çalışdılar. Uzun sürən məsləhətləşmələrdən sonra erməni qiyamçılarının imperiyanın Suriya, Livan və İordaniya ərazilərinə köçürülməsi qərara alındı və yüz minlərlə erməni əhalisi dinc şəraitdə köçürüldü.

Ümumiyyətlə, ermənilərin Osmanlı imperiyasında məskunlaşması, sosial dayaqlarının möhkəmlənməsi, dini mərkəzlərin yaradılması, hökumətdən imtiyazlı zümrə olaraq bir sıra güzəştlər almağa müvəffəq olması, hökumətdə yüksək vəzifələrdə mövqe qazanmaları, erməni siyasi təşkilat və partiyalarının yaradılması, Şərqi Anadolu ərazilərində erməni qiyamarının baş verməsi, hökumətin qabaqlayıcı tədbirləri və.s məsələlər istər Azərbaycan tarixçiləri, istər Türkiyə tarixçiləri, istərsə də qərb və rus tarixçiləri tərəfindən dəfələrlə araşdırılmışdır. Bu və ya digər formada problemlərin araşdırılmasına yönəlmiş tədqiqat işləri bütövlükdə erməni məsələsinin hərtərəfli öyrənilməsinə yardımçı olur.

Qeyd etmək lazımdır ki, XIX əsrin sonu-XX əsrin əvvəllərində Osmanlı imperiyasında baş verən ictimai-siyası proseslər, həmçinin regionda maraqları toqquşan böyük dövlətlərin Osmanlı siyasəti istər türk, istər rus, istər erməni, istərsə də qərb mənbələrində geniş təhlil edilmişdir. Qeyd etdiyimiz bu mənbələrdə birmənalı olaraq Osmanlı dövlətinə qarşı qərəzli, düşmən münasibət daha çox özünü göstərir.

Ümumiyyətlə, müstəqilliyini yenidən bərpa edən Respublikamızda tarix elmi sahəsində mühüm irəliləyişlər əldə olunmağa başlandı. Şanlı tariximizi xalqdan gizlətməyə, hadisələrə ləkə salmağa yönəldilmiş kommunist qaragüruhu aradan qaldırıldı. Məhz bu illər ərzində çoxlu sayda manaqrafiyalar tədqiq olunmağa başlandı. Sözsüz ki, daha çox işlənən mövzular içərisində aktuallığı ilə günümüzlə səsləşən "Erməni məsələsi"nin pərdəarxası məqamları da həqiqi mənasında araşdırıldı.

Bəhs olunan dövrdə "Erməni məsələsi" ilə bağlı Azərbaycan tədqiqatçıları tərəfindən bir sıra sanballı əsərlər meydana gəldi. Kifayət qədər tanınmış tarixçilərimizdən A.Məmmədli (1), A.İsgəndərov (2), B.Nəcəfov (3), C.Əliyev., B.Budaqov (4), G.Nəcəfli (12), R.Mehdiyev (15), S.Seyidova (16,17), S.Hacıyev (18,19), H.Verdiyeva (132) və b. son zamanlar nəşr etdirdikləri sanballı əsərlərdə və məqalələrdə bir daha erməni məsələsi, regionda gedən siyasi mübarizənin pərdəarxası məqamlarını təfərrüatı ilə araşdıraraq ictimaiyyətin müzakirəsinə təqdim etmişlər.

Tarixçi A.İsgəndərovun 1918-ci il mart soyqırımının tarixşünaslığı və mənbəşünaslığına aid yazmış olduğu sənballı əsər ilk olmaqla yanaşı, eyni zamanda olduqca dəyərli tədqiqat işi hesab olunur. Müəllif 1918-ci il Bakı, Quba, Şamaxı, Lənkəranda erməni quldur dəstələrinin yerli əhaliyə qarşı törətdikləri soyqırımı cinayətlərini arxiv sənədləri və stenoqram materialları əsasında tədqiq etmişdir. Uzun illər xalqdan gizlədilmiş soyqırımı cinayətləri tədqiq olunaraq xalqa olduğu kimi çatdırılmışdır. Həmçinin müəllif ilk dəfə olaraq Fövqaladə Hallar Komissiyası tərəfindən araşdırılmış materialları sistemli şəkildə oxuculara təqdim etmişdir.

Ermənilərin Qafqaza köçürülməsi işində axıra qədər erməni siyasətbazlarının maraqlarına xidmət edən çar Rusiyasının Qafqaz siyasətini və burada apardığı iyrənc siyasəti G.Nəcəflinin "XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri" adlı əsərində açıq-aydın görmək mümkündür. Müəllif XVIII əsrin I yarısında Azərbaycan torpaqları hesabına erməni dövləti yaradılması cəhdləri, bəhs olunan dövrdə ölkəmizdə erməni dövləti yaradılması üçün tərtib olunan layihələr, həmçinin II Yekaterinanın Şərq siyasətindən ermənilərin yararlanmaq cəhdləri və gələcək planları haqqında sanballı faktlar öz yerini almışdır. Əsərdə Rusiya hakim dairələrinin, o cümlədən I Pyotrun və II Yekaterinanın Şərq siyasətini həyata keçirməsi prosesində bu planın reallaşdırılması üçün göstərilən təşəbbüslər və onun nəticələri aydınlaşdırılmışdır.

Ermənilərin soyqırımı iddialarına qarşı ən sanballı əsərlərdən biri də Azərbaycanın tanınmış ziyalı alimləri akademik Cəlal Əliyevin və Budaq Budaqovun birgə hazırladıqları "Türklər, Azərbaycanlılar, Ermənilər: Tarixi Həqiqətin Soyqırımı" adlı əsəridir. Müəlliflər burada daha çox birinci dünya müharibəsində məğlub olmuş Türkiyəni parçalamaq, onu xammal mənbəyinə çevirmək məqsədi güdən Avropanın müstəmləkəçi dövlətlərinə qarşı türk vətənpərvər qüvvələrinin mübarizəsindən, son illər dünya çevrəsində müasir erməni millətçiliyindəki fəallığın həqiqi, gizlədilən səbəbləri, onların ciddi-cəhdlə körüklədikləri "soyqırımı" terminindəki əsas məqamlarından, 1915-ci il hadisələri zamanı Şərqi Anadolu torpaqlarından köçürülmüş ermənilərin dəqiq sayı, köçürülmə səbəbləri və digər məsələlərdən geniş şəkildə bəhs edirlər.

Ermənilərin Qafqaza, o cümlədən də Anadolu torpaqlarına gəlmə olduğunu, burada yüksək imtiyazlara yiyələndiklərini və digər mühüm məsələləri tədqiq etmiş tarixçi Bəxtiyar Nəcəfovun "Ermənilərin iç üzü. XIX əsrin sonu XX əsrin əvvəllərində Türkiyə və Cənubi Qafqazda erməni terrorizminin tarixi" adlı III cildlik sanballı monoqrafiyasında erməni məsələsinin meydana gəlməsində iri dövlətlərin pərdəarxası maraqları, Erməni terrorçularının fəaliyyətinin Cənubi Qafqaza köçürülməsi, Osmanlı imperiyasının bölüşdürülməsi uğrunda qanlı hadisələrin baş verməsi, Birinci dünya müharibəsi və 1915-ci il uydurma qondarma "erməni soyqırımı" ilə bağlı bir sıra tutarlı faktları arxiv sənədləri əsasında tədqiq edilmişdir.

Daşnaqsütyun partiyasına rəhbərlik edən terrorçü ermənilər tərəfindən qiyamların baş qaldırması, dinc türk əhalisinin qətlə yetirilməsi, əhalinin zorla yurd-yuvalarından didərgin salınması, ermənilərin silah-sursatla təmin edilməsi, missioner məktəblərinin açılması, əsas strateji məntəqələrin ermənilərə himayədarlıq edən qüvvələrin əlinə keçməsi kimi məsələlər tədqiqata cəlb edilmişdir. Məhz bu baxımdan əsər "erməni məsələsi"nin öyrənilməsi baxımından olduqca qiymətlidir.

Son zamanlar bu problemin öyrənilməsi ilə əlaqədar yazılmış ən sanballı monaqrafiyalardan biri tarixçı A.Məmmədli "Ermənilərin gerçək tarixi" adlı əsərində tədqiq etmişdir. O, daha çox ən qədim zamanlardan müasir dövrədək erməni etnosunun yaşadığı əraziləri, yayılma areallarını, sosial-iqtisadi vəziyyətlərini, Osmanlı imperiyasındakı vəziyyətini, erməni siyasi təşkilatlarının yaradılmasını və fəaliyyətini, Daşnaqsütyunun terrorçu fəaliyyətini öyrənməyə cəhd etmişdir. Olduqca dəyərli faktlara müraciət edən və daha çox arxiv sənədləri üzərində işləyən müəllif XX əsrin əvvəllərində ermənilərin "qızıl sultan" adlandırdıqları Sultan II Əbdülhəmid tərəfindən zorla sıxışdırılaraq imperiyanın ucqarlarına köçürülməsini, Həmidiyyə alaylarının erməni qiyamçı dəstələrinə qarşı amansız mübarizəsini, dövlət sütunlarının zəiflədilməsində erməni millətçi ekstremistlərinin xəyanətkar əməllərini hərtərəfli tədqiq edərək öyrənmişdir. Sultanın köçürülmə qərarını "vaxtında atılmış düzgün addım" kimi qiymətləndirən müəllif daha sonra hökumətin humanist siyasətinə toxunaraq müharibə bit-

dikdən sonra üsyançı ermənilərin geriye dönməsi haqqında verilmiş qərarı da təqdir etmişdir.

Son zamanlar bu problemlə bağlı ən sanballı əsərlərlə çıxış edən görkəmli alimlərimizdən biri də Azərbaycan Respublikası Prezident Adminstrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Görus-2010: absurd teatr mövsümü" adlı əsəridir. Akademik burada tarixi Azərbaycan ərazilərinə ermənilərin gəlişi, məskunlaşmaları, dini ibadətgahları haqqında geniş məlumat verir. Müəllif Azərbaycan torpaqlarında dövlət yaratmağa cəhd edən ermənilərə havadarlıq edən böyük dövlətlərin amal və istəklərini də təfərrüatı ilə işıqlandırır. Ermənilərin dili və antropologiyası haqqında tam dolğun məlumat verən akademik ermənilərin 16 antropoloji tipə bölünməsini də vurğulamışdır. Akademik qeyd edir ki, ermənilər birinci dünya müharibəsi illərində Osmanlı imperiyasında erməni qiyamının nəticələri barədə nə üçün on illiklər boyu şüvən qaldırırlar? Onlar özləri öz dövlətinə xain çıxmış, ona arxadan zərbə vurmuş, düşmən tərəfə keçmiş, ölkənin şərqində müsəlman əhalini qırmağa başlamışlar və bunun nəticələrinə görə elə özləri də məsuliyyət daşıyırlar. Guya bu cür əməllərin nəticələri xoşagələn də ola bilərmiş. Ermənilər hansı "soyqırımı"ndan danışa bilərlər ki, o vaxt bu söz yox idi. Hələ üstəlik, onlar XX əsrdə "soyqırımı"n ilk qurbanları olmaq istəyirlər, guya bundan əvvəl bütün müsəlman əhalinin qılıncdan keçirən ermənilər özləri deyilmiş və 1904-1907-ci illərdə Namibiyada gerrero və hottentot xalqlarının qır-

ğını olmamışdır". Qeyd edək ki, əsər qısa müddət ərzində özünə papulyarlıq qazandıra bildi.

Azərbaycan tədqiqatçıları ilə yanaşı bu problemlə bağlı məsələlərin daha dərindən öyrənilməsində Türkiyə tarixçilərinin araşdırmaları olduqca dəyərli və təqdirəlayiqdir. Azərbaycandan fərqli olaraq bu problemə müraciət edən Türkiyə tarixçilərinin əsərlərində daha çox məsələnin iqtisadi və siyasi tərəflərinə münasibət nəzərə çarpmaqdadır. Daha çox "erməni məsələsi"nin yaranmasından və Türkiyənin parçalanmasındakı rolundan, erməni siyasi təşkilatlarının formalaşmasından, missioner təşkilatların fəaliyyətindən, erməni millətçi ekstremistlərinin antitürkiyə fəaliyyətindən, dünyanı bürümüş erməni terrorunu əks etdirən həqiqətlərin araşdırmasından yazan türk tarixçiləri məsələnin ideoloji tərəflərini bir qədər zəif araşdırmışlar. Lakin son zamanlar bu istiqamətdə bir sıra uğurlar əldə etmişlər. Məhz bu mənada qardaş ölkənin tarixçiləri çox zaman onlara iftira atan, cəfəng iddialarla silahlanmış qüvvələrə cavab vermək məcburiyyətində qalmışlar.

"Erməni məsələsi"nin araşdırılması istiqamətində iş aparan görkəmli türk tarixçilərindən Türkkaya Ataov (30, 31, 32), Aslan Yasin (36), Azmi Süslü (41, 42), Bilal Şimşir (49), Binark İsmet (51), Beydilli Kemal (52), Demir Neşide Kerem (59), Ençiment Kuran (63), Eldar İlter (72, 73), Esat Uras (77), Hudavendigar Onur (90), Gültəkin Ural (85), Kamuran Gürün (98, 99), Kamal Öke (107), Sedat Laçıner (112, 113), Selami Kılıç (115), Yusuf Halaçoğlu (126) və digər dəyərli tədqiqatçıların adlarını xüsusi olaraq qeyd

etmək olar. Adlarını çəkdiyimiz tədqiqatçılar birmənalı olaraq bu məsələnin siyasi tərəfləri ilə yanaşı iqtisadi tərəflərini də yüksək səviyyədə araşdırmağa müvəffəq olmuşlar.

Kitabdakı hadisələrin daha dərindən araşdırılması üçün müraciət etdiyimiz bu müəlliflərdən bəzilərinin əsərlərini qeyd etməyi özümüzə borc bildik. Belə ki, Erməni məsələsinin tədqiq olunması istiamətində Esat Urasın "Tarixdə ermənilər və erməni məsələsi" adlı sanballı kitabında ermənilərin Anadolu ərazilərinə gəlişi, məskunlaşması, durumu, sosial həyatları, təşkilatlanma səviyyəsi haqqında hərtərəfli məlumatlara rast gəlmək mümkündür. Müəllifin əsas üstünlüklərindən biri də erməni dilində olan kitablardan və mənbələrdən geniş şəkildə istifadə etməsidir. Müəllif əsərdə hadisələrin II dünya müharibəsindən sonrakı vəziyyətinə daha çox yer ayırmış, xüsusilə, qondarma erməni soyqırımının 50-ci ildönümü ilə əlaqədar hadisələrin yenidən qızışdırıldığının səbəb və nəticələrini ətraflı şəkildə təhlil etmişdir. Eyni zamanda müəllif əsərdə 1970-ci ildən sonra türk diplomatiyasına qarşı erməni terrorunun gizli qalan məqamlarına işıq salmağa çalışmışdır. Əsər bu dövrün hadisələrinin öyrənilməsi baxımından olduqca dəyərli bir vasitədir.

Türk tarixçisi Kamuran Gürünün "Erməni dosyası" adlı əsəri də tədqiq etdiyimiz problemin öyrənilməsi üçün dəyərli tədqiqat işidir. Müəllif burada ermənilərin tarixi ərazilərini, dini inanc sistemlərini, fars, ərəb, səlcuq, monqol, osmanlı imperiyaları zamanındakı durumunu

tədqiq etmiş, xüsusilə erməni məsələsini daha dərindən öyrənməyə cəhd göstərmişdir.

Azmi Süslünün "Türk-erməni əlaqələri" adlı həcmcə çox da iri olmayan kitabında türk-erməni əlaqələrinin yaranması, türklərin ermənilərə olan isti münasibəti, sultan II Mehmetin erməni etnosuna etdiyi güzəştləri, hökumətin ermənilərlə bağlı imtiyazların verilməsini, iri ticarət mərkəzlərində mövqe qazanmaları və digər amillərə toxunmuşdur. Müəllif Osmanlı hökumətinin ermənilərə olan isti münasibətlərin qarşılığı olaraq türk millətinə terrorla, qiyamlarla, üsyanlarla, xəyanətlərlə cavab verildiyini ürək ağrısı ilə qeyd etmişdir. Müəllif əsərdə müxtəlif dillərdə olan mənbələri araşdırmış, bır sıra gizli qalan, xalqdan gizlədilən məqamlara aydınlıq gətirmişdir.

Uzun müddət Türk Tarix Qurumuna rəhbərlik etmiş, hal-hazırda isə TBMM-in fəal üzvü olan prof.dr Yusuf Halaçoğlu da bu problemlə əlaqədər çoxlu sayda tədqiqat işləri aparmış, bir sıra dövlətlərin arxivlərində maraqlı faktları üzə çıxarmışdır. Müəllif "Ermeni tehciri" adlı monoqrafiyasında "Erməni məsələsi"ni sistemli şəkildə araşdırmış, I dünya müharibəsinə qədərki mərhələdə böyük dövlətlərin Anadolu siyasətində erməni faktorunu tədqiq etmişdir. Əsərdə həmçinin ermənilərin ümumi sayı, terror fəaliyyətləri, sultan hökumətinin köçürmə siyasəti və iri dövlətlərin islahat planları üzərində araşdırmalar aparılmışdır. Ümumilikdə əsər bu problemin öyrənilməsi baxımından çox dəyərli tədqiqat işidir.

Burada Selami Kılıçın “Erməni Məsələsi və Almaniya” adlı iri həcmli monoqrafiyasını xüsusilə qeyd etmək lazımdır. Müəllif əsərdə I dünya müharibəsində Ərzurumda yaşayan almanların durumunu, Almaniyanın ermənilərə olan missionerlik fəaliyyətlərini, erməni üsyanlarının alovlanmasında Almaniyanın rolunu, erməni iddialarının Avropada əsas müdafiəçisi, mənşəcə alman Johannes Lepsiusun fəaliyyətini, müasir dövrdə alman siyasətində erməni məsələsini müxtəlif mənbələr və faktlar əsasında araşdıraraq üzə çıxarmışdır. Əsərdə daha çox arxiv materiallarından istifadə olunmuşdur.

Şenol Kontarcı “Erməni məsələsi və pəncərədən baxmaq və mənzərənin tamını görmək” adlı monoqrafiyasında ilk dəfə olaraq erməni millətçi ekstremistlərinin Qazi Mustafa Kamal Atatürkə qarşı erməni sui-qəsdləri, Atatürkün erməni məsələsinə münasibəti, Qarsda türklərə qarşı erməni qiyamları, katolik ermənilərin Anadoluda fəaliyyətləri, bir milyondan artıq Azərbaycan türkünün erməni təcavüzünə məruz qalmasını, Qarabağ düyününü arxiv sənədləri əsasında araşdırıb tədqiq etmişdir. Bütövlükdə, türk tarixçilərinin araşdırmaları problemin öyrənilməsi baxımından gizli qalan məqamların aşkara çıxarılmasında bizlərə daha yaxından yardımçı oldu.

“Erməni məsələsi” əcnəbi tarixçilər tərəfindən də dəfələrlə tədqiq edilmiş, öyrənilmişdir. Bunlara misal olaraq Erix Fayql (130), Jastin və Karolin Makkarti (95, 132), Samuel A. Uimz (23), Jorj de Malevil (137), Selahi Sonyel (114), Evans Laurense (76), Stenford Corc Şou (130),

Qrandville Edqard (104), Rafael de Noqales (116), Quram Marxuliya (133), Mango Andrew (106), Lowry Hearty (105), Qurko-Qryajini (12) və digər tədqiqatçıların adlarını qeyd etmək olar. Məşhur Avstriya alimi Erix Fayqlın "Kəskin dönüş! Erməni mifomaniyası və həqiqət" adlı sənədlər toplusundan ibarət əsəri olduqca dəyərlidir. Təxminən on iki dildə çap edilmiş əsərdə müəllif ermənilərin soyqırımı iddialarını mif adlandırması və türklərə qarşı ermənilərin iyrənc kompaniyalarını tənqid etmişdir. Müəllif uzun illər ermənilərin mifomaniya xəstəliyinə tutulduğunu vurğulamaqla bir daha dünya ictimaiyyətinə çatdırmaq istəyir ki, ermənilərin yalan, uydurma vədləri cəgəngiyatdan başqa bir şey deyildir. Müəllifin digər bir əsəri də "İpək yolu üzərində Odlar yurdu-Azərbaycan" adlanır. Əsərdə daha çox türk dünyasının mərkəzində yerləşən Azərbaycanın qədim əraziləri, dövlətləri, sərhədləri, tarixi keçmişi haqqında geniş şəkildə məlumat verilir. Həmçinin burada xalqımıza qarşı erməni təcavüzünün pərdəarxası məqamları da araşdırılmışdır.

ABŞ-ın Luisvill Universitetinin professoru Jastin Makkartinin "Erməni məsələsi" ilə bağlı araşdırmaları da geniş maraq doğurur. Müəllifin çoxsaylı tədqiqatları problemin kökündən araşdırılmasına yeni bir baxış sərgiləməkdədir. Onun "Ölüm və Sürgün" adlı iri həcmli monoqrafiyasında problemin meydana gəlməsi, XX əsrin əvvəllərində ermənilərin sosial durumu, əhalinin sayı hökumətin statistik materialları əsasında tədqiq edilmişdir. Müəllif də osmanlı hökumətinin 1915-ci il hadisə-

lərini faciə yox özünü müdafiə tədbiri kimi qeyd edir və hökumətin bu addımını alqışlayır.

Türk dünyasının haqq səsinin dünyaya çatdırılmasında misilsiz xidmətlər göstərmiş, çoxsaylı məqalələr müəllifi, ABŞ əsilli hüquqşünas Səmyuel A.Uimzin "Ermənistan-terrorçu "xristian" ölkənin gizlinləri" adlı iri həcmli əsəri problemlə əlaqədar olaraq bir sıra boşluqları doldurmaq baxımından misilsiz əhəmiyyət kəsb edir. İyirmi bir fəsildən ibarət olan əsərdə müəllif Qafqaz və Anadolu regionundakı tarixi prosesləri izləyərkən minilliklərin qaranlıq qatlarına enmiş, beş yüz ildən artıq Osmanlı Türkiyəsinin Şərqi Anadolu hissəsində yerli müsəlmanlarla sülh və əmin-amanlıq şəraitində yaşamış ermənilərin xəyanət və satqınçılıq yolu tutması prosesini soyuqqanlıqla qələmə almışdır. Əsərdə dünyanın müxtəlif ölkələrində həyata keçirdikləri terror aktları, öz ərazilərində apardıqları etnik təmizləmə, din və dövlətin birliyi, erməni kilsəsinin terrorçu-təcavüzkar xisləti və s. məsələlər təfərrüatı ilə araşdırılmışdır. Vaşinqton, London, Paris, Roma, İstanbul, Moskva kimi iri şəhərlərin arxivlərində uzunmüddətli elmi araşdırmalar aparan müəllif cəsarətli şəkildə "cırtdan ölkə"nin (burada söhbət indiki Ermənistandan gedir-T.C) gecə-gündüz silahlanaraq bu ölkəyə təmənnasız şəkildə 1 milyard dollarlıq silah-sursat vermiş Rusiyanin və 1992-2001-ci illər ərzində bu ölkəyə 1.4 milyard dollar pul ayırmış ABŞ-ın hesabına Qarabağı işğal etdiyini vurğulaması erməni maraqlarına xidmət edənlərin ünvanına söylənilmiş ən tutarlı zərbələrdir. Maraqlısı ondan ibarətdir ki, əsər hələ

işıq üzü görməmiş müəllifə qarşı erməni təhdidləri başlamış, ona dəfələrlə telefon açaraq, elektron poçtundan istifadə edərək ölümlə hədələmişlər. Kitab çapdan çıxandan bir müddət sonra müəllifin müəmmalı şəkildə qəflətən vəfat etməsi bir daha erməni vandalizminin vəhşi xislətindən xəbər verir.

**Tədqiqatın elmi-praktik əhəmiyyəti**. Tədqiqat işinə cəlb edilmiş araşdırmalarının elmi-praktiki əhəmiyyəti olduqca böyükdür. Burada Osmanlı arxiv sənədləri, türk, rus, ingilis dilində nəşr edilmiş monoqrafiyalar, cədvəllər və bir çox materiallar əsasında toplanmış zəngin tarixi faktlar qondarma "erməni soyqırımı" iddialarına zərbə vuran ən tutarlı mənbələrdir. Monoqrafiyanın əhatə etdiyi xronoloji çərçivə 1877-1878-ci illər rus-türk müharibəsi zamanı meydana çıxan "erməni məsələsi"ndən başlayaraq bir neçə dövrü əhatə edir. Birinci dövr 1877-78-ci ildən XX əsrin əvvəllərinədək; ikinci dövr XX əsrin əvvəllərindən Müstəqil Türkiyə Cühhuriyyətinin qurulmasına qədər; üçüncü dövr 1923-cü ildən 1965-ci ilə qədərki mərhələ; dördüncü dövr isə 1965-ci ildən Müstəqil Ermənistan Respublikasının türk dünyasına qarşı apardığı mübarizə dövrünü əhatə edir. Zəngin tarixi faktları özündə əks etdirən tədqiqat işində qondarma "erməni soyqırımı"nın saxta və cəfəngiyyatdan başqa bir şey olmadığı sübuta yetirilmişdi. Məhz bu baxımdan tədqiqat işindən qondarma "erməni soyqırımı" ilə bağlı ali məktəblərin tarix fakultəsində ümumi mühazirə kurslarının və konfrans materiallarının hazırlanmasında istifadə etmək olar.

**Aparılan araşdırmanın metodologiyası və metodları**. Müasir tarix elmində mövcud olan çoxsaylı metodoloji müxtəlifliklər içərisində bu tədqiqat işində istifadə edilmiş metodoloji prinsipləri müəyyən etmək çox vacibdir. Məhz bu baxımdan tətbiq etdiyimiz metodoloji prinsiplər ardıcıl olaraq baş verən tarixi hadisələri öyrənməyi nəzərdə tutur. Tədqiqat işinin materiallarında daha çox müstəqil analitik təhlil, xronoloji ardıcıllıq prinsipinə, sintez və analiz metoduna, hadisələrin və tarixi faktların müqayisəli təhlilinə üstünlük verilmişdir.

Tədqiqat işində daha çox müqayisəli təhlil metodundan və ümumiləşdirmələrdən istifadə edilmişdir. Bu qərbin iri imperialist dövlətlərinin uydurma "erməni soyqırımı" ilə əlaqədar Osmanlı hökumətinə ünvanladıqları sərt ittihamları, eyni zamanda bununla bağlı qərb müəlliflərinin fərqli fikirlərini aydınlaşdırmağa imkan yaradır.

**İşin strukturu və həcmi**. Tədqiqat işi giriş, dörd fəsil, doqquz yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İşin ümumi həcmi **80** səhifədir.

## "Erməni məsələsi" beynəlxalq münasibətlər sistemində ( XIX əsrin II yarısı )

XVIII əsrdə Avstriya ilə birlikdə Osmanlı imperiyasına məxsus ərazilərin bir hissəsini ələ keçirmiş Çar Rusiyası XIX əsrin II yarısından etibarən xarici siyasət strategiyasına yenidən baxmalı olmuşdur. Çar hökumətinin əsas istəyi Krımı tutmaqla Qara dəniz hövzəsində, həmçinin Qara dənizi Aralıq dənizi ilə birləşdirən mühüm strateji məntəqələrdə (boğazlarda, dəniz limanlarında, satış bazarlarında və i.) möhkəmlənmək idi. Eyni zamanda Çar Rusiyası Qafqazdan tutmuş Şərqi Anadolu bölgəsi də daxil olmaqla Bəsrə və İskəndərun limanlarına yiyələnməyə çalışırdı. Bunun üçün çar hökuməti müxtəlif yollar arayıb-axtarmağa başladı. Nəticədə, həmin dövr üçün çar hökumətinin üzərində dayandığı əsas yol–Bolqarıstan oldu. Lakin 1877-1878-ci illər rus-türk müharibəsində Bolqarıstan vasitəsilə Egey dənizinə çıxış əldə edəcəyinə ümid edən Çar Rusiyasının bu istəyi gerçəkləşmədi. Digər çıxış yolları üzərində işləyən Rusiya srateqləri Qafqaz istiqamətindən keçməklə öz istəklərinə nail olmağa can atırdılar. Əslində Çar Rusiyasının başlıca məqsədi isti dənizlərə yiyələnməklə Şərqi Anadoludan Basra-İskəndərun limanlarına uzanacaq nəhəng "erməni koridoru" yaratmaq idi (62, 28). Bu strateji plan tamamilə təhlükəli olduğu üçün Osmanlı imperatorluğu ilə yanaşı eyni zamanda İngiltərə və Fransa kimi nəhəng dövlətləri

da narahat etməyə başladı. Odur ki, İngiltərə Osmanlı imperatorluğunun sərhədlərini 1878-ci il Berlin Konqresinə qədər qorumaq siyasətini yürüdürdü. Öz növbəsində İngiltərə başa düşürdü ki, onun Şərqi Aralıq dənizi və Hindistandakı mülkləri tez bir zamanda rus təhlükəsi ilə üzləşəcəkdir. Məhz buna görə də İngiltərə təcili olaraq Rusiyanın Balkanlarda möhkəmlənməsinə hər vəchlə mane olmağa çalışan Avstriya və Almaniyanı da öz tərəfinə çəkə bildi. Ümumilikdə, "Şərq məsələsi" adlandırılan bu siyasət Avropa dövlətlərinin və Çar Rusiyasının Osmanlı təbəəsi olan xristianların haqlarını qorumaq adı altında Osmanlı torpaqlarını parçalayaraq öz aralarında bölüşdürməkdən başqa bir şey deyildi. Daha dolğun şəkildə desək, Osmanlı imperiyasının süqutunun sürətləndirilməsi, imperiya ərazisində yaşayan xalqların milli azadlıq hərəkatının genişlənməsi və Türkiyənin hakimiyyəti altında olan torpaqların bölüşdürülməsi uğrunda Avropanın böyük dövlətləri arasında gedən mübarizə ilə bağlı beynəlxalq ziddiyyətlər dünya tarixşünaslığına "Şərq məsələsi" adı ilə daxil olmuşdur (90, 126). Qısaca olaraq qeyd etmək lazımdır ki, ilk dəfə olaraq 1815-ci ildə Vyana konqresində rus diplomatları tərəfindən işlədilən "Şərq məsələsi" ifadəsi bundan sonra Avropa diplomatiyasına yol açmış oldu. XIX əsrin I yarısında xarakterinə görə "Şərq məsələsi" Osmanlı imperiyasının ərazi bütövlüyünün qorunmasını nəzərdə tuturdusa, XIX əsrin II yarısından bu siyasət türklərin Avropadakı ərazilərinin qərbin iri müstəmləkəçi dövlətləri arasında bölüşdürülməsinə, XX əsrdən etibarən isə

Osmanlı imperiyasının bütün ərazilərinin ələ keçirilməsinə yönəlmişdi (90, 123).

Qeyd etmək lazımdır ki, Şərqi Anadolu ərazilərində, həmçinin Yaxın Şərqdə status-kvonun qorunub saxlanılması məsələsində razılığa gələ bilməyən qərbin iri imperialist dövlətləri bu dəfə "erməni kartı"ndan faydalanmağa çalışırdılar. İstər İngiltərə, Fransa və Rusiya, istərsə də Almaniya, Avstriya-Macarıstan və İtaliya ayrı-ayrılıqda bu bölgənin şəriksiz sahibinə çevrilməyə can atırdılar. Artıq bölgədə gündən-günə mövqelərini gücləndirən Almaniya, Yaxın Şərqdə, o cümlədən Aralıq dənizi hövzəsində qüdrətlənən İngiltərə və nəhayət, isti dənizlərə enməklə dünyanın ən strateji bölgəsi olan Anadolunu ilhaq etmək niyyətində olan Rusiya arasında mübarizə getdikcə gərginləşməkdə idi. Bu arada ayrı-ayrılıqda bu dövlətlərin Osmanlı siyasətini analiz etməyi məqsədəuyğun hesab etdik.

Qeyd etmək lazımdır ki, 1699-cu ildə Karlovitsa müqaviləsi ilə Osmanlı imperatorluğunun geriləmə və çöküş dövrü başladı. Karlovitsa imperiyanın ilk ən böyük torpaq itkisi ilə üzləşdiyi müqavilə kimi tarixə düşmüşdür. Məhz bu müqavilədən sonra Rusiya birbaşa olaraq Avropaya olan müdaxiləsini daha da güclənirmişdi. Ucsuz-bucaqsız torpaqları qəsb etmiş Rusiya bu dəfə isti dənizlərə yiyələnməyə və daha doğrusu, qüdrətli dəniz dövlətinə çevrilməyə can atırdı. Bunun baş tutması üçün iki yol müəyyənləşdirilmişdi. Birinci istiqamət boğazlar vasitəsilə Aralıq dənizinə çıxmaq idisə, ikinci istiqamət su yollarından istifadə etməklə Hindistana en-

mək və orada möhkəmlənmək idi. Məhz ikinci istiqamətlə bağlı planlar 1734-cü ildə Çariça Anna İvanovnanın dövründə (1730-1740) qəbul edilmiş və planın tərtib edilməsi ilə bağlı bütün məsələlər Krillova həvalə edilmişdir.

Qeyd etmək lazımdır ki, rus çarı I Pyotr Rusiyanı Ortadoks xristianlığının mərkəzinə çevirməyə can atırdı. Bu siyasət bütün rus çarları tərəfindən müsbət qarşılanmış, lakin II Yekaterina, I Nikolay və II Aleksandr bu işdə daha çox müvəffəqiyyət qazanmışdı. Digər tərəfdən hərbi və iqtisadi qüdrətini gücləndirən Rusiya II Yekaterinaya qədər Osmanlı imperatorluğu ilə təkbaşına mübarizə aparmaq qüdrətinə malik deyildi. Yalnız 1774-cü il Kiçik Qaynarca sülhü Rusiyanın artıq heç bir dövlətin yardımına ehtiyac olmadan Osmanlı dövlətini çökdürə biləcəyi iddiasını ortaya qoydu.

XVIII əsrin əvvəllərindən etibarən Avropada ən güclü dövlətin Avstriya imperatorluğu olduğunu qeyd etmək lazımdır. 1683-cü ildə İkinci Vyana müharibəsindən sonra təxminən iki əsr yarımdan çox Osmanlı imperatorluğuna qarşı mübarizə apara bilməyən və torpaqlarının əksəriyyətini itirən Avstriyanın əsas məqsədi itirdikləri mülkləri geri qaytarmaq idi. Xüsusilə, Macarıstan, Bosniya, Hersoqovina, Serbiyanı geri qaytarmağa çalışan Avstriya Rusiya ilə yaxınlaşmağa başladı. 1716-1718-ci illər müharibəsi nəticəsində bir sıra ərazilər əldə etməsinə baxmayaraq, 1736-cı ildə Osmanlı dövlətinin Rusiyaya müharibə elan etməsi ilə bu müharibədən özünə pay almaq məqsədi güdən Avstriya 1737-

ci ildə müharibəyə girmiş, lakin Rusiya ilə birlikdə məğlub olmuşdur (99, 113).

Avstriya ilə yanaşı burada maraqları olan böyük dövlətlərdən biri də İngiltərə idi. İngiltərənin Osmanlı siyasəti 1774-cü ildə imzalanmış Kiçik Qaynarca müqaviləsindən sonra başlamışdır. Qeyd edək ki, 1787-ci ildə rus-türk müharibəsi başladığı zaman İngiltərə hökumətinin başında duran Vuliyam Pitt Rusiyanın mütəmadi cənub istiqamətindəki müdaxiləsini və qüvvətli bir Qara dəniz dövlətinə çevriləcəyi halda İngiltərə üçün təhlükəli ola biləcəyini ilk dəfə hiss etmiş və bunun üçün Rusiyaya qarşı Osmanlı imperatorluğunu dəstəkləməyə başlamışdı. Pittin 1783-cü ildə həyata keçirdiyi bu siyasət dəyişmədən bir əsr, Qladstonun baş nazir postuna kecdiyi günə qədər davam etmişdir. Həmçinin, Pitt 1787-1792-ci illər rus-türk müharibəsində Avstriyanı Rusiya ilə bir ittifaqdan ayırmağa müvəffəq olmuş, xüsusilə Fransa İnqilabından sonra Prussiyanı da öz tərəfinə çəkərək Rusiyaya qarşı mübarizəni gücləndirmişd (99, 114-115).

XVIII əsrin sonu - XIX əsrin əvvəllərində İngiltərə daha çox Fransa ilə mübarizə aparmaqda idi. Bu mübarizədə İngiltərə Rusiyanı dəstəkləmiş, hətta ordusunu Mərmərə dənizinə yeritmişdi. Lakin 1807-ci ildə imzalanmış Tilzit sülhünün nəticələrinə görə, Fransanın Rusiya ilə yaxınlaşdığını görən İngiltərə Osmanlı imperatorluğu ilə münasibətlərini yenidən nizama salmış, həmçinin 1815-ci ildə toplanan Vyana konqresində Osmanlının ərazi bütövlüyünü bir daha dəstəkləmişdi. ***(BURA QƏDƏR YERLƏŞDİRDİM)***

Fransaya gəldikdə isə, Osmanlı dövlətinin bu dövlətlə yaxın münasibətləri Napaleon Bonopartın dövründən başlamışdı. Napaleonun Misirə uğursuz səfərindən sonra Fransa Rusiyaya qarşı Osmanlı dövlətini dəstəkləmiş, lakin Vyana konqresindən sonra (1815-ci il) Fransa Avropa siyasətində aktiv rol oynamaq imkanlarını itirmişdir (99, 117). Bu dövrdən etibarən Fransa Yaxın Şərqdə mövqe qazanmaq uğrunda mübarizəyə qalxmış, 1830-cu ildə Əlcəzairi işğal edərək Afrikada genişlənmək siyasətini davam etdirmişdi. Osmanlı imperiyasında katoliklərin hamisi rolunu oynamaq iddiasında olan Fransa bu işdə bir sıra uğurlar əldə etmiş, eyni zamanda Anadolu ərazilərində saysız-hesabsız missioner məktəblərinin açılmasına yardımçı olmuşdur. Xüsusilə, bu proses XIX əsrin sonlarından etibarən daha da intensiv xarakter almağa başladı.

Göründüyü kimi, böyük dövlətlərin Yaxın Şərq siyasətindəki maraqları bir-birinə zidd olduğu üçün onlar arasındakı münasibətlər getdikcə gərginləşməkdə idi. Nəticədə, bölgədəki proseslər Osmanlı imperiyasını Rusiya ilə açıq müharibə vəziyyətinə gətirib çıxardı. Məlum olduğu kimi, 1877-ci ilin mart ayının 31-də Avropa dövlətlərinin Londonda imzaladıqları protokolu Osmanlı dövləti özünün daxili işlərinə kobud müdaxilə kimi qiymətləndirərək onu rədd etdi və elə bu, 1877-1878-ci illərdə Rusiya ilə Türkiyə arasında növbəti müharibəyə səbəb oldu. London protokolunda onu imzalayan dövlətlər guya "Avropada sülhün qorunması baxımından Osmanlı dövlətindəki xristianların vəziyyəti ilə məş-

ğul olmaqla davam edəcəklər"ini bildirmişdilər. Osmanlılarla müharibə edən yeganə dövlət isə Rusiya olmuşdu. Müharibə Çar Rusiyasının qələbəsi ilə başa çatdığından müharibənin nəticəsi olaraq 3 mart 1878-ci ildə San-Stefano sülh müqaviləsi imzalandı. Xatırlatmaq lazımdır ki, müharibəyə Osmanlı imperatorluğu müttəfiqsiz qatılmışdı. Müharibədə Osmanlı imperatorluğu dünya dövlətləri arasında hərbi qüdrətinə görə İngiltərə, Almaniya, Fransa və Rusiyadan sonra beşinci ölkə idi (31, 39). 24 aprel 1877-ci ildə iki imperiya arasında başlanan bu müharibə qısa müddətli olsa da Osmanlı imperiyasının məğlubiyyəti və San-Stefano sülh müqaviləsinin bağlanması ilə başa çatdı (4, 38). Müqaviləyə görə, Türkiyə özünün Balkanlardakı mülklərinin çox hissəsini (Serbiyanı, Rumıniyanı) itirdi, Bolqarıstan muxtar knyazlığa çevrildi, bundan əlavə, Cənubi Bessarabiya, Batumi, Ərdahan, Qars, Bəyazid Rusiyaya birləşdirildi. Lakin bu müqavilə Avropa ölkələrinin, ilk növbədə İngiltərənin və Avstriya-Macarıstanın ciddi müqaviməti ilə üzləşdi, çünki onlar Rusiyanın Şərqdə güclənəcək təsirindən ehtiyat edirdilər. Siyasi cəhətdən təklənmiş və müharibədən zəifləmiş Rusiya Avropa ölkələrinin təzyiqi nəticəsində San-Stefano müqaviləsinə yenidən baxılmasına razılıq verdi (4, I cild, 38).

1877-1878-ci illəri əhatə edən bu müharibə Osmanlı dövləti ilə Rusiya arasında baş verən ən qısa və sonu ən ağır olan müharibə kimi tarixə düşmüşdür. Müharibədə ağır itkilər verən Osmanlı dövlətinin düşdüyü ağır vəziyyətdən istifadə edən erməni icmaları və kilsə fəallaşmağa

başladı. Belə ki, müharibə başa çatdıqdan dərhal sonra Erməni Milli Məclisinin təşkil etdiyi gizli toplantıda Eçmiədzin katolikosluğuna məktub göndərilməsi qərara alındı. Məktubla tanış olan katalikos Nerses Varşapetyan çar II Aleksandıra 3 bəndlik "erməni istəkləri"ni çatdırdı. Tarixşünaslığa "Erməni müraciəti" kimi daxil olmuş bu sənədin məzmunu aşağıdakı kimi idi:

- Fərat çayına qədər bölgənin türklərə qaytarılmaması və həmin ərazilərin Ararat ilə birləşdirilərək Rusiyaya meylli müstəqil Ermənistan dövlətinin yaradılması;
- Müstəqil Ermənistan dövləti yaradılmayacağı təqdirdə Bolqarıstana və bolqar millətinə verilmiş imtiyazların erməni xalqına da şamil edilməsi;
- İşğal edilmiş ərazilər boşaldılarsa, sultandan islahat üçün maddi təminat alınmalı və islahat tamamlanana qədər rus əsgərlərinin zəbt edilmiş torpaqlarda qalmaları kimi məsələlər öz əksini tapmışdır (77, 498). Qeyd etmək lazımdır ki, ermənilərin siyasi arenada ciddi şəkildə Osmanlı imperatorluğundan ilk ayrılma istəkləri də məhz 1877-78-ci illər Osmanlı-rus müharibəsindən sonra meydana çıxmışdır. Həmçinin bu müharibənin nəticəsi kimi "erməni məsələsi" böyük dövlətlərin süfrəsində yer almağa başladı. Qeyd edək ki, "erməni məsələsi" "şərq məsələsi" adlandırılan məsələnin bir hissəsi kimi meydana gətirildi və ona iki nöqteyi-nəzərdən baxılmalıdır. Zahiri mahiyyət: böyük dövlətlər Türkiyəni daha asanlıqla istismar etməkdən ötrü onun mərkəzdənqaçma qüvvələrini gücləndirməyə, beləliklə,

ölkəni zəiflətməyə çalışırdılar. Daxili mahiyyət: öz burjuaziyasının rəhbərliyi altında ermənilər milli müqəddəratın müstəqil təyin edilməsi uğrunda, elə siyasi-iqtisadi amillər əldə olunması uğrunda mübarizə aparırdılar ki, bu amillərin təsiri altında burjuaziya sərbəst inkişaf edə bilsin (12, 7)

İmzalanmış sülh müqaviləsinin 16-cı maddəsinə ayrıca ermənilərlə bağlı məsələnin salınması heç də təsadüfi deyildi. Bunun bir sıra mühüm səbəbləri var idi. Birincisi, qərb kapitalı ermənilərə, xüsusilə erməni burjuaziyasına Türkiyədə özlərinin iqitsadi vasitəçiləri, köməkçiləri kimi baxırdılar. Bunun əvəzində isə erməni burjuaziyası ermənilərin yaşadıqları Şərq vilayətlərində islahat aparmaq, Türkiyə dövlətini buna məcbur etmək məsələsini qərb dövlətləri qarşısında qoyurdu (101, 258). Bu maddəyə görə Şərqi Anadolunun ermənilər yaşayan ərazilərində islahatlar aparılmalı və ermənilər bölgənin digər xalqları ilə (türk, kürd, çərkəz) sülh şəraitində yaşamalı idilər (70, 66). San-Stefano sülhünün 16-cı maddəsinin şərtləri sonralar Berlin sülh müqaviləsinin 61-ci maddəsində daha da təkmilləşdirildi. Beləliklə, XIX əsrin 70-ci illərindən ortalığa atılan "erməni məsələsi" xarakterinə görə həm siyasi, həm milli, həm də dini məsələ olaraq qalırdı..

San-Stefano sühünün nəticəsində ermənilərlə bağlı 16-cı maddənin bu formada qəbulu daha çox İngiltərə hökumətini narahat etməyə başladı. Belə ki, İngiltərə hökuməti Rusiyanın maraqlarına xidmət edən hər hansı maddənin burada yer almasına qarşı idi. Bu maddə ilə

rusların erməniləri himayə etmək pərdəsi altında Şərqi Anadolunu Balkanlaşdırmağa başlayacağı və burada müharibə ilə əldə etdiyi torpaq qazancının yaratdığı əlverişli şəraitdən faydalanaraq öz təsirini bir tərəfdən İsgəndərun, o biri tərəfdən də Mesopotamiya üzərindən Bəsrə körfəzinə yaymaq istəyəcəyi təbii idi. Bundan başqa zəruri hallarda Rusiya bütün Anadolu ilə İstanbulu da asanlıqla təhdid edə biləcəkdi. Ümumilikdə, Rusiya Osmanlı imperatorluğu ərazilərini təkbaşına ilhaq etmək və yaxud öz himayəsi altına almaq üçün ermənilərdən bir istinad nöqtəsi kimi istifadə edəcəkdi (123, 55).

Müharibədə qələbə Rusiyanın Balkanlarda nüfuzunu və mövqeyini möhkəmləndirdi. Bu isə Avropa imperialistlərinin, ilk növbədə İngiltərə ilə Avstriya-Macarıstanın mənafeyinə uyğun gəlmirdi. Müharibədən əvvəl gözləmə mövqeyi tutan həmin dövlətlər Rusiyanın bölgədə hegemonluğuna yol verməmək niyyətində deyil-dilər. Məhz San-Stefano sülhünün şərtləri Qərbi Avropa dövlətlərini tam qane etmədiyindən Berlində yeni bir konqresin çağırılması məqsədəuyğun hesab edildi. Konqresə Qərbi Avropanın yeddi ən iri dövləti - Rusiya, Türkiyə, Almaniya, İngiltərə, Fransa, Avstriya-Macarıs-tan və İtaliya qatılmışdı. Konqresə Almaniyanın baş konsleri Prens Otto Fon Bismark rəhbərlik edirdi. Qeyd edək ki, nümayəndə heyyəti ilə konqresə təşrif buyurmuş ermənilər iyunun 1-dən müzakirələrə buraxılmadılar. Hətta erməni nümayəndə heyətini təkcə iclas salonundan deyil, binadan da çıxarıb qovdular. Bu azmış kimi San-Stefano müqaviləsində işlədilmiş "Ermənistan" sözünü

də Berlin traktatından çıxarıb onu "ermənilər yaşayan ərazilər" ifadəsi ilə əvəz etdilər. Konqress bir ay müddətinə (13 iyundan – 13 iyula qədər) fəaliyyət göstərdi. Məlum olduğu kimi, Şərqi Anadoluda müstəqil Ermənistan dövlətinin yaradılmasına çalışan İngiltərə, Fransa və Rusiya 61-ci maddənin şərtlərini müzakirə etmədən imzaladılar. Nəticədə, Rusiyanın müharibə nəticəsində əldə etdiyi, San-Stefano sülh müqaviləsi ilə tanınmış bir sıra üstünlükləri ləğv olundu (63, 154). Türkiyənin daxili işlərinə daim qarışa bilmək bəhanəsini əldə saxlamaq üçün Qərbi Avropa ölkələri Berlin traktatının mətninə 61-ci maddənin daxil edilməsini israrladılar. Həmin maddəyə əsasən Frakiya, Makedoniya, Albaniya və Kritdə, həmçinin Türkiyənin ermənilər yaşayan vilayətlərində yerli özünüidarə islahatı keçirərək xristianları hüquqi cəhətdən müsəlmanlarla bərabərləşdirmək öhdəliyini Türkiyə üzərinə götürürdü. İslahatların keçirilməsinə yalnız Rusiyanın nəzarət edəcəyini bəyan edən San-Stefano müqaviləsindən fərqli olaraq, indi artıq bu funksiya konqress iştirakçılarından olan altı ölkəyə həvalə edilirdi (4, I cild, 39). Müqavilənin birinci maddəsinə görə, İngiltərə Rusiyaya qarşı Osmanlı dövlətini qoruyucaq, qarşılığında isə Kipr adasını İngiltərəyə verəcəkdir. İlk illərdə kirayə şəklində İngiltərəyə icarəyə verilən Kipr adası, sonradan Osmanlı dövlətinin Almaniyaya ilə bir blokda müharibəyə girməsi ilə ada İngiltərə tərəfindən tamamilə ilhaq edildi (72, 149). Nəticədə, "erməni məsələsi" çarizmin monopoliyasından çıxarılmış oldu.

Qeyd etmək lazımdır ki, San-Stefano və Berlin müqavilələrindən sonra böyük dövlətlər Osmanlı dövlətinin daxili işlərinə qarışmağa başladılar. Osmanlını daha da zəiflədib onu parçalmağa çalışan əsas dövlətlər İngiltərə və Rusiya idi. İngiltərə ilə yanaşı Fransa və Almaniyanın da niyyəti Yaxın Şərqin o vaxt Osmanlı imperiyasının tərkibinə daxil olan geniş ərazilərini ələ keçirmək idi. Nəticədə, İngiltərə və Rusiyanın təhriki ilə "erməni məsələsi" adlanan uydurma bir problem daha da şişirdilərək Türkiyədə qanlı hadisələrə yol açdı və dövlətlərarası bir xarakter aldı.

Bu dövrdəki beynəlxalq şərait iri dövlətlər arasında müstəmləkələr və yeni ərazilər ələ keçirmək uğrunda gedən mübarizənin kəskinləşməsi baxımından mürəkkəb tarixi mərhələ idi. İngiltərə və Fransa ilə Rusiya arasında Osmanlı imperiyasını parçalamaq, Yaxın Şərqdə hegemonluq uğrunda aparılan gərgin mübarizə getdikcə öz məcrasından çıxmaqda idi. Hadisələrin gərginləşdiyi bir vaxtda 1880-ci ildə İngiltərədə hakimiyyət dəyişikliyi baş verdi və nəticədə ikinci dəfə baş nazir postunda əyləşən Qladston başda olmaqla Liberal partiyası hakimiyyətə gəldi. Qladston hökuməti Pittin müəyyənləşdirdiyi və bir əsrdən də çox dəyişilməyən Osmanlı dövləti ilə bağlı siyasətindən vaz keçərək Osmanlı imperatorluğunun mülki toxunulmazlığını və ərazi bütövlüyünü qorumaqdan imtina etdi. Xüsusilə, burada din faktorunu və Qladstonun imperialist maraqlarını da qeyd edə bilərik. Təkbaşına sultana təzyiq göstərə bilmədiyini anlayan İngiltərə digər qərb dövlətlərini də bu işə cəlb edə bildi

və nəticədə 5 dövlət (ABŞ, İngiltərə, Fransa, Rusiya, İtaliya) vahid bir koalisiyada birləşərək Osmanlı imperatorluğuna qarşı mübarizə aparmalı oldular. Əvvəllər bu işdə məhz İngiltərə dövləti maraqlı olduğu halda indi artıq 5 dövlət bu işə qoşulmaqla bir növ Anadolu ərazisində şərti də olsa öz milli maraqlarını təmin etmiş olurdularb (129, 42). Beləcə Şərqi Anadoluda "İslahat məsələsi" millətlərarası problemə çevrildi. Rus çarı II Aleksandr özünü Şərqi Anadoluda aparılacaq islahatların birbaşa qarantı kimi göstərirdi. Lakin 1881-ci çar II Aleksandrın sui-qəsd nəticəsində ölümü islahatların aparılması prosesini yenidən ləngitməyə başladı. Şübhəsiz, çarın ölümündən sonra Rusiyada hakimiyyət dəyişikliyi baş verdi və iqtidara gələn yeni qüvvələr xarici siyasətdə bir sıra dəyişikliklər etməklə bir növ "Erməni məsələsi"ni arxa plana keçirmiş oldular. Bunu görən müttəfiqlər Osmanlı imperiysına qarşı birgə mübarizədən əl çəkərən "Erməni məsələsi"ndən müəyyən müddətə qədər "imtina etdilər". Nəticədə İngiltərə bu dəfə də siyasi meydanda tək qaldı. Vəziyyətin çıxılmaz olduğunu görən Qladston hökuməti 1882-ci ildə Misiri işğal etdi. Misirin işğalından sonra Nil vadisinin işğalını leqallaşdırmaq haqqında sultan II Əbdülhəmidlə müqavilə bağlamaq istəyi boşa çıxan İngiltərə erməniləri yenidən "yada saldı" və onlardan sultanı hədələmək üçün bir vasitə kimi istifadə etməyə cəhd göstərdi. Nəticədə, Osmanlı dövləti hiyləni tez başa düşərək İngiltərə siyasətinə qarşı adekvat addımlar ata bildi. Yəni, Osmanlı hökuməti Aralıq dənizi üzərindəki hakimiy-

yətini yenidən bərpa edə bildi. Bunun ölkəsi üçün ağır itkilərlə nəticələnəcəyini qabaqcadan anlayan İngiltərə hökuməti yenidən boğazlar və Osmanlı dövləti ilə bağlı siyasətini dəyişdirdi. Buna səbəb Cəbəllütariqə, Maltaya, Kipr və Misirə hakim olan İngiltərə üçün Hindistan yolu nəzarətə götürüldüyündən boğazların əhəmiyyəti azaldı. Görünür, İngiltərə hökuməti Osmanlı dövləti ilə təkbaşına mübarizə apara bilməyəcəyini qəti yəqin etmiş və Hindistana gedən strateji məntəqələrin də əlindən çıxmaması üçün son anda bu addımı atmışdır (63, 20).

Beynəlxalq aləmdə böyük dövlətlər arasında qüvvələr balansı XIX əsrin sonunda qeyri-sabit idi. Krım müharibəsində hərbi məğlubiyyətə, Berlin konqressində isə diplomatik məğlubiyyətə uğrayan Rusiya ekspansionist iştahasını azaltmalı və digər böyük dövlətlərin mövqeyi ilə hesablaşmalı idi. Lakin "erməni məsələsi"nə gəldikdə onun həllində əsas rol ən azı coğrafi amil baxımından əvvəlki kimi Rusiyaya məxsus idi: bölgənin erməni əhalisinin bir hissəsi Rusiyanın tərkibində olan Cənubi Qafqazda, digər hissəsi isə Türkiyənin qonşu vilayətlərində yaşayırdı (4, I cild, 45). Türkiyə ərazilərində yaşayan ermənilərin əksər hissəsi imperiya daxilində ticarət və bank işi ilə məşğul olduğundan ölkənin iqtisadi həyatında mühüm rol oynayan ticarət burjuaziyası erkən baş qaldırdı və möhkəmləndi-ermənilər iltizamla məşğul olur, əyalət qubernatorlarına və hətta türk hökumətinə borc verirdilər. Bu varlı imtiyazlı erməni burjuaziyası çoxdan böyük nüfuz qazanmışdı. Belə ki, hələ 1453-cu ildə Konstantinopol türklər tərəfindən işğal edildikdən

sonra patriarx başda olmaqla erməni teokratik icma rəsmi şəkildə qanunniləşdirilmişdir; varlı və nüfuzlu erməni yuxarı təbəqələrinin nümayəndələrindən faktiki Türkiyənin erməni əhalisinin bütün işlərini idarə edən Notablar Şurası yaradılmışdı. Uzun müddət ərzində erməni kapitalı yığılır, onun Livan, Misir, Qərbi Avropa və Şimali Amerika ölkələrindəki erməni tacirləri ilə əlaqələri genişlənirdi, xarici kapital qoyuluşlarının arasıkəsilməz axını müşahidə olunurdu. 1862-ci ildən etibarən Türkiyədəki erməni icması daha geniş hüquqlardan istifadə etməyə başladı: icmanın işlərini idarə və dövlətlə əlaqələrdə millət adından çıxış edən xüsusi Assambleya yaradılmışdı (4, I cild, 60-61). Yüksək imtiyazlara sahib olan və təşkilatlanma sahəsində bütün qeyri-türklərdən üstün mövqelərə yiyələnmiş ermənilərlə qeyri-müsəlmanlar əməkdaşlığa girərək, ikincilər onları gücləndirməyə və gələcəkdə dövlət yaratmaq işində həvəsləndirməyə başladılar. Dini siyasət məsələsi də bu dövrdə aktual bir məsələ olaraq qalmaqda idi. Bir yandan Fransa erməniləri katolikləşdirməyə çalışırkən, Rusiya ortadoksluğu, İngiltərə və ABŞ isə protestan məzhəbli erməniləri müdafiə etdiyindən ermənilər arasında dini ayrı-seçkilik, məzhəblərarası uçurum durmadan dərinləşməkdə idi. Bu işdə Fransa daha çox canfəşanlıq etdiyindən hətta Napaleon Bonopart Parisdə yaşayan ermənilər üçün Şərq Dilləri Məktəbində ayrıca erməni dili fakultəsi açması da dediklərimizi bir daha təsdiq etmiş olur (112, 6). Həmçinin, Fransa ilə yanaşı İngiltərə hökuməti də "erməni məsələsi"ni özününküləşdirmək və daha rahat idarə

etmək üçün 1888-ci ildə Londonda İngilis-Erməni Komitəsinin yaradılmasına icazə verdi (126, 33).

Bu dövrdə ermənilər "Qədim Ermənistan krallığı" olaraq adlandırdıqları Kilikiya bölgəsində (Adananın da daxil olduğu Şərqi Aralıq dənizinin bir hissəsi ilə Cənub-Şərqi Anadolu bölgəsinin bir hissəsi-T.C) mərkəzi Van olmaqla bütün Şərqi Anadolunu əhatə edəcək bir dövlət qurmaq istəyirdilər. Hətta qurulacaq bu dövlət Qafqazın dərinliklərinə qədər uzanmaqla Qara dəniz və Aralıq dənizi sahillərindən tutmuş Xəzər dənizinə qədər uzanacaqdı. Bu plan rusların türklərin qarşısını kəsmək planları ilə üst-üstə düşsə də bu nəhənglikdə bir dövlətin öz idarəsindən çıxacağı qorxusu və ən əsası da İngiltərənin nəzarətinə keçəbiləcəyi əndişəsi rusların bu məsələdə ehtiyatlı davranmasına gətirib çıxarmışdır. Ruslar isə Qafqaz mərkəz olmaqla ortadoks və çarın nəzarəti altında daha kiçik bir Ermənistan yaratmaq niyyətində idilər. Osmanlı imperiyasında "parçala, hökm sür" siyasətini çox ustalıqla həyata keçirən qərb dövlətləri və Çar Rusiyası üçün "erməni məsələsi" yalniz kamufilyajdan ibarət idi (112, 24).

Göründüyü kimi "Erməni məsələsi" ermənilərin deyil, Osmanlı imperiyasında mənfəətləri olan iki böyük dövlətin, İngiltərə və Rusiyanın məsələsi olaraq meydana gətirildi. Fəqət İngiltərə və Rusiyadan başqa heç bir dövlət erməni "probleminin" müzakirəsində maraqlı deyildi. Erməni məsələsinin beynəlxalq faktora çevrilməsi məhz bu iki dövlətin (İngiltərə və Rusiyanın) müstəmləkə siyasətinin mahiyyətindən irəli gəlirdi.

İngiltərədən fərqli olaraq Rusiyanın öz xarici siyasətində "erməni məsələsi"nə daha həssaslıqla yanaşmasının əsas səbəblərini İngiltərə-Rusiya rəqabətində, eyni zamanda Rusiya ərazisində fəaliyyət göstərən erməni icmalarının fəaliyyətində axtarmaq lazımdır. Istər çar hökuməti, istərsə də bu ölkədəki erməni icmaları təkidlə Anadolunun ermənilər yaşayan bölgələrinə təhqiqat heyəti göndərməyi lazım bildi. İngiltərə hökuməti də bu təklifi dəstəkləməkdə idi. Nəticədə, Rusiya və İngiltərə vaxt itirmədən buraya təhqiqat heyəti göndərdi. Araşdırmalar aparan heyət bölgədəki vəziyyəti öyrəndikdən sonra Osmanlı hökumətinə hesabat xarakterli məlumatlar çatdırmış oldu. Osmanlı hökuməti araşdırmaları təhlil etdikdən sonra 1880-ci il oktyabrın 3-də böyük dövlətlərə memorandum verdi və Ərzurum, Van, Bitlis və Diyarbəkr vilayətlərində aşağıdakı şəkildə islahat keçirəcəyini bildirdi:

1. Məhkəmələrin tənzimlənməsi və islahı;
2. Polis və Jandarmanın təşkili;
3. Gömrük, poçt, teleqraf və vasitəli vergi gəlirlərindən başqa, digər vergilərdən gələn pulların bu dörd vilayətin büdcəsinə aid olması;
4. Ədliyyə məmurlarının seçilməsi;
5. Bütün bu islahatların bir müşavir vasitəsilə idarə edilməsi.

XIX əsrin 80-ci illərinin əvvəllərində böyük dövlətlərin ermənilərin xeyrinə apardıqları mübarizənin diplomatik mərhələsi demək olar ki sona çatmaqda idi. Bundan sonrakı mərhələdə Çar Rusiyasının və Qərbin iri

kapitalist dövlətlərinin birbaşa maaliyə dəstəyi ilə Osmanlı hökumətinə qarşı "erməni məsələsi"ndən daha rahat formada istifadə olunması üçün siyasi partiya, komitə və təşkilatların yaradılması daha vacib məsələ idi. Əvvəlcə bu siyasi partiyaların məhz Osmanlı imperiyası ərazisində yaradılması gündəmdə olduğu halda, sonralar sultanın buna qarşı apardığı ciddi mübarizə komitə və təşkilatların ölkə xaricində yaradılmasına gətirib çıxardı. Xüsusilə, Osmanlı imperiyasına daha yaxın məsafədə olan və iri neft mədənləri ilə zəngin Bakıda 1872-ci ilin fevralında iltizam sisteminin ləğv edilməsi ilə neft sənayesi sürətlə inkişaf etməyə başladı. A.İ.Mantaşev, Q.M.Lianozov və s. kimi erməni kapitalistləri Azərbaycan nefti hesabına hədsiz sərvət toplayaraq milyonerlərə çevrildilər. Erməni təşkilat və komitələrinin iqtisadi əsasını məhz bu pullar təşkil edirdi. A.İ.Mantaşev "Daşnaqsütyun" partiyasına 1 milyon gümüş pul vermişdi ki, bu da 1 il ərzində (1907-ci il) partiyanın 165 min üzvünün üzvlük haqqına bərabər idi. Beləliklə, Azərbaycan nefti hesabına varlanan erməni kapitalistləri və ideoloqları öz məkrli planlarını mütəşəkkil sürətdə həyata keçirmək üçün XIX əsrin II yarısından etibarən təşkilat və komitələr yaratdılar (18, 232).

Ermənilərin Osmanlı imperiyasında yaratdıqları ilk təşkilat 1860-cı ildə İstanbulda fəaliyyətə başlayan "Xeyriyyəçilik İttifaqı" idi. Bu təşkilatın əsasını X. Şişmakyan, M.Beşiktaşyan, N.Sivaçıyan, S.Taqvoryan və X. Katibyan qoydular. İttifaqın əsas məqsədi Kilikiyanın yenidən yüksəlişi və inkişafı idi (89, 45-47). 1870-1880-ci

illərdə ermənilərin Vanda "Araratlı", Muşda "Şərq", Ərzurumda "Millətçi qadınlar" təşkilatları fəaliyyət göstərirdi. Bu təşkilatlarla yanaşı, Vanda "Qara Xaç" (1878-ci il), Ərzurumda "Vətənin müdafiəçiləri" (1881-ci il) kimi terrorçu cəmiyyətlər də meydana çıxdı ki, onların da əsas məqsədi ermənilərin silahlandırılması idi. 1882-ci ildə cəmiyyətlər ifşa olundu və onların üzvləri həbs edildilər (89, 45-47).

Şərqi Anadoluda yaradılmış digər erməni təşkilatı "Armenakan" təşkilatı idi. Təşkilat Mkrtıç Portakalyan tərəfindən yaradılmışdı. M. Portakalyan 1885-ci ildə Fransaya gələrək "Ermənistan" qəzetini nəşr etdirməyə başlamışdı. Həmin ilin yayında o, 9 şagirdi ilə yenidən İstanbula qayıtmış və "Armenakan" təşkilatını yaratmışdı. Portakalyanın nəşr etdirdiyi "Ermənistan" qəzeti istər Osmanlı imperiyasında, istərsə də Rusiyada qadağan edilmişdi (136, 79). Partiyanın proqramında aşağıdakı vəzifələr qarşıya qoyulmuşdu: millətçi erməniləri birləşdirmək, yerlərdə komitələr yaratmaq, erməni əhalisini silahlandırmaq, partizan dəstələri yaratmaq, xalqı ümumi üsyana hazırlamaq (18, 35).

Belə siyasi partiya və təşkilatlara 1887-ci ildə yaradılmış Qncaq təşkilatını və bundan 3 il sonra isə Tiflis şəhərində təsis edilmiş Daşnaqsütyun partiyasını da əlavə etmək olar. Qnçaq təşkilatı qafqazlı erməni tələbələr tərəfindən İsveçrədə təsis edildi və burada yetərincə rusiyalı erməni tələbələr də təmsil olunurdu. Yaradılmış bu təşkilatın əsas qayəsi "Türkiyə Ermənistanı"nı qurmaq, burada rus (Qafqaz Azərbaycanına məxsus

hissəsi, daha doğrusu Dağlıq Qarabağ ərazisi), və "İran Ermənistanı"nı (İranın nəzarəti altında olan Güney Azərbaycan əraziləri) birləşdirən müstəqil, böyük bir Ermənistan yaratmaqdı. Partiyanın təşkilatçıları terrorçu erməni tələbələr - A.Nazarbekyan, M.Vartanyan, X.Ohanyan, R.Xan-Azat, Q.Qafeyan və b. idi. Partiyanın özəyini Nazarbekyan, Vardanyan və Haracan təşkil edirdilər. 1898-ci ildə partiyanın proqramı nəşr olundu və burada partiyanın məqsədləri, vəzifələri və metodları kifayət qədər dəqiq müəyyənləşdirilmişdir. Partiyanın proqramı 9 bənddən ibarət idi. Proqramın birinci bölməsində qısaca olaraq ümumi sosial-demokratik prinsiplər öz əksini tapmışdır. İkinci bölməsində Rusiya ərazilərində yaşayan ermənilərin müasir vəziyyəti, proqramın üçüncü bölməsi isə Türkiyədəki ermənilərin vəziyyətinə həsr olunmuşdu. Dördüncü bölmədə isə türk hökumətinə qarşı aparılacaq mübarizənin metodlarından bəhs edilir, mübarizə isə ümumxalq silahlı üsyanı, terror, silahlı dəstələrin təşkili, xüsusi silahlı quldur dəstələrin yaradılması və s. yollarla aparılmalı idi. Nəhayət, beşinci bölmədə erməni irqçi milli hərəkatına ("Hay Dad") dəstək olacaq digər qüvvələrə həsr olunurdu. Beləliklə, adlarını yuxarıda qeyd etdiyimiz siyasi təşkilat və partiyaların qısa zaman kəsiyində Osmanlı imperiyası daxilində şəbəkələri yaranmağa başladı. Belə ki, Armenakan partiyasının İstanbul, Trabzon, Muş və Bitlisdə, Qnçaq partiyasının isə İstanbul, Bafra, Merzifon, Amasiya, Tokat, Yozqat, Arapkir və Trabzonda şəbəkələri meydana gəldi. Daşnaqsütyun funksionerləri isə

İstanbul ilə yanaşı Şərqi Anadolu şəhərlərində təşkilatlanmağı daha məqsədəmüvafiq hesab etdi (98, 132).

Qeyd etmək lazımdır ki, "Qnçaq" partiyasının sosial tərkibi qeyri-sabit idi. Partiyanın sıralarına müxtəlif vaxtlarda xırda burjua nümayəndələrindən tutmuş fəhlələr, ziyalılar və kəndlilərin bir hissəsi də qoşulmuşdu. 1887-ci ildə öz fəaliyyətinə başlayan partiya artıq 1891-ci ildə Türkiyənin şərq vilayətlərində kifayət qədər şaxələnərək təşkilat şəbəkəsi yaratmışdı. XIX əsrin 90-cı illərin ortalarında partiyanın Bakıda, XX əsrin əvvəllərində isə Yelizavetpolda və Şuşada şöbələri yaradıldı. Partiya öz fəaliyyəti üçün İstanbulu mərkəz seçdi və Türkiyənin şəhərlərinə öz nümayəndələrini göndərdi. Qeyd edək ki, "Qnçaq" partiyası Samsun və Zeytundakı üsyanların təşkilatçısı idi. Qeyd edək ki, Qnçaq partiyası 1891-ci ildə Daşnaqsütyun federasiyasına qatılsada bir il sonra müxtəlif fikir ayrılıqları səbəbiylə federasiyadan ayrıldı (98, 133).

1896-cı ildə partiya iki qrupa parçalandı. Sosialist şuarlarla razılaşmayan digər qrup 1898-ci ildə İsgəndərunda Yeni "Qnçaq" partiyasının yarandığını elan etdi. Partiyada nüfuzlu şəxs sayılan A.Nazarbekyanın sosialist qrupu 1896-cı ildə Londonda II qurultaylarını keçirdi və fəaliyyətinin əvvəlki proqramla davam etdiyini bəyan etdi.

XIX əsrin 90-cı illərində erməni terrorçu hərəkatının məruz qaldığı uğursuzluqlar "Qnçaq"ın da parçalanmasını şərtləndirmiş oldu. Bu haqda Bəxtiyar Nəcəfov yazır: "...Qnçaq" partiyasını əqidəli sosial-demokratlar,

inqilab işinə sadiq insanlar tərk etdilər. Onların bir hissəsi isə sonra RSDFP-yə qoşuldu. Digər tərəfdən, müvəffəqiyyətsizliklərdən "hiddətlənmiş" "yumşaq" millətçilər, öz məqsədlərinə demokratik, zor işlətməmək yolu ilə nail olmaqdan əl üzənlər "Daşnaqsütyun" partiyası ətrafında birləşərək, ifrat millətçi mövqelərə keçirdilər (4, I cild, 113).

Qnçaq təşkilatının yaradılmasından 3 il sonra 1890-cı ildə mərkəzi Tiflis şəhəri olmaqla "Daşnaqsütyun"("İttifaq") partiyası təsis edildi. Beləliklə, əhalinin geniş kütlələrinə təsir uğrunda mübarizədə "Qnçaq" birincilik çələngini "Daşnaqsütyun"a verməli oldu (4, I cild, 53). Partiyanın adı "Daşnaqsütyun erməni inqilabçılarının ittifaqı (federasiyası)" mənasını verirdi. Burada müxtəlif erməni milliyyətçi qrupları birləşmişdi. Bu qrupları 3 əsas kateqoriyaya bölmək olar. Birinci qrupa "Armenakan" partiyasının tərəfdarlarını, Peterburqda təhsil alan erməni tələbələrini aid etmək olar. Bu qrupun rəhbəri Konstantin Xatisyan idi və qrupun tərəfdarları "şimallı" adını almışdılar. İkinci və üçüncü qrupun əsas tərkib hissəsini inqilabçı sosialistlər təşkil edirdilər. Onlar Rusiyadakı çar rejiminə qarşı mübarizədə rus və gürcü sosialistləri ilə birləşməyə tərəfdar idilər. 1890-cı ildə Tiflisdə Xristofor Mikoelyan, Stepan Zaryan, Semyon Zavaryan hər 3 qrupun arasında danışıqlar aparmış və bu qrupları birləşdirmişdilər. Fəallıqları ilə seçilən beş nəfərdən - X.Mikoelyan, S.Zavaryan, A.Dastakyan, X.Loris-Melikyan, L.Sarkisyandan ibarət Mərkəzi Komitə seçildi. Daşnaqsütyun partiyası yarandıqdan sonra

“Qnçaq” təşkilatı da bu ittifaqa daxil oldu. Lakin yuxarıda qeyd etdiyimiz kimi, 1891-ci ilin iyununda “Qncaq” təşkilatı “Daşnaqsütyun”u qətiyyətsizlikdə təqsirləndirərək, ittifaqdan çıxdığını bəyan etdi. Partiyanın iki bürosu-Şərq və Qərb büroları yaradıldı. Şərq bürosu Girəsun-Diyarbəkr, Zaqafqaziya, Rusiya və İran, Qərb bürosu isə Balkanlarda, Amerika, Misir və digər qərb ölkələrində fəaliyyət göstərməli idi. Partiyanın məqsədi Şərqi Anadoluda yaranacaq Ermənistanı Qafqazdakı “erməni vilayəti” ilə birləşdirmək, Rusiya ərazisindən qiyamlar törətmək üçün Türkiyəyə keçən silahlı ermənilərə yardım göstərmək idi. Bununla yanaşı, erməniləri silahla təchiz etmək, türklər yaşayan kəndlərə soxularaq hay-küy salmaqla vahimə yaratmaq və nəticədə türkləri öz dədə-baba torpaqlarından çıxıb getməsinə nail olmaq idi. Daşnaqsütyun Partiyasının rəhbərlərinin fikirlərinə görə, məqsədə yalnız və yalnız qiyamlar yolu ilə nail olmaq olardı. Komitənin əmri “türkü hər yerdə istənilən şərtlər altında vur, dönənləri, erməni xəfiyyələrini, xainləri öldür, intiqam al” olmşudur (33, 32). Partiyanın mətbuat orqanı Cenevrədə nəşr olunan “Droşak” (“Bayraq”) qəzeti idi.

Qeyd edək ki, XIX əsrin 90-cı illərin əvvəllərində erməni terrorçu təşkilatları “Qnçaq” və “Daşnaqsütyun”la məhdudlaşmırdı. Gizli və açıq fəaliyyət göstərən belə partiyalar çox yaranmışdı. Onlar müxtəlif (maarifçi, dini, mədəni, siyasi, millətçi-inqilabçı) səciyyə daşımışlar. Lakin geniş kütlələrə təsir uğrunda mübarizədə qəti üstünlüyü hər halda daşnaqlar

qazandılar. Bütün ifrat, ekstremist qüvvələr bu partiyada birləşdi. Daşnaqlar mülayim platformalarda dayanan partiyalar üzərində inamlı qələbə qazandılar və onların siyasəti mahiyyət etibarı ilə hakim teokratik yuxarı təbəqənin–Eçmiədzin katalikosunun siyasətinə çevrildi (4, I cild, 59).

Partiyanın I qurultayı 1892-ci ildə Cenevrədə keçirildi. Burada 32 nəfərdən ibarət partiya fəalı iştirak edirdi. Qurultayda partiyanın birinci proqramı qəbul olundu. Proqramın maddələrində aşağıdakı məsələlər öz əksini tapmışdı: hərbi dəstələrin yaradılması, əhalinin silahlandırılması, xalqın inqilabı şüurunun möhkəmləndirilməsi, inqilabi komitənin yaradılması və onların təhlükəsizliyinin təmin edilməsi, silahlı üsyan, hökumət nümayəndələrinin qətlə yetirilməsi, hökumət binalarının yandırılması və terror (18, 234).

Ümumilikdə, qeyd etmək lazımdır ki, XIX əsrin 80-90-cı illəri Osmanlı imperatorluğu üçün son dərəcə sıxıntılı bir dövr olaraq qalırdı və hadisələrin sonrakı gedişatı Şərqi və Cənub - Şərqi Anadolu ərazilərini bürümüş erməni quldur dəstələrinin dinc əhaliyə qarşı fitnəkar təxribatları və toqquşmaları ilə xarakterizə olunurdu.

## 1.2. Avropa dövlətləri və Çar Rusiyası tərəfindən Şərqi və Cənub-Şərqi Anadolu bölgələrində erməni qiyamlarının törədilməsi və acı nəticələri (1880-1890)

XIX əsrin 80-ci illərində Osmanlı imperiyasının Şərq və Cənub-Şərq bölgələrində müstəqil erməni dövləti yaradılması planının puça çıxmasından o qədər də narahatlıq hissi keçirməyən qərb dövlətləri, birmənalı olaraq öz milli maraqlarını müəllifi olduqları "erməni məsələsi"nə belə qurban vermək istəmirdilər. Əslində ermənilərin özlərinə də bəlli idi ki, yuxarıda qeyd etdiyimiz nəhəng dövlətlər öz strateji maraqlarını təmin etmək məqsədi ilə "erməni məsələsi"ni gündəmə gətirmişdilər. Buna görə də ermənilər öz strateji maraqlarına çatmaq naminə həmin dövlətlərin əlində "alət olma statusu"nu qoruyaraq təşkilatlanma mərhələsinə qədəm qoydular. Çünki yalnız həmin dövlətlərin bölgədə maraqlarının olduğu təqdirdə ermənilər öz dövlətlərini qurmaq üçün beynəlxalq müdafiəyə nail ola bilərdilər

XIX əsrin 80-90-cı illərindən etibarən İngiltərə, Fransa və Rusiya arasında Osmanlı imperatorluğunu parçalamaq, həmçinin Yaxın Şərqdə hegemonluq uğrunda mübarizə daha da dərinləşməkdə idi. Qərbin iri dövlətlərinin qarşısında duran əsas məqsəd erməniləri maarifləndirmək, silah-sursat paylamaqla silahlandırmaq, silahlı erməni dəstələri yaratmaqla Şərqi Anadoluda Osmanlı idarəçiliyinə qarşı qiyamlar təşkil etmək, bir sözlə Vilayəti-Sittə deyilən Şərqi Anadoluda qərbpərəst erməni

dövləti yaratmaq idi. Qiyamların törədilməsində həm ermənilər, həm də iri dövlətlər maraqlı idilər. Ermənilər ona görə maraqlı idilər ki, bu işi həyata keçirməklə Avropanın diqqətini "Erməni məsələsi"nə yönəltmək, islahatla bağlı sultan tərəfindən "konstruktiv" addımların atılmasını sürətləndirmək, bölgədə erməni əhalisini məskunlaşdırmaqla yetərsay üstünlüyə nail olmaq və nəticədə milli müqəddəratı  təyin etmək. İri dövlətlərin isə əsas istədikləri tək şey sadəcə olaraq erməniləri "qabağa" verməklə qiyamlar təşkil etmək, bununla da bölgədə söz sahibinə çevrilmək idi. İngiltərə bu işə daha çox maraq göstərməklə yanaşı, eyni zamanda bu işin bir başa Londondan idarə edilməsi üçün paytaxtda İngilis-Erməni Komitəsini yaratdı (83, 92).

Tarixi faktlar sübut edir ki, XIX əsrin II yarısından etibarən Şərqi Anadoluda erməni qiyamlarının törədilməsi üçün heç bir səbəb yox idi. Bunu görkəmli türk tarixçisi Yusuf Halaçoğlu da bir daha tutarlı faktlarla təsdiq edir. O yazır: "Osmanlı torpaqlarında sosial, iqtisadi, dini, siyasi və mədəni müstəqilliyinə nail olan və məmləkətin heç bir vilayətində kifayət qədər üstünlüyə sahib olmayan erməniləri ölkədə üsyanlara, qiyamlara sövq edəcək hökumətdən gələn hər hansı bir təzyiq mövcud deyildi (107, 55)". Avropa dövlətlərinin bir başa səyləri nəticəsində törədilmiş erməni qiyamlarının əsas məqsədinin nələrdən ibarət olduğunu türk tarixçisi Kamal Öke belə qiymətləndirir: "Komitəçilər fikirləşirdilər ki, ermənilərin Şərqi Anadoluda terror hərəkətləri müsəlman əhalisinin cavab zərbələrinə səbəb olacaq və

milli münaqişələr baş verəcəkdir. Türkiyə hökumət orqanlarının sabitlik yaratmaq tədbirlərini komitəçilər Avropada "soyqırımı" kimi təbliğ edəcək və iri dövlətləri qan tökülməyə son qoymağa çağıracaqlar. Böyük güclər bir daha belə hallar baş verməsin deyə, Osmanlı dövlətini ermənilərin xeyrinə bəzi islahatlar keçirməyə məcbur edəcəklər. İslahat yolunda atılmış hər bir addım erməniləri muxtariyyətə yaxınlaşdıracaqdır (40, 36).

Nəticədə, düşünülmüş şəkildə 1880-ci ildən başlayaraq, Türkiyənin ermənilər yaşayan vilayətlərində qiyamlar, qanlı ixtişaşlar baş verir. Qiyamlar təsadüfi olmayan ardıcıllıqla baş verirdi. Sistemli sürətdə iğtişaşlar yaranır və asayişi bərpa etmək üçün onları yatırmaq cəhdləri dərin nifrət yaradırdı.

Məlum olduğu kimi, 1880-1890-cı illər ərzində erməni qiyamları elə də kütləvi hal almasa da 1890-cı il iyun ayının 20-də baş vermiş Ərzurum olayından sonra ixtişaşlar kütləvi hal almağa başladı (19, 48). Nəzərə almaq lazımdır ki, Ərzurum ərazisi Şərqi Anadoluda yaşayan ermənilərin ən çox təşkilatlandığı yerlərdən biri idi. Bu ərazidə qiyamların təşkil edilməsi qərarı İstanbulun Yedikulədə yerləşən erməni xəstəxanasında müəyyənləşdirilmiş və tərtib edilmiş plan dərhal Ərzuruma göndərilmişdir. Qiyama erməni Gerekçiyan və Poqos rəhbərlik edirdilər.

Osmanlı hökumətinə, eyni zamanda Ərzurum valisi Semih Paşaya Rusiyadan gətirilən silah-sursatın Ərzurumda yerləşən Sanasaryan Ruhban məktəbində və kilsədə gizlədildiyi xəbəri verildikdən sonra hökumət

şəhərdə yerləşən bütün məktəblərdə axtarış aparılması əmrini verdi. Hökumət tərəfindən bu ərazidə axtarış aparılacağını qabaqcadan hiss edən ermənilər silahlanaraq yoxlama aparmağa gələcək əsgərləri pusquya salaraq məhv etməyi qərarlaşdırdılar. Erməni Vətəndaşlarının Müdafiəsi Təşkilati qurucularından olan Gerqasyan öz vətəndaşlarına "türklər murdardır, kilsələrə girmələrinə icazə verməyin" şəklində öz tapşırıqlarını verdi. Türk əsgərlərinin kilsəyə yaxınlaşdığı zaman silahlı erməni komitəçilərinin açdığı atəş nəticəsində 1 polis əməkdaşı və 1 əsgər şəhid edildi, 2 əsgər isə ağır şəkildə yaralandı. Qiyam üç gün ərzində davam etdi. Nəhayət, kilsə tutularaq yoxlanıldı, çoxlu sayda silah-sursat toplanılaraq ələ keçirildi (89, 221).

20 iyun 1890-cı ildə Ərzurumda həyata keçirilən bu qiyam gələcəkdə növbəti qiyamların törədilməsi üçün bir başlanğıc oldu. 1890-cı il iyul ayın 15-də İstanbulun Qumqapı deyilən bölgəsində Qnçaq partiyasının təşkilatçılığı ilə nümayiş keçirildi. Bu zaman Anadoludan gələn çoxlu sayda işsiz ermənilərlə İstanbulun tacir erməniləri birgə ümumi sayı 200 nəfərdən ibarət olmaqla İstanbulda silahlı qiyam təşkil etdilər. Qiyamçılar patriarx Aşıkyanı həbs edərək Komitənin qərargahına apardılar. Bundan sonra onlar küçələrə dağılaraq yol boyu "Yaşasın erməni milləti", "Yaşasın Qnçaq Partiyası", "Yaşasın Ermənistan" kimi populist şüarlar səsləndirməyə başladılar. Hökumət ölkənin paytaxtında baş vermiş bu kimi izdihamlı qiyamın qarşısını almaqdan ötrü orduya göstəriş verdi. Nəticədə, ordunun gücü ilə qiyam yatırıl-

dı. Qiyamın əsas təşkilatçılarından olan Canqulyan həbs edildi və avqustun 20-də ona ölüm hökmü kəsildi (19, 52).

Ərzurum qiyamından sonra erməni-rus silahlı dəstələri Zeytunda hökumət əleyhinə kütləvi üsyana başladılar. Qeyd edək ki, səfərbərliyin elan edilməsindən 27 gün sonra, yəni 30 avqust 1914-cü ildə Zeytunlu ermənilər Osmanlı bayrağı altında savaşmaqdan imtina edərək özlərinin yaratdıqları "Zeytun Fədai Alayı" ətrafında birləşərək Osmanlı hakimiyyətinə qarşı üsyana başladılar. Burada əsgərlikdən qaçan erməni əsgərləri ilə silahlı erməni dəstələrinin birgə olacaq Zeytunda hökumət binalarını və silah anbarlarını tutaraq çoxlu sayda silah-sursat əldə etdikləri, teleqraf xətlərini kəsdikləri məmurları və müsəlman ailələrini qətlə yetirdikləri barədə məlumat verilməkdədir. Qətliamın qarşısını almağa çalışan orduya da silahlı basqın edildi. Nəticədə, türk ordusu çoxlu sayda əsgərini itirdi. Zeytun ermənilərinin bu qədər fəal olmalarının səbəbi təşkilatçıların rus-qafqaz orduları komandanlarından əldə etdikləri silah-sursatın olması ilə izah edilməlidir (128, 28). Rus-erməni silahlı birləşmələrinin birgə mübarizəsi nəticəsində zəbt edilən torpaqlarda ermənilərin məskunlaşdırılmasına başlanıldı.Bu barədə amerikan tarixçisi Jastin Makkarti "Ölüm və Sürgün" adlı əsərində yazırdı: "1895-ci ildən başlayaraq erməni hərəkatına rəhbərlik etmiş Andrianik Ozanyan kimi təcrübəli üsyançı Osmanlıermənilər ilə yanaşı İrandan gələn erməniləri də cəlb edərək çoxlu sayda silahlı dəstələr

yaratdı. Yaradılan bu könüllü erməni silahlı dəstələri erməni kəndlərini qarış-qarış gəzərək rus işğalı altında olan Anadolu torpaqlarında ermənilərin məskunlaşdırılmasına başladı (94, 203)".

Osmanlı dövlətinin daxilində sabitliyi pozmağa çalışan ermənilər həm zəhmətkeş türk əhalisinə, həm də türk məmurlarına qarşı düşmənçiliyi qızışdırır, bununla da çaxnaşmalar, qarşıdurmalar yaradaraq son məqamda təqsiri türk əhalisinin üstünə yıxırdılar. Belə qiyamlar Merzifon, Kayseri və Yozqat bölgələrinə daha tez yayılmağa başladı.

XIX əsrin 90-cı illərindən başlayaraq imperiyanın müxtəlif bölgələrində hökumət əleyhinə törədilmiş qiyamların bu dəfəki mərhələsi Merzifon, Kayseri ilə Yozqat bölgələrini əhatə etdi. Qeyd etmək lazımdır ki, Londondakı ermənilər tərəfindən idarə edilən Qnçaq partiyasının fəalları ilk olaraq Merzifon şəhərini hədəfə götürdülər. Çünki, Merzifon şəhəri qiyam törədilməsi üçün əlverişli olması ilə bərabər, həm də təşkilatçılıq baxımından digər bölgələrə nisbətən daha fəal görünürdü. Bu işdə ermənilərə şəhərdə fəaliyyət göstərən Amerikan kollecinin etdiyi maddi və mənəvi yardımın əhəmiyyətini vurğulamağı məqsədə uyğun hesab edirik. Merzifondakı silahlı erməni qiyamçı dəstələrinin rəisi yuxarıda qeyd etdiyimiz Amerikan kollecində müəllim işləyən Karapet Tomayan, katibi isə həmkarı Ohannes Kayayan idi. Qiyamçılar ilk olaraq Yozqat-Merzifon yolunu kəsərək buradakı insanları qətlə yetirdilər. Digər tərəfdən qiyamçılar Çorum-Merzifon şəhərləri arasında

salınmış yaşayış məntəqələrinə hücum edərək dinc türk əhalisini vəhşicəsinə qətlə yetirdilər. Miqyasına görə Merzifonda törədilmiş qiyam güclü olsa da tezliklə ordu tərəfindən yatırıldı. Qiyama rəhbərlik edən Tomayan və digər silahdaşları da ordu tərəfindən həbs edilərək ölümə məhkum edildilər. Növbəti dəfə İngiltərə hökumətinin birbaşa təzyiqi nəticəsində qiyamçılar Sultan tərəfindən bağışlanıldı və onlar ölkəni tərk etməli oldular. 1893-cü ildə Yozqatda qiyam təşkil etmiş ermənilər qiyamda iştirak etməkdən imtina edən Boğazkaya kəndinin sakinlərini öldürməkdən belə çəkinmədilər (83, 62). Qiyamçılardan Talas kəndinin sakini aşpaz oğlu Dot və Mihran onlara qoşulmaq istəməyən zərgər Haçonu qətlə yetirmişdilər. Eyni zamanda erməni quldur dəstəsinin üzvü Toros Javokyan və onun dörd həmkarı Madəndən Yozqata hərəkət edən poçt arabasının sürücüsünü və keşikçisini öldürərək 170 ədəd qızıl sikkə və xeyli pul ələ keçirmişlər. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Yozqatda törədilmiş qiyama birmənalı olaraq yerli ermənilər dəstək verməmiş, nəticədə qiyamçılar digər bölgələrə qaçaraq canlarını qurtarmışdılar.

Yozqatdakı uğursuz qiyamdan sonra ermənilərin növbəti hədəfi Kayseri yaşayış məntəqəsi oldu. Ermənilər Kayseridə də qiyamlar təşkil etdilər. Qiyamçılar yaşayış məntəqələrini, kilsə və məktəbləri silah deposuna çevirmişdilər. Kayseri bölgəsi ilə Yozqat bölgəsi arasındakı bütün nəqliyyat və kommunikasiya xətlərini nəzarətə götürən ermənilər bölgədən keçən müsəlman türklərinə hücum edərək onları ya öldürür, ya da onlardan birbaşa

türklərə qarşı istifadə edirdilər. Tezliklə hökumətin bölgəyə ordu yeritməsi ilə qiyamçılar bölgəni tərk etməli oldular.

Erməni qiyamçıları 8 avqust 1894-cü ildə dağlıq bölgə olan Sasunda, həmçinin, Zeytunda qiyam törətdilər. Qiyamlar bu dəfə də ordunun köməkliyi ilə yatırıldı. Xüsusilə, qiyamın təşkilatçılarından olan Hambarsum Boyacyan tutulduqdan sonra bölgədə vəziyyət qismən sakitləşdi. Sasun qiyamı yatırıldıqdan sonra qərb ölkələri və çar hökuməti Osmanlının daxili işlərinə daha intensiv şəkildə qarışmağa başladı.

Sasun qiyamının yatırılmasından bir neçə gün sonra Təhqiqat Komissiyası üzvlərindən olan İngiltərə "İslahat məsələsi"ni yenidən gündəmə gətirdi. İngiltərə başda olmaqla qərb dövlətlərinin təzyiqləri nəticəsində hökumət 20 oktyabr 1895-ci ildə "İslahat Nizamnaməsi"ni elan etdi. Amma sultan nizamnamənin şərtlərinin yerinə yetiriləcəyi təqdirdə bunu türk xalqının və imperiyasının gələcəyinə vurulmuş ağır bir zərbə kimi qiymətləndirərək islahatdan imtina etdi. Vəziyyəti belə görən İngiltərə və digər iri dövlətlər (Fransa, Rusiya, ABŞ) 18 iyul 1895-ci ildə Sultan sarayı qarşısında nümayiş keçirilməsini qərara alsalar da nümayiş uğursuzluqla nəticələndi.

Sultan sarayı qarşısında təşkil edilmiş mitinqin uğursuzluqla nəticələnməsi erməni qiyamçılarını hiddətləndirmiş və onlar Van şəhərini hədəfə götürdülər. Əlverişli coğrafi mövqeyə və strateji əhəmiyyətə malik olan Van şəhəri 1896-cı ilin iyun-iyul aylarında erməni qiyam-

çılarının hədəfinə çevrildi. Qiyamın təşkilində Daşnaqsütyun Partiyasının bütün fəalları iştirak edirdilər. Qiyamçılar əsasən Rusiyadan gətirilən silah-sursatlarla təmin edilmişdi. Əvvəlcə qiyamçılar Van şəhərinə soxularaq şəhər ətrafındakı bağlarda möhkəmləndilər. Bu hadisə qərb mətbuatında "Van bağlarının müdafiəsi"adını aldı. Vanda təşkil edilmiş qiyama 1896-cı il iyunun 14-15-nə keçən gecə start verildi. Amma buna baxmayaraq, Vanda yaşayan erməni əhalisi xüsusilə, gənclər, qocalar qiyama qarşı çıxır, bunu hökumətə xəyanət kimi qiymətləndirirdilər. Hətta Vanda yaşayan erməni gəncləri sadə xalqa zərər verməməyi, əksinə onları qiyama dəstək verməməkdə ittiham edən rühani Boqosu öldürməyi planlaşdırdılar. Odur ki, erməni gəncləri 6 iyun 1896-cı ildə ən böyük bayramlarında kilsəyə gələn rühani lider Boqosu öldürdülər. Bundan sonra qiyamçılar iyulun 1-də Vanda xidmət edən türk əsgərləri üzərinə hücum edərək 2 əsgəri yaraladılar. Bu zaman Vana kənardan gələn erməni komitəçilərinə buradakı erməni gəncləri də dəstək verərək qiyamın miqyasını daha da genişləndirdilər. Həmin dövrdə hökumət Vana kənardan gələn müsəlmanların şəhərə daxil olmasını qadağan etmişdi. Qiyamın tezliklə yatırılması üçün hökumət konsulluqlara bəyanatla müraciət etdi. Bəyanatda əgər erməni qiyamçıları əllərindəki silahlarla təslim olarlarsa onların Van qalası daxilində mühafizə ediləcəyi bildirildi. Konsulluqlar da öz növbəsində qiyamçılara məktub yazaraq təslim olmalarını istədilər. Bəyanatda erməni qiyamçılarının təhlükəsizliyinin təmin

ediləcəyi bildirilsə də qiyamçılar buna inanmır, təslim olmaq əvəzinə dağ yollarından qaçaraq İran ərazisinə keçməyi daha məqsədəuyğun hesab edirdilər. Nəticədə ordunun Vana yeridilməsi ilə qiyam yatırıldı. Van qiyamında 418 nəfər müsəlman, 1715 nəfər erməni öldürülmüş, 363 nəfər müsəlman, 71 nəfər erməni yaralanmışdır (43, 29). Bu hadisədən sonra qiyamçılar öz təxribatçı əməllərinə ara verərək Sultan II Əbdülhəmid rejiminə qarşı müxalifətdə olan İttihad və Tərəqqi partiyası ilə iş birliyinə girdilər. Bu işdə Qərbi Avropa ölkələrindən maddi və mənəvi dəstək aldıqdan sonra 1903-cü ildə Daşnaq partiyasının fəalları II Sasun qiyamını həyata keçirdilər. II Sasun qiyamına Azərbaycanda törədilmiş qırğınlardan yaxşı tanıdığımız erməni qulduru Andranik başçılıq edirdi. Üsyanın miqyası günü-gündən genişlənərək Sasundan Vana qədər uzanan ərazidə yayılmağa başladı. Bu dəfə də qiyam ordu tərəfindən yatırıldı. Ermənilərin verdiyi məlumatlara əsaslansaq bu zaman 1132 nəfər türk və cəmisi 19 nəfər erməni öldürülmüşdü (42, 79).

Ümumiyyətlə, XIX əsrin sonlarından vüsət alan erməni qiyamları Şərqi Anadolu türklərinin milli genefonduna çox ağır zərbə vurdu.

## 1.3. I Dünya müharibəsinin başlanması ərəfəsində İttihad və Tərəqqi hökumətinin ermənilərlə əməkdaşlığının Osmanlı imperiyası üçün acı nəticələri

XIX əsrin 90-cı illərində Şərqi Anadoluda iri dövlətlərin, o cümlədən daşnaq erməni millətçi burjuaziyasının maddi və mənəvi dəstəyi sayəsində hökumətə qarşı baş vermiş qiyamların uğursuzluqla nəticələnməsi Daşnaqsütyun partiyasını apardığı siyasətinə yenidən baxılmasını labüd edirdi. Partiya sultan II Əbdülhəmid hakimiyyətinə qarşı mübarizə aparan ümumtürk inqilabi hərəkatında dayaq axtarmağa başladı. Ümumtürkiyə inqilabi hərəkatına rəhbərlik edən gənc türklərlə saziş bağlandı. Ermənilərin gənc türklərlə ilk əlaqələri 1895-ci ilə təsadüf edir. O vaxt gənc türklərin liderləri-Əhməd Riza və Murad Mizancı Londonda Əbdül Həmidə qarşı vahid cəbhə yaratmaq barədə danışıqlar aparılması məqsədi ilə qnçaqçılarla ünsiyyət qurmağa can atırdılar. Lakin gənc türklər erməni terrorçuları ilə hər hansı bir ümumi platforma tapmaq üçün çox səy göstərdilər. Bu onunla izah olunurdu ki, əsasən mühacirətdə fəaliyyət göstərən gənc türk müxalifəti öz ölkələri ilə əlaqədən məhrum olduqlarından və Türkiyədə şaxələnmiş təşkilata malik olmadıqlarından təcili olaraq müttəfiqlər axtarırdılar, məqsəd isə ölkədə sultan əleyhinə cəbhəni gücləndirməkdən ibarət idi (4, I cild, 94-95).

Qeyd etmək lazımdır ki, Sultan II Əbdül Həmid hakimiyyətinə qarşı Türkiyədəki bütün güclər bir ittifaqda birləşmişdilər. Bu işdə əsas hərəkətverici qüvvə

qərb dövlətləri və erməni komitəçiləri idi. Bu qüvvələr içərisində ən fəalı İttihad və Tərəqqi partiyası idi. Partiyanın təsisçilərindən olan Abdullah Cevdet bəy qısa vaxt ərzində partiyanın Nizamnaməsini işləyib hazırladı. Nizamnamədə sultan hakimiyyətinin devrilməsi üçün ölkədəki bütün qüvvələrin birləşərək rejimə qarşı vahid cəbhədə mübarizə aparılması, qüvvələr arasında qarşılıqlı inamın və etimadın qorunub saxlanılması və digər məsələlər çılpaqlığı ilə göstərilirdi. Qısa vaxt ərzində imperatorluğun bütün bölgələrində hakimiyyətə qarşı təzyiqlər artmağa başladı. Həm ölkə daxilində, həm də ölkə xaricində rejim tərəfdarlarının sayı gündən-günə azalmaqda idi.

4 fevral 1902-ci ildə Parisdə toplanan Gənc türklərin I konqresində İttihad və Tərəqqi partiyasının 2 nüfuzlu lideri Prens Səhabəddin və Əhməd Rza bəy başda olmaqla türk nümayəndə heyəti ilə birlikdə erməni nümayəndə heyəti də geniş tərkibdə iştirak edirdi. Konqresdə bir sıra məsələlər müzakirə edilərək qərarlar çıxarıldı. Çıxarılan qərarlardan birində inqilabın uğurla nəticələnməsi üçün əcnəbi dövlətlərin müdaxiləsinə ehtiyac duyulduğu bildirilirdi. Erməni nümayəndə heyəti bu qərarın qəbul edilməsində canfəşanlıq etməklə yanaşı partiyanın liderlərindən olan Prens Səhabəddinin də yardımından faydalanmaq niyyətində idilər. Çünki, onun siyasi proqramına əsasən ölkə mərkəzə formal surətdə tabe edilməli, sonrakı mərhələdə imperiya ərazisi ayrı-ayrılıqda tam müstəqil idarəetmə sisteminə keçməli, özünəməxsus məhəlli idarələrə bölünərək idarə, əmlak,

ədliyyə sistemləri əsasında idarə olunmalı idi. Əgər gələcəkdə bu proqram yerinə yetirilərdisə ermənilər türklərdən öncə muxtariyyət, sonra isə müstəqil Ermənistan dövləti yaradılmasının razılığını alacaqdılar. Bu baxımdan ermənilər birmənalı olaraq Prens Səhabəddinin proqramını dəstəkləyirdilər. Belə olan halda partiya daxilində qütbləşmə meylləri yaranmağa başladı. Partiyanın təsisçilərindən olan Əhməd Rza bəy və gənc türklərin əksəriyyəti ölkəni parçalamağa sürükləyən belə bir qərarın qəbul edilməsi ilə razılaşmadılar. Bunun əksinə olaraq partiyanın ideoloqlarından olan Prens Səhabəddin erməniləri birmənalı olaraq dəstəkləyirdi. Nəticədə partiya daxilində fikirlər haçalanmağa başladı. Bir qrup gənc türk Prens Səhabəddinin, digər bir qrup isə Əhməd Rza bəyin ətrafında toplaşmağa başladılar (126, 56).

Gənc türklər hərəkatının ölkə daxilində və xaricində yaranmaqda olan yeni-yeni təşkilat və partiyalarla əməkdaşlıq etdiyi bir vaxtda Daşnaq cəmiyyəti planlaşdırılmış proqram üzərində dayanaraq yerinə yetiriləcək bir sıra məsələlərin müzakirə edilməsini vacib saymaqla növbəti konqresin keçirilməsini təklif etdi. Həm Əhməd Rza bəy, həm də Prens Səhabəddin tərəfindən qəbul edilən təklifə baxılması üçün 27 dekabr 1907-ci ildə Parisdə Gənc türklərin II konqresinin açılması məqsədəuyğun hesab edildi. 27 dekabrda toplanan konqresdə iştirak edən ermənilər tutduqları qeyri-konstruktiv mövqedən "əl çəkərək" Osmanlı imperatorluğunun mülki və siyasi müstəqilliyini qəbul edir, digər tərəfdən xidmət

üçün əsgər verməkdən və qiyamlardan müvəqqəti də olsa da "imtina etməli" olurdular. Bu növbəti erməni hiyləsindən biri idi.

Qeyd etmək lazımdır ki, gənc türklərlə daşnaqlar arasında aparılan intensiv danışıqlarda xüsusilə, 2 məsələdə fikirlər haçalanırdı. Birincisi, ermənilərin elə ilk vaxtlardan bildirdikləri və hərəkatlarının da ana qayəsini təşkil edən muxtariyyət və müstəqil erməni dövlətinin yaradılması haqqında məsələ idi ki, gənc türklər üçün bu muxtariyyət və üstəlik müstəqil erməni dövlətinin yaradılması cəfəngiyyat idi, onlar "erməni ideyası"na qarşı özlərinin "ümumi osmanlı vətəni" ideyasını irəli sürürdülər. İkincisi, Avropa ölkələri və Rusiyanın köməyinə arxalanaraq Osmanlı imperiyası daxilində hərəkət etmək fikrini irəli sürürdülərsə də gənc türklər üçün isə Avropa ölkələri və Rusiyanın Osmanlı imperiyasının parçalanması və məhv edilməsinə yönəlik düşmən münasibətinə qatı etirazlarını bildirdilər.

İttihadçıların terrorçu təşkilatlarla əlaqəyə girib məşrutiyyəni qorumaq cəhdi Daşnaqsütyun partiyasının fəaliyyətini leqallaşdırırdı. Hakimiyyətdə olduğu zaman sultan II Əbdülhəmidin silah idxalına qoyduğu qadağanın İttihad və Tərəqqi hökuməti tərəfindən aradan qaldırılması ermənilərin sürətlə silahlanmasına yol açmış oldu. İstanbulda 31 mart hadisəsinin ertəsi günü Adanada ermənilərin müsəlman türklərinə qarşı hücumları intensiv hal almağa başladı. Hadisə hər zaman olduğu kimi bu dəfə də Avropaya "müsəlmanlar erməniləri qətlə yetirir", "ermənilərin qanı axıdılır" şəklində çatdırıl-

dığından İttihad və Tərəqqi hökuməti təlaşa düşdü. Adanada törədilmiş olayı yerinədəcə araşdırmağa göndərilmiş Camal Paşa Avropaya xoş görünmək üçün erməni qiyamçı dəstələrinə toxunmayaraq, qurduğu Divani-Hərbdə 47 müsəlman və 1 ermənini edam etdirilməsi göstərişini verdi (38, səh. 126). Adanada baş vermiş hadisələrdən dərhal sonra Qərb dövlətləri, o cümlədən Rusiya yenidən "İslahat məsələsi"ni gündəmə gətirdi. Hökumət isə "İslahat məsələsi"ni birdəfəlik tarixin arxivinə göndərməyə çalışırdı.

XIX əsrin sonlarından etibarən iri dövlətlər tərəfindən ortalığa atılmış "islahat məsələsi" XX əsrdən etibarən daha da dərinləşərək Türkiyənin baş ağrısına çevrilmiş oldu (67, 101). Osmanlı imperiyasına qarşı "erməni məsələsi"indən diplomatik təzyiq vasitəsi kimi istifadə edən Rusiyasının hakim dairələri 1913-cü ilin iyun ayında Şərqi Anadoluda "yaradılacaq" erməni "muxtariyyəti" layihəsini işləyib hazırladılar. Türk tarixçisi Yusuf Halaçoğlunun yazdığına görə bu layihənin hazırlanmasında İngəltərə, Rusiya və Fransanın İstanbuldakı səfirləri bir komissiya şəklində işləməklə, hətta 1895-ci ildə hazırlanmış islahat proyektindən də yararlanaraq yeni bir islahat layihəsini işləyib hazırladılar. Hazırlanmış yeni layihəyə "rus işi" adı verildi (126, 79). Çünki layihənin əsas müddəaları Rusiyanın İstanbuldakı səfirliyinin əməkdaşı A.Mandeşltam tərəfindən hazırlanmışdır. İslahat layihəsi 1913-cü ilin iyun ayının 8-22-də Osmanlı hökumətinə təqdim olundu. Layihədə Şərqi Anadoluda yaradılacaq vilayətlərdə böl-

gü sistemi ləğv edilməklə Rusiyanın himayəsi altında "Erməni vilayəti" yaradılması nəzərdə tutulurdu. Daha dəqiq desək Ərzurum, Van, Bitlis, Diyarbəkr, Harput və Sivasın bir qismi "erməni vilayəti" adı altında vahid mərkəz halına gətirilməklə yanaşı, həmçinin vilayətin başına da böyük dövlətlərin istəyi ilə sultan tərəfindən 5 il müddətinə müsəlman və ya xristian baş müfəttişin təyin edilməsi planlaşdırılırdı. Sənədə görə valiyə idarə, mülki, ədliyyəyə dair geniş səlahiyyətlər verilməli, vilayətdə rəsmi yazışmalar türk və erməni dillərində aparılmalı idi. Layihə türk hökumətinə təqdim olunduqdan sonra altı dövlət (İngiltərə, Rusiya, Fransa, Avstriya-Macarıstan, Almaniya, İtaliya) səfirlərinin müzakirəsinə verildi. Rusiya sənədə ən böyük əngəlin Almaniyadan gəldiyini anladıqdan sonra altı dövlətdən ibarət bir komissiyanın yaradılmasını təklif etdi. Ancaq bütün bunlara baxmayaraq, Rusiya İstanbuldakı elçisinə Almaniya ilə münasibətlərin yenidən araşdırılmasına dair direktiv imzaladı. Hər iki elçi arasında aparılmış müzakirələrə sonradan digər dörd dövlətin (İngiltərə, İtaliya, Avstriya-Macarıstan, Fransa) də qoşulması sonda 22 sentyabr 1913-cü ildə müqavilə bağlanması ilə nəticələndi. Müqavilədə "rus sənədi"ndə nəzərdə tutulan bəzi məsələlərdən imtina edilməklə yeni variantlara üstünlük verilirdi. Hazırlanmış yeni layihəyə görə aparılacaq islahat yalnız ermənilərin məskunlaşdıqları Şərqi Anadolu ərazilərinə deyil, bütün imperiya ərazisinə şamil ediləcəkdi. İlk öncə islahat ermənilərin məskunlaşdıqları yeddi vilayətə (Ərzurum, Trabzon, Sivas, Van,

Bitlis, Harput və Diyarbəkr) tətbiq edilməli idi. Rusiyanın bu yığıncaqda iştirak etməsinə baxmayaraq, "rus sənədi"ndə nəzərdə tutulan "ümumi vali institutu" bu ölkədən fərqli olaraq digər dövlətlər tərəfindən rədd edildi. Burada yalnız müşavirlər və mütəxəssislər vasitəsilə nəzarət icrası əsas saxlanılırdı (106, 4-5).

Tarixi faktlar sübut edir ki, 1913-cü il ümumilikdə iri dövlətlərin İstanbuldakı elçiləri ilə hökumət arasında qarşılıqlı anlaşma şəraitində aparılan müzakirələrin kulminasiya ili kimi xarakterizə olunur. Belə ki, 16 dekabr 1913-cü ildə Sədrəzəm erməni islahatında xüsusilə fəal görünən rus və alman elçilərinin təzyiqlərini aradan qaldırmaq üçün hər iki tərəfi qane edəcək yeni bir sənədin hazırlanmasını öz üzərinə götürdü. Bu barədə türk tarixçisi Y.Halaçoğlu yazır: "Osmanlı hökuməti sənədin hazırlanmasında əcnəbi müşavirlərin fəaliyyətindən imtina edir, bununla yanaşı baş müfəttişlərin hökumətdən deyil, əcnəbi dövlətlərin nümayəndələrindən təyin olunmasını bildirirdi. Nəticədə, hökumətin gəldiyi yekun razılığa əsasən təyin edilmiş 2 Baş müfəttişin 10 il müddətinə öz xidməti vəzifələrini yerinə yetirilməsi qərara alındı (126, 82)". Əslində türk hökumətinin atdığı bu addım onun diplomatiya sahəsində uğradığı uğursuzluğunun məntiqi sonluğu idi. Ona görə ki, əvvəllərə dəfələrlə müzakirəyə çıxarılmış və bir növ uğursuzluqla nəticələnmiş rus və ya alman istəklərinin bu dəfə asanlıqla qəbul edilməsi, eləcə də iri dövlətlərin bu addıma loyal münasibətləri, bir sözlə Osmanlı hökumətinin xarici siyasətdə fiaskoya uğramasının göstəricisi

idi. Amma bütün bunlara baxmayaraq, rus tərəfi qəbul edilmiş sənədin natamam olduğunu və yenidən işlənməsini bildirməklə yanaşı, alman tərəfinin də rus mövqeyindən çıxış etməsinə çalışırdı. Rus hökuməti 14 yanvar 1914-cü ildə Fransa, İngiltərə və Almaniyaya göndərdiyi bildirişdə "artıq Şərqi Anadolu torpaqları "Ermənistan" şəklində göstərilməklə yanaşı, bölgədəki siyasi durumun qənaətbəxş olmadığını bildirərək yaranmış qarşıdurmalara Osmanlı hökumətinin göz yummasını vurğulayırdı". Bu bildirişdən sonra Fransa hökuməti bölgədəki vəziyyəti yerindəcə araşdırmaq üçün Ərzincandakı baş konsulluğa tapşırıqlar verdi. Aparılmış araşdırmalardan bəlli oldu ki, rus hökumətinin söylədikləri cəfəngiyyatdan başqa bir şey deyildir. Təbii ki, Osmanlı hökuməti rus tərəfinin təzyiqlərinə qarşı adekvat addımlar atsa da ikincilər bunu bir növ "yaralı insanın yaşamaq uğrunda mübarizəsi" kimi qələmə verdi.

Hakimiyyət daxilində baş vermiş qarşıdurma və iri dövlətlərin durmadan artan təzyiqləri və digər məsələlər İttihad və Tərəqqi hökumətini Rusiya ilə münasibətləri daha da yumşalmağa sövq edirdi. Belə ki, 8 fevral 1914-cü ildə Xarici İşlər Nazirliyinin səlahiyyətlərini də icra edən Sədrəzəm Seyid Həlim Paşa ilə Rusiyanın İstanbuldakı məsləhətçisi arasında müqavilə imzalandı. Müqaviləyə əsasən:

A) Şərqi Anadolunun hər iki hissəsinin idarə edilməsi üçün seçiləcək hər iki müfəttişin namizədliyini böyük dövlətlər irəli sürəcək və Osmanlı dövləti də bu barədə öz istəyini nota şəklinlə bildirəcək;

B) Hər müfəttişin öz idarəçiliyi altında olan torpaqlarda idarə, ədliyyə, polis və jandarma hakimiyyətinə malik olacaqdır;

C) Torpaq barədə yaranmış hər hansı bir xırda məsələlər müfəttişlər tərəfindən həll ediləcəkdir;

Qanun, Nizamnamə və rəsmi sənədlər məhəlli dillər vasitəsilə elan ediləcək, baş müfəttiş o zaman məsləhət görərsə hər kəs məhkəmələrdə və rəsmi dairələrdə danışıq vasitəsi kimi öz dillərindən istifadə edəcək, ancaq məhkəmə hökmləri türk dilində oxunacaq və imkan olarsa hökmlərin mətinləri digər dillərə də tərcümə ediləcəkdir. Bu sənəddə nəzərdə tutulan dil məsələsi, rus sənədindəkinə nisbətən bir az yumşaldılmışdı. Rus sənədində Şərqi Anadolu üçün məhəlli əsgərlik sisteminin tətbiq edilməsi nəzərdə tutulurdu. Yəni hər kəs yaşadığı ərazinin sərhədləri daxilində əsgəri xidmətini yerinə yetirməli idi. Hökumət bunu yalnız Şərqi Anadoluya deyil, bütün imperiya ərazisinə şamil etdi. 7 avqust 1913-cü ildə imzalanmış sənəddə hər kəsin yaşadığı yerdə əsgəri xidmət etmələri əsas götürülürdüsə, rus sənədində bu kimi məsələlər nəzərdə tutulan səviyyədə qabardılmırdı. Müəllif imzalanmış qərarın Osmanlı imperiyası üçün son dərəcə zərərli olduğunu bildirir, atılmış bu addımların qabaqcadan hazırlandığını yazır. Həmçinin müəllif razılaşdırılmış məhəlli əsgəri xidməti vəzifələrin tezliklə başlanacaq birinci dünya müharibəsi gedişində erməni silahlı birləşmələrinin öz ölkələrinə arxadan zərbə vurması kimi qiymətləndirirdi". Bu sənəddə həmçinin sultan I Əbdül Həmid zamanında

Şərqi Anadolu ərazilərində yaradılmış və tərkibi silahlı kürd birləşmələrindən təşkil edilmiş Həmidiyyə alaylarına ermənilərin də daxil edilməsi və digər məsələlər nəzərdə tutulurdu (126, 46).

Ümumiyyətlə, XX əsrin əvvəllərində Osmanlı imperiyası ağır sosial-iqtisadi böhranla üzləşmişdi. Belə ki, hökumət məmur və əsgərlərin aylarla yığılıb qalan əmək haqqlarının verilməsində çətinliklərlə üz-üzə qalmışdı. Odur ki, hökumət çıxış yolunu xarici ölkələrə müraciət etməkdə və maddi yardımların alınmasında görürdü. Osmanlı hökumətindən ilk belə bir müraciət İngiltərə və Fransa hökumətlərinə ünvanlandı. Müraciətdə ölkənin üzləşdiyi ağır iqtisadi böhrandan çıxış yolları, bu işdə Osmanlı hökumətinin iri kapitalist dövlətlərin maddi yardımları sayəsində birgə əməkdaşlığın vacibliyindən söhbət açılırdı. Digər tərəfdən Osmanlı hökuməti də ölkə daxilində bir sıra tədbirlərin həyata keçirilməsinə çalışırdı. İlk olaraq hökumət vergilərin və gömrük rüsumlarının artırılmasında maraqlı olduğunu bildirməklə yanaşı bu məsələlərin həlli prosesində iri dövlətlərlə birgə məsləhətləşmələrin aparılacağını bildirdi. Məhz bununla əlaqədar olaraq Sədrəzəm Seyid Həlim Paşa 13 dekabr 1913-cü ildə Parisdə fəaliyyət göstərən türk səfirliyi vasitəsilə Boqos Nübar Paşanı bir sıra məsələlərin birgə müzakirəsi üçün İstanbula görüşə dəvət etdi. Dərhal Eçmiədzin katalikosluğu ilə məsləhətləşmələr aparan Boqos Nübar Paşa 17 dekabr 1913-cü ildə verdiyi açıqlamasında görüşün keçirilməsindən açıq-aşkar imtina etdi. O, bunu özünün Eçmiədzin katali-

kosluğu tərəfindən Avropaya vəzifə borclarını yerinə yetirmək üçün göndərildiyini, həmçinin bu məsələlərin birabaşa katalikosluğun İstanbulda fəaliyyət göstərən nümayəndəliyi tərəfindən çözülməsi ilə əsaslandırırdı. Verdiyi bu açıqlaması ilə o, bir növ özünün belə məsuliyyətli işlərdən uzaq olduğunu bildirirdi. Qeyd etmək lazımdır ki, bəhs olunan dövrdə Osmanlı hökumətinin qərb dövlətlərinə unvanladığı müraciət sanki bir kağız parçası olaraq qaldı. Çünki, Osmanlı imperiyasının düşdüyü bu ağır iqtisadi böhrandan çıxarılması iri dövlətlərin maraqlarına uyğun deyildi. Məhz bu qüvvələr nəinki maddi yardımların göstərilməsinə, hətta Osmanlı hökumətinə yardım etmək istəyində olan dövlətlərə qarşı iqtisadi sanksiyaların tətbiq edilməsinə çalışırdılar. Demək olar ki, yuxarıda qeyd etdiyimiz bu kimi amillər imperiyanın süqutunu sürətləndirməklə yanaşı onun mövcudluğunun üstündən birdəfəlik xətt çəkmiş olurdu.

Beləliklə, I dünya müharibəsi ərəfəsində qərbin iri imperialist dövlətlərin Osmanlı imperiyasının daxili işlərinə birbaşa müdaxiləsi etmək və islahat məsələsi ilə bağlı sultan hökumətinə edilən bu və ya digər təzyiqlər müharibənin başlanması ilə zəifləmiş oldu.

# II FƏSİL

# OSMANLI SULTANI TƏRƏFİNDƏN ŞƏRQİ ANADOLU ERMƏNİLƏRİNİN ÖLKƏNİN UCQAR CƏNUB BÖLGƏLƏRİNƏ KÖÇÜRÜLMƏSİNİN GEDİŞATI VƏ NƏTİCƏLƏRİ

## 2.1. Şərqi Anadolu ermənilərinin ruslarla əməkdaşlığı. Van üsyanı

XVIII əsrin sonlarında Almaniya taxt-tacına yiyələnmiş Kayzer Vilhelmin qarşıya qoyduğu əsas məqsəd ölkəsini dünyanın nəhəng və hərbi baxımdan qüdrətli dövlətinə çevirmək, eyni zamanda bu yolda müttəfiq ölkələrin yardımından faydalanmaqla Afrika və Asiya qitələrində imperiyanın müstəmləkə mülklərini daha da genişləndirməkdən ibarət idi. Qeyd etmək lazımdır ki, Kayzer Vilhelmin əsas diqqəti Şərqə yönəldilyindən ilk öncə Osmanlı imperiyası ilə müttəfiqlik əlaqələrinin qurulması qaçılmaz idi. Bəhs olunan dövrdə Almaniyanın strateji maraqlarını Alman-Erməni cəmiyyətinin üzvü Paul Rorbax belə qiymətləndirirdi: "Almaniyanın gələcəyi Şərqdədir, Mesopotamiyada, Suriyadadır (115, 33)". Bununla ölkəsinin strateji maraqlarının müəyyənləşdirildiyini qeyd edən Paul Rorbax fikirlərinə davam edərək yazırdı: "Beləcə, başdan-başa dağlıq və düzənliklərdən ibarət Şərqi Anadolu bölgəsini və ona yaxın olan əraziləri ilhaq edən hər hansı bir dövlət, eyni zamanda Yuxarı Mesopotamiyaya da hakim olacaqdı.

Şübhəsiz, bu dağlıq ərazi bir keçid bölgəsi idi və iki böyük qitəni bir-biri ilə birləşdirirdi. Dolayısı ilə bölgənin türk torpağı olması ilə barışmayan Rusiyanın bu əraziləri ələ keçirmək istəyinə qarşı Almaniyanın müttəfiqi Osmanlı imperatorluğunu dəstəkləməsi gərəkirdi. Bu mənada Osmanlı imperatorluğu Almaniya üçün sadiq və çox dəyərli bir müttəfiqdi (115, 33)". Almaniya vaxt itirmədən Osmanlı hakim dairələri ilə intensiv danışıqlar aparmağa başladı. Alman hərbi dairələrinin hazırladıqları planın mahiyyəti türk hakim dairələrinə bildirilmişdi. Başlanğıcını İstanbuldan götürərək Şərqə, daha doğrusu, İran və Əfqanıstana qədər uzanan bu strateji plan daha sonra Hindistana enən keçidlərin ilhaq edilməsinə qarşı yönəlmişdi. Kayzer Vilhelm İran və Əfqanıstanın dəstəyini qazanmağın çətin olduğunu görüb bu işə yalnız Osmanlı sultanının qoşulmasından sonra mümkün ola biləcəyini qeyd edirdi. Bu barədə türk tarixçisi Selami Kılıç yazır: "Kayzer bir xristian olaraq müsəlmanları cihada çağırmaq iqtidarına malik deyildi. Belə müqəddəs bir əmri ancaq müsəlmanların xəlifəsi olan Osmanlı sultanı verə bilərdi. Beləcə Almaniyanın Osmanlı imperatorluğu ilə bir ittifaqda iştirakı olduqca vacib idi. Vilhelmin müharibədən öncə Türkiyə ilə qurduğu isti münasibətlər onun uzaqgörən dövlət başçısı olduğunu bir daha təsdiqlədi (115, 24)". Doğrudur, Almaniya milli maraqları nəzərə alaraq, Osmanlı imperiyası ilə müttəfiqlik əlaqələrinə girmişdi. Bu yeganə doğru və düzgün qərar idi. Bir ittifaqda iştirak etmək barədə ilkin razılıq əldə edildikdən sonra alman rəsmiləri və general-

ları vaxt itirmədən Osmanlının hərbi və idarəetmə sistemini Avropa modelinə uyğunlaşdırma istiqamətində öz səylərini gücləndirməyə başladı. Öncə qarşıya qoyulmuş əsas məqsəd imperiyanın hərbi sistemini müasirləşdirmək və maddi texniki bazasını gücləndirməkdən ibarət idi. Bunun üçün Almaniyadan buraya başda general Kolmar von der Goltz olmaqla əsgəri kontingent göndərildi. On ilə qədər İstanbulda qalaraq imperiyanın böyük, lakin o qədər də döyüş təcrübəsi olmayan quru qoşunları ilə yanaşı, hərbi dəniz qüvvələrini də modifikasiya etdi (115, 48).

Qeyd etmək lazımdır ki, Almaniyadan fərqli olaraq Osmanlı imperiyası tamamilə yox olmaq təhlükəsi ilə üzləşmişdi. Üçlər İttifaqı müharibədə qalib gələrdisə, ən azından Osmanlı imperiyası Almaniyanın himayəsi altına girmiş olacaqdı. Antanta bloku ölkələri qalib gələrdisə, o zaman Türkiyə qalib dövlətlər arasında bölüşdürüləcəkdi (76, 424). Vəziyyətin həddindən artıq gərginləşdiyini nəzərə alan Ənvər Paşa Osmanlı imperiyasının müharibədən kənarda qalacağına şübhə ilə yanaşaraq təcili şəkildə Üçlər ittifaqı ilə danışıqlar aparılmasını məqsədəuyğun hesab etdi. Aparılmış qısa müddətli danışıqlardan sonra Ənvər Paşa 1914-cü il iyulun 23-də Almaniya imperiyasının Türkiyədəki səfirinə müraciət edərək alman-türk ittifaqının bağlanmasına kömək göstərməyi xahiş etdi. Nəticədə, avqust ayının 2-də Almaniya ilə Türkiyə arasında İttifaq müqaviləsi imzalandı (19, 44). 1914-cü il oktyabrın 31-də Osmanlı imperatorluğu Üçlər İttfaqı tərkibində müharibəyə girmiş oldu.

Qeyd etmək lazımdır ki, hələ 1908-ci ildə qüvvəyə minmiş yeni Osmanlı Konstitusiyasına görə imperiyanın bütün təbəələri ordu sıralarına çağırlmalı idi. Bu barədə tarixçi Sevinc Seyidova yazır: "Məhz bu qanunun əsasında erməni əhalisinin nümayəndələrini I Dünya müharibəsi başlayanda orduya çağırdılar. Lakin silah əldə edən erməni əsgərləri vətənin uğrunda döyüşməkdənsə fərariliyə üstünlük verdilər (19, 45)". Bunun üçün Rusiya erməniləri davamlı sürətdə Osmanlı dövlətinə arxadan zərbə vurmağa, bir sözlə xəyanətə səsləyirdilər. Bir sözlə Rusiyanın erməni məsələsində mövqeyi heç də həmişə sabit deyildir və siyasi konyukturadan asılı olaraq dövlətin maraqlarına uyğun dəyişilirdi (20, 49). Rusiyanın dəstəyini aldıqdan sonra Osmanlı imperiyasında fəaliyyət göstərən erməni komitələri müharibədən öncə Türkiyədəki şöbələrinə aşağıdakı təlimatı vermişdilər: "...rus ordusu sərhəddən irəliləyər və Osmanlı ordusu geri çəkilərsə hər tərəfdən Osmanlı ordusuna təzyiq göstərilməlidir. Osmanlı ordusu hər iki tərəfdən hücuma məruz qalmalı, rəsmi binalar bombalanmalı, iaşə depolarına ağır zərbələr endirilməlidir. Əksinə Osmanlı ordusu hücuma keçərdisə bu zaman erməni əsgərləri rusların tərəfinə keçərək arxadan türk ordularına zərbə vurmalı idilər(19, 50)".

Bir sıra Avropa və Amerikalı tədqiqatçılar da (Clair Price, Rafael de Noqales, Philips Price, Phillippe de Zara, Selahi Sonyel, Felix Valyi, Erix Fayql, Jorj de Malevil, Jastin Makkarti, Karolin Makkarti, Samuel A. Uimz, Stefan San, Stenford Corc Şou, Laurense Evans və b.) öz

əsərlərində ermənilərin Osmanlı imperatorluğuna qarşı ruslarla bir ittifaqda mübarizə apardığını yazırlar. Bu barədə Philips Pricenin fikirləri daha maraqlıdır. O, yazır: "...müharibə başlayan kimi bu bölgədə yaşayan ermənilər (Şərq vilayətləri nəzərdə tutulur-T.C) Qafqazdakı rus təşkilatları ilə gizli təmasa girərək türk vilayətlərindən rus ordusuna könüllü şəkildə köməyə gəldilər (99, 198)".

Birinci dünya müharibəsi ərəfəsində Osmanlı imperiyasının Şərqi Anadolu bölgəsinə qonşu olan Qafqaz cəbhəsi artıq rus qoşunları tərəfindən hərbi paliqona çevrildi. Belə ki, erməni əsilli təcrübəli üsyan başçısı Andranik Ozanyan Tiflisə gələrək burada çoxlu sayda erməni silahlı dəstələrinin yaradılmasına müvəffəq oldu. Digər bir silahlı birləşməyə vaxtı ilə Ərzurumdan Məclisi-Məbusana millət vəkili seçilmiş, mənşəcə erməni, Armen Qaro ləqəbi ilə taninan Qaragin Pastırmacyan rəhbərlik edirdi. O, ətrafına daha bir neçə erməni əsilli millət vəkilləri olmuş şəxsləri toplayaraq dörd yeni erməni könüllü alaylarının yaradılmasına müvəffəq oldu. Qafqaz canişini Vorontsov-Daşkovun rəhbərliyi altında yaradılan bu alaylar onun verdiyi əmrə əsasən müharibə başladıqdan 3 həftə ərzində əvvəlcədən müəyyənləşdirilmiş strateji əhəmiyyətli məntəqələrin tutulmasını həyata keçirməli idi. Rus Baş komandanlığının planına uyğun olaraq Daşnaqsütyun cəmiyyətinin verdiyi qərara əsasən Andranik Ozanyanın könüllü alayları Vana yaxınlaşan zaman buradakı silahlı erməni birləşmələri dağlara çəkilərək üsyan bayrağını qaldırmalı, türk əsgərinə və onların ailələrinə yaşadığı ərazilərə qarətçi həmlələr

etməli idilər. Həmçinin hazırlıq planına uyğun olaraq burada hərbi hazırlıq işləri tam başa çatdırılmış, hərbi birləşmələr döyüş hazırlığı vəziyyətinə gətirilmişdi. Məqsəd müharibəni qalibiyyətlə başa vurduqdan dərhal sonra Şərqi Anadolunun "Vilayəti-Sittə" deyilən bölgəsi ilə yanaşı Qafqaz regionu da daxil olmaqla adı çəkilən zonada müstəqil erməni dövlətinin yaradılmasını reallaşdırmaq idi. Bunun üçün ermənilər yorulmadan gecə-gündüz çalışaraq bu dövləti yaradılması uğrunda mühüm tədbirlər planı işləyib hazırladılar. Məhz belə qəbildən olan tədbirlərdən biri də birinci dünya müharibəsi ərəfəsində, daha dəqiq desək, 1914-cü ilin əvvəlində Eçmiədzin Katalikosu V Gevorqun Tiflisə gələrək çar tərəfindən qəbul edilməsi hadisəsi oldu. Katalikosun çarla apadığı gizli danışıqlarda əsasən ermənilərin qurtuluşunun Osmanlı dövlətindən ayrılaraq Rusiyanın himayəsi altında müstəqil Ermənistan dövlətinin yaradılması ilə mümkün ola biləcəyini görmək mümkündür (108, 186).

I Dünya müharibəsi başlayan kimi, 3 avqust 1914-cü ildə Osmanlı imperiyası ərazisində səfərbərlik elan edildi. Səfərbərlik elan etməklə Osmanlı hökumətinin əsas məqsədlərini türk tarixçisi Zafer Özkan bu şəkildə dəyərləndirərək yazır: "Səfərbərlik elan etməklə Osmanlı hökumətinin əsas məqsədi bir dövlətin düşmən dövlətə qarşı bütün imkanlarını səfərbər edəcək sürətlə hərbə hazırlıq görməsidir. Ölkəni müharibəyə hazır vəziyyətə gətirmək üçün əsgərlik yaşına çatmış bütün vətəndaşların hərbi xidmətə cəlb edilməsi, sərhədyanı əra-

zilərin təzlükəsizliyinin təmin edilməsi, yeni hərbi planların hazırlanaraq yerinə yetirilməsi» və s. nəzərdə tuturdu (128, 119).

Birinci Dünya müharibəsinə girməmişdən öncə erməni siyasi təşkilatlarının (İstanbul Patriarxlığı, Daşnaqsütyun partiyası, Qnçaq təşkilatı və s.) fəal üzvləri İstanbulda toplanaraq gələcək siyasi məsələləri bir daha gözdən keçirdilər. Toplantının yekununda iki qərar qəbul edildi. Birinci qərara görə "Osmanlı dövlətini şübhələndirməmək, həmçinin müharibəyə girdiyi halda erməni xalqını Osmanlı dövlətinə sadiq qalaraq hökumətin çıxardığı qərarlara biganə qalmamağı nəzərdə tuturdusa, ikinci qərar sırf gizli xarakter daşıyırdı. Bu qərar Osmanlı hökumət nümayəndələrindən gizli saxlanılsa da əslində təlimat şəklində bütün erməni komitələrinə paylanılmışdı. Burada ermənilərin Osmanlı dövlətinə xəyanəti və eyni zamanda ruslara yardım etmələri tələb olunurdu (119, 26)".

Rusiya ilə Osmanlı dövləti arasında baş vermiş müharibə yeni bir mərhələyə keçməklə artıq Qafqaz ərazisi hərbi plasdarma çevrilmiş oldu. Hərbi əməliyytalar bu və ya digər tərəfin üstünlüyü ilə keçirdi. Səfərbərlik elan edildikdən sonra Türkiyənin quru qoşunlarının sayı 800 min nəfərə çatdırıldı. Eyni vaxtda müxtəlif istiqamətlərdən imperiyanın şərq və cənub-şərq sərhədlərinə imperialist dövlətlərin qoşun yeritməsi Osmanlı hökumətini ciddi narahat edirdi. Hökumət qısa zamanda bölgələrin təhlükəsizliyini təmin etməkdən ötrü ordunu müxtəlif istiqamətlərdə–Mesopotamiya istiqa-

mətində I, II, V Ordunu, Suriya və Fələstin istiqamətində IV Ordunu və nəhayət, Qafqaz istiqamətində III Ordunu hərəkətə gətirdi. Türk ordusuna komandanlığı hərbi nazir Ənvər Paşa həyata keçirirdi. Qeyd etmək lazımdır ki, türk ordusu Almaniya ordusunun təlimatçıları tərəfindən müasir silahlarla silahlandırılmış, eyni zamanda dövrün tələblərinə uyğun olaraq hərbi biliklərlə maarifləndirilmişdilər. Türkiyə ordusunun baş ştabına general Bronzart Fon Şellendorf rəhbərlik edirdi (4, I cild, 221). Rus ordusunun Qafqazdakı hissələrinə isə Qafqaz canişini I.I.Vorontsov-Daşkov və onun müavini general A.Z.Mislaevski başçılıq edirdi. Rus ordusunun Qafqaz cəbhəsində olan sayı 170 min nəfər, döyüş parkı isə 350 topdan ibarət idi (4, I cild, 221-222).

Qeyd edək ki, 720 km uzunluğu olan Qafqaz cəbhəsində 200 minlik rus ordusu və tərkibində 4 drujinada birləşən 10 minlik erməni silahlı dəstələri müharibəyə ciddi hazırlaşmışdı. Noyabr ayının 1-də Rusiya Qafqazda Türkiyəyə qarşı müharibə elan etmiş, bir gün sonra 3 istiqamətdə – Oltu, Sarıqamış və Qazığman istiqamətində hücuma keçmişdi. Türk qoşunları isə öz qüvvələrini Ərzurum istiqamətində cəmləşdirmişdi. Belə ki, general Baratovun komandanlığı altında erməni-rus qoşunları ilk olaraq 1914-cü ilin noyabrın 6-da strateji məntəqə olan Ərzurum istiqamətindən hücuma keçdi. Ertəsi gün rus ordusu artıq Kempisanın 50 kilometrliyinə çatmışdı. Türk silahlı qüvvələri rus ordusunun ildırım sürətli hücumları qarşısında çoxlu sayda itki verdikdən sonra geri çəkilmək məcburiyyətində qaldı. Hökumət

təcili olaraq III Ordunun döyüş qabiliyyətini gücləndirmək üçün digər ordu birləşmələrindən buraya hərbi kontingent göndərilməsi barədə əmr verdi. Əlavə qüvvənin cəlb edilməsi ilə türk ordusu noyabr ayının 10-da Köprüköy məntəqəsində rus qoşunlarının hücumunun qarşısını almaqla yanaşı, həmçinin rus ordusunu məğlub edərək onları geri çəkilməyə məcbur etmişdi. Bu zaman çar II Nikolay Qafqaz cəbhəsinə gələrək məğlub olmuş rus əsgərlərini ruhlandırmaq üçün onları mükafatlandırmışdı (15). Köprüköy qələbəsindən ruhlanan müdafiə naziri Ənvər Paşa rus ordusuna qarşı şərq cəbhəsindən yeni hücum planının həyata keçirilməsini məqsədəuyğun hesab etsə də, vaxtı ilə Qafqaz cəbhəsində vuruşmuş döyüşçülərin qış mövsümündə bu ərazilərdə hərbi əməliyyatların aparılmasının olduqca ağır olduğunu nazirin diqqətinə çatdırmış, lakin onu öz fikrindən daşındıra bilməmişlər. Belə ki, türk ordusu çevik hərbi əməliyyatlara başlayaraq Qars vilayətindən Oltu-Sarıqamış istiqamətində hücuma keçdi. Sarıqamış ətrafında baş vermiş şiddətli döyüşlərdə türk ordusu ağır itkilər verərək geri çəkilmək məcburiyyətində qaldı. Bu zaman türk ordusunun yarıdan çoxu şimaldan manevr edən zaman Allahu-Əkbər dağlarında dəniz səviyyəsindən 2000 metr yüksəkliklərdə ərzaq və geyim təchizatından korluq çəkərək tələf oldu. Arxiv sənədlərinin verdiyi məlumatlara görə bu zaman türk ordusunun 90 min nəfərə yaxın spesnaz əsgəri soyuqdan, aclıqdan tələf olmuşdu. Bu itkilərdən özünə gələ bilməyən türk ordusu rus ordusunun imperiyanın daxilinə doğru irəliləməsinə

mane ola bilməmişdi. Hərbi əməliyyatların nəticələri barəsində tarixçi Bəxtiyar Nəcəfov yazır: "1914-cü ilin sonu, 1915-ci ilin əvvəlində hərbi əməliyyatların nəticəsi heç bir tərəfə müvəffəqiyyət gətirmədi"(4, I cild, 228). Müəllif bunun səbəblərini aşağıdakı kimi qeyd edirdi: "Osmanlı ordusu planlaşdırılmış şəkildə müharibə aparsa da, amma zaman baxımından mövsümün düzgün seçilməməsi ordunun döyüş qabiliyyətini aşağı salmaqla yanaşı, eyni zamanda çoxlu sayda itki verilməsi ilə nəticələndi" (4, I cild, 228). Artıq rus qoşunları fevral-aprel ayları ərzində Qars, Bitlis və Trabzonu ələ keçirdi. Şərqi Anadolunun erməni-rus silahlı birləşmələri tərəfindən tutulması ilə bu ərazilərdə hökumət əleyhinə kütləvi üsyanların baş verməsi ilə nəticələndi.

Birinci Dünya müharibəsinin ən şiddətli vaxtlarında Osmanlı təbəəsi olan ermənilərin Şərqi Anadoluda miqyasına görə törətdikləri ən böyük üsyan Van şəhəri və ona yaxın olan ərazilərdə baş verdi. Van üsyanının törədilməsi barədə ilk xəbər Jandarma Tümən Komandanı Kazım bəy tərəfindən açıqlandı. Kazım bəy hərbi əməliyyatlar zamanı türk əsgərləri tərəfindən əsir götürülmüş iki erməni casusunun verdiyi ifadələrə əsaslanaraq hökumətə yaxın günlərdə Van vilayətində erməni komitəçilərinin bir başa havadarlığı sayəsində geniş miqyasda üsyan baş verəcəyini bildirdi. Həmçinin o, düşmən tərəfindən ələ keçirilən ərazilərdə türk əhalisindən silahların yığılaraq üsyançılara paylandığını da qeyd edirdi (29, 203). Artıq üsyanın qığılcımlarını hiss edən Van Valisi Cevdət bəy xalqa üsyançılardan qorun-

maları üçün silah paylanılması və eyni zamanda könüllü polis alaylarının yaradılması barədə göstəriş verdi (116, 98). Üsyançılar bir-birinin ardınca əvvəlcə 15 aprel 1915-ci ildə Van Vilayətində, daha sonra 17 apreldə Şatakda (Çatakda), ertəsi gün (18 aprel) Bitlisdə və nəhayət aprelin 20-də Van şəhərinin mərkəzində böyük bir üsyan törətdilər. Ermənilər Vanda üsyan etməklə bərabər, həmçinin Vana doğru irəliləyən Rus hərbi birləşmələrinə də yardım etmişlər. Vanda sadəcə bir jandarma taborunun saxlanılmasından xəbərdar olan üsyançılar 17 may 1915-ci ildə Van qalasını ələ keçirərək buranı ruslara təslim etmişlər (71, 147). Türk tarixçisi Kamuran Gürün yazır: "1915-ci ilin aprel ayında ruslarla qarşılaşan türk ordusunun Van vilayətinin şərq ərazilərində yerləşən Van Səyyar Jandarma Firqəsinin bir taboru ilə birgə 1 may 1915-ci ildə Dilman yaxınlığında həyata keçirdiyi hücumda çoxlu sayda itki verdikdən sonra geri çəkilmək məcburiyyətində qaldı. Bu vaxt Türk ordusu geri çəkilərək Van gölünün cənubundakı sıldırımlı dağ aşırımlarını keçib Bitlis istiqamətində hərəkətə keçdi. Şəhərin müdafiəsiz qaldığını görən rus silahlı birləşmələri erməni üsyançılarının təriki ilə yerli müsəlman əhalisini şəhərdən çıxararaq qonşu ərazilərdə məskunlaşdırmağa başladılar (116, 37)". Bu hadisələrin canlı şahidi olmuş Rafael de Noqalis yazırdı "Ermənilər Van şəhərindən 10 min kənd və qəsəbələrdən 200 minə qədər türkü öz ata-baba yurdlarından köçürərək qonşu ərazilərdə yerləşdirmişlər (116, 37)".

Van bölgəsini ermənilərdən təhvil alan ruslar Bitlisə doğru irəliləyərkən Van, Muradiyyə, Erciş, Adilcevaz, və Ahlatdakı türk əhalisi Bitlis əhalisi ilə birlikdə səfil və pərişan halda Diyarbəkirə köçürüldü. Yollar on minlərlə türk köçkünləri ilə dolmuşdu. Yollarda baş vermiş erməni vəhşilikləri barəsində Rafael de Noqales yazırdı: "Erməni komitəçiləri bu məcburi köçürülən türklərə amansız işgəncələr verərək Bitlis dərəsinin müsəlman qanı ilə qırmızı rəngə boyanmasına vəsilə olmuşlar(116, 38)".

Artıq demək olar ki, Vanın mərkəzi türklərin nəzarətindən çıxaraq itirilmək təhlükəsi ilə üzləşmişdi. Bununla bağlı olaraq, Van valisinin 24 apreldə Daxili İşlər Nazirliyinə göndərdiyi raportda qeyd edilirdi: "...İndiyə qədər bölgəyə kənardan 4 minə qədər üsyançı erməni gətirilmişdir. Üsyançılar yolları kəsərək kəndlərə hücumlar edir, nəticədə günahsız insanları vəhşicəsinə qətlə yetirirdilər. Sadə türk vətəndaşı ilə yanaşı Vanın təhlükəsizliyini təmin edən türk jandarma əsgərləri də bu vəhşiliyin qurbanları oldu. Bununla yanaşı inzibati binalar və iaşə obyektləri yerlə-yeksan edildi, strateji məntəqələrə ağır zərbələr endirildi. Üsyanın dalğası genişlənərək bütün Van vilayətini bürüdü". Mayın 8-də ermənilər hücuma keçərək müsəlman məhəllələrini yandırdılar. Van valisi Cevdət bəy vəziyyətin ağır olduğunu görərək Vanın boşaldılması əmrini verdi. Lakin hökumət Vanın itirilməsi və Şərqi Anadolu dəhlizinə nəzarətin əldə verilməsi ilə barışa bilmirdi. Məhz hökumətdə bununla bağlı uzun sürət müzakirələr aparıldı. Hətta ordu koman-

danı vəzifəsini icra edən Xəlil bəy mayın 11-də Baş Komandanlığa göndərdiyi raportda Van və ətraf ərazilərin yaxın günlərdə erməni-rus silahlı birləşmələrindən azad ediləcəyini bildirsədə, onun bu istəyi reallaşmadı. Çünki Xəlil bəyin Vana nəzərdə tutulan hücum planından xəbər tutan ermənilər Vana girib-çıxan bütün yolları nəzarətə götürdülər. Xəlil bəy düşmənin həyata keçirdiyi qabaqlayıcı tədbirlərinə baxmayaraq ordunu Van istiqamətində döyüşə hazır vəziyyətə gətirdi. Artıq mayın 16-dan 17-nə keçən gecə rus qoşunları ilə baş vermiş qanlı döyüşdə türk ordusu çoxlu sayda itki verdi. Vəziyyətin belə acınacaqlı olduğunu görən hökumət Van Valisi Cevdət bəyə geri çəkilmək barədə əmr verdi. Nəticədə, mayın 17-də sonuncu türk əsgəri də Vanı tərk etdi. Bununla da, Vanda tamamilə nəzarəti ələ keçirən düşmən ordusu üsyana rəhbərlik etmiş mənşəcə erməni Aram Manukyanı şəhərin valisi və general qubernatoru təyin etdi. Amerika tarixçisi Stenford Corc Şou çox-çox sonralar yazırdı: "...belə bir şəraitdə rus ordusu hücuma keçdi və mayın 14-də Vana çatdı. Rus ordusunun önündə gələn erməni könüllüləri iki gün ərzində yerli müsəlman əhalisinin qırğınını həyata keçirdilər. Vanda rusların himayəsi altında erməni dövləti yaradıldı. Şəhərdə qırılan qırılmış, qaçan qaçmış, nəticədə müsəlman qalmamışdı (137, 22)".

1915-ci ilin may ayında Osmanlı ordusunun bir neçə cəbhədə vuruşmasına baxmayaraq imkan tapıb iyulun 22-də hücumla Vanı geri aldı(129, 72). Lakin çox az müddətdə Vanda nəzarəti ələ keçirən türk ordusu avqust

ayında buraya hücum edən rus ordusu qarşısında tab gətirməyərək yenidən şəhəri ruslara təslim etdilər. Erməni millətçi ekstremisləri ruslarla birlikdə Van vilayətində dinc türk əhalisinə qarşı amansız qırğınlar törətdilər. Erməni vəhşilikləri barədə 20 iyun 1916-cı il tarixli sənəddə də üsyançıların Vanın Abbasağa məhəlləsinin sakinlərinin qadın, uşaq, qoca demədən qətlə yetirməsi, hamilə qadının qarnının yarılaraq uşağın başının deşik-deşik edilməsi, girdikləri evlərdə əliyalın türk vətəndaşına saatlarla işgəncə verdikdən sonra qətlə yetirilməsi, qəbrlərin qazılaraq oradan çıxarılmış sümüklərin yandırılması və qəbrlərin zibillə doldurulması və digər tükürpədici işgəncələr haqqında ətraflı şəkildə məlumat verilir (34, 55).

Müharibə illərində H.Z.Tağıyevin sədri olduğu Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti Qafqaz cəbhəsindəki döyüş bölgələrindən qaçqın düşənlərə, valideynlərini itirmiş uşaqlara, kimsəsiz qocalara qardaşlıq köməyini əsirgəməmişdir. Bu cəmiyyət müharibədən zərər çəkənlərə kömək etmək üçün üç dəfə Rusiya çarına müraciət etmişdir. Lakin hər dəfə də rədd cavabı almışdır. Uzun sürən mübarizədən sonra cəmiyyət üzvlərinə Şərqi Anadolu bölgələrinə getməyə icazə verilmişdi. Novruz bayramı ərəfəsində yola düşən komissiya martın 21-də Gəncəyə gəlmiş, onları Həsən bəy Ağayev, Xəlil bəy Xasməmmədov, Ələkbər bəy Rəfibəyov, Xudadat bəy Rəfibəyov qarşılamış və əlavə maddi yardım göstərmişdir. Gəncədə şair Əhməd Cavad da nümayəndə heyətinə qoşularaq Qarsa, Vana yardım əlini uzatmağa

getmişdir. Şərqi Anadolunun Van, Qars, Ərdahan, Qağızman və Oltu bölgələrində qırğınlardan zərər çəkənlərə ərzaq və pal-paltar çatdıran bu heyətin üzvlərindən Mustafa Vəkilov, Əlixan Qandəmir, Əhməd Cövdət, İsmayıl Hazaralı və b. xeyli iş görmüşdür. Vandan əlavə Qarsda və Ərdahanda cəmiyyətin şöbələrini yaratmış Bahadur bəyin idarəsində əczaxana, Dəyirmanköydə müalicə məntəqəsi açılmış, Çıldır, Gölə, Posxov ərazılərində nümayəndəliklər təşkil edilmişdir. Komissiya yerli müsəlman əhalinin hüquqlarının müdafiəsi üçün məsələ qaldırmış, qırğınlara göz yuman və yaxud şərait yaradan bir sıra vilayət valiləri məhkəməyə verilərək, başqa yerlərə sürgün edilmişdir. Hətta Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti Vana göndərdiyi nümayəndə heyətinin verdiyi məlumatlar əsasında bəyannamə qəbul etmişdir. Həmin bəyannamədə cəmiyyət Şərqi Anadolu bölgəsində qalan kimsəsiz arvad-uşaqların Bakıya və Gəncəyə gətirilməsi niyyətində olduğunu bildirmiş, oradan gətirilən kimsəsiz uşaqların sahibkarların və mülkədarların himayəsinə verilməsini qərara almışdır. Nəticədə, bəhs olunan dövrdə Bakı uşaq evlərində Şərqi Anadolu cəbhəsindən gətirilmiş 1000-ə qədər uşaq və qadın yerləşdirilmişdir (15).

Beləliklə, 1914-1915-ci illərdə erməni millətçi ekstremistləri və komitəçi ermənilərin havadarlığı sayəsində erməni-rus silahlı birləşmələrinin Van və ona yaxın ərazilərdə günahsız türk əhalisinə qarşı həyata keçirdikləri soyqırımı siyasəti nəticəsində 200 mindən artıq günahsız türk vətəndaşı erməni vəhşiliyinin qurbanı olmuşdur. Bu

mənfur siyasət müharibənin ən şiddətli vaxtlarında belə Van vilayəti ilə yanaşı digər ərazilərdə də davam etdirildi.

## 2.2. Osmanlı imperiyası I dünya müharibəsi illərində. 1914-1915-ci il hadisələri. Ermənilərin köçürülməsi haqqında qərarın həyata keçirilməsi və nəticələri

I Dünya müharibəsinin başlanmasından az sonra Şərqi və Cənub-Şərqi Anadolu bölgələrindən gələn sarsıdıcı xəbərlər, o cümlədən rus qoşunlarının sərhəddə yaxınlaşaraq burada erməni millətçi ekstremistləri ilə birgə türk müsəlman əhalisini qətlə yetirməsi Ali Baş Komandan vəkili Ənvər Paşanı radikal addımlar atmağa məcbur etdi. Artıq imperiyanın Şərqi Anadolu bölgəsi demək olar ki, erməni-rus silahlı birləşmələri tərəfindən zəbt edilmək təhlükəsi ilə üzləşmişdi. Geosiyasi və geostrateji baxımdan əlverişli mövqeyə malik, eyni zamanda nəqliyyat və kommunikasiya xətlərinin kəsişmə nöqtəsində yerləşən Van vilayətində erməni komitəçiləri və rus silahlı birləşmələri tərəfindən misli görünməmiş vəhşiliklər törədildi.

Qeyd edək ki, erməni cəlladları tərəfindən dəfələrlə törədilən qanlı qırğınlar bütün dəhşətləri ilə insan zəkasına sığmayan və dilə gətirilməsi mümkün olmayan bir faciədir və türklərə qarşı əsl genosid və soyqırımı siyasətidir. Bunun tam əksinə olaraq erməni başbilənləri artıq bir əsrdən çoxdur ki, 24 aprel tarixini özlərinin uydurma "soyqırımı" günü kimi qeyd edirlər. Əslində 24 apreldə nə baş vermişdir? Nə üçün bu tarix ermənilərin saxta "soyqırımı" günü kimi qeyd edilir? Bu və ya digər suallara aydınlaq gətirmək üçün bir sıra məsələləri ətraflı şəkildə təhlil etmək lazımdır. 1915-ci il aprelin 24-də

DİN-nin sərəncamı ilə İstanbul və digər böyük şəhərlərdə erməni təşkilatları dərhal bağlanmalı, terrorçu təşkilatların başçıları isə həbs edilməli idi. Bu sərəncam əsasında 2345 nəfər həbs edildi. O dövrün şahidlərinin verdiyi ifadələrə əsasən 600 nəfər erməni yazıçısı, şairi, jurnalisti, siyasətçisi, həkimi, vəkili, hüquqşünası, müəllimi, alimi və ruhanisi həbs edildi. Lakin rəsmi türk mənbələrində də 2345 nəfərin həbs edilməsi qeyd edilirdi. Məhz 24 aprel günündə erməni hərəkatına rəhbərlik edən bu peşə sahiblərinin həbs edilməsi erməni millətçi ekstremistlərini bərk narahat edirdi. Çünki, bu şəxslərin uzun müddət həbsdə saxlanılması "erməni məsələsi"ni öz istiqamətini itirməsi və bununla da erməni hərəkatının əsas hərəkətverici "beyinlərin"in zərərsizləşdirilməsi ilə nəticələnə bilərdi. Odur ki, həmin tarixdən etibarən ermənilər aprelin 24-nü soyqırımı günü kimi qeyd edirlər. Təəssüflər olsun ki, zaman-zaman müxtəlif yollarla dünyanın aparıcı dövlətlərində özlərinə yaşamaq hüququ qazanan ermənilər həmin dövlətlərin məmurlarını, dövlət və iş adamlarını, icitmai siyasi xadimləri, alimləri, hökumət rəhbərlərini ciddi təsir və hətta təzyiq altına alaraq qondarma "erməni soyqırımı"na onları inandırmağa və parlamentlər tərəfindən qəbul etdirməyə çalışmış, bəzi hallarda isə hətta istəklərinə də belə nail ola bilmişlər.

Van vilayətində müsəlman əhalisinin vəhşicəsinə qətlə yetirilməsi xəbəri hökumət başçısı Ənvər Paşanı daha da hiddətləndirdi. 1915-ci ilin aprel ayının ortalarından başlayaraq təxminən iki aya qədər davam edən və xüsusilə dinc müsəlman əhalisinə qarşı amansız

işgəncələrin verilməsi ilə xarakterizə olunan Van üsyanının qarşısını almaq, eləcə də üsyançıların digər bölgələrə köçürülməsinin vacibliyini nəzərə alan Ənvər Paşa 2 may 1915-ci ildə Daxili İşlər Naziri Tələt Paşaya gizli teleqram yolladı. Məktubda Ənvər Paşa seçimin Tələt Paşanın ixtiyarına verdiyini bildirməklə yanaşı həmçinin bir sıra məsələlərlə bağlı öz fikir və tövsiyyələrini də qeyd etmişdir. Burada Ənvər Paşa xüsusi olaraq qeyd edirdi: “Van gölü ətrafında, eləcə də, Van vilayətində yaşayan ermənilər döyüşə hazır vəziyyətdədirlər. Onlar üsyanı davam etdirəcəklər. Aldığım məlumata görə ruslar 20 aprel 1915-ci ildə Rusiya ərazilərində məskən salan müsəlman türklərini Türkiyə ərazisinə qovublar. Rusiya hökumətinin atdığı bu addımı nəzərə alsaq cavab tədbiri kimi erməniləri ailələri ilə birgə Rusiya ərazisinə və yaxud da Anadolu daxilində müxtəlif yerlərə səpələmək lazımdır. Bu iki variantdan birini seçmənizi və icra etmənizi rica edirəm. Müvafiq bildiyiniz tədbiri qəbul edin və həyata keçirin. Köçürülən erməni ailələrinin yerinə xaricdən gələn müsəlmanları yerləşdirin (126, 105-106). Tələt Paşa Ənvər Paşanın bu təklifinə Bakanlar Kurulundan (Meclisi-Vükela)” qərar çıxarılmasını gözləmədən ermənilərin müharibə ocaqlarından imperiyanın cənub ərazilərinə köçürülməsini məqsədəuyğun hesab etdi və tək başına bu məsələnin məsuliyyətini öz üzərinə götürməş oldu. Köçürülmə siyasətinin ilk siqnalı olan bu göstəriş ilə Ənvər Paşa erməni üsyanlarının qarşısının alınmasına çalışırdı. Onun fikrincə, əgər ermənilər xırda-xırda birləşmələr şəklində ölkənin müx-

təlif yerlərinə dağıdılarsa o zaman üsyanlarında baş verməsi prosesi çətinləşəcəkdi (126, 66). Qısa müddətdə köçürüləcək bölgələrin adları açıqlanmış oldu. Belə ki, Tələt Paşa ilk olaraq Van, Bitlis və Ərzurum vilayətlərində yaşayan ermənilərin müharibə meydanından çıxarılması haqqında göstəriş verdi. Bu haqda türk tarixçisi Yusif Halaçaoğlu yazır: "Tələt Paşa 23 may 1915-ci il tarixdə IV Ordu Komandanlığına göndərdiyi raportda başqa vilayətlərə köçürüləcək ermənilər haqqında məlumat verməklə yanaşı boşaldılacaq ərazilərin adlarını da aşağıdakı şəkildə açıqlamış oldu:

1. Ərzurum, Van və Bitlis vilayətləri;

2. Hələb vilayətinin mərkəzi qəzası istisna olmaqla İskəndərun, Beylan (Beten), Cisri-Şuqur və Antakya qəzaları daxilindəki kənd və qəsəbələr;

3. Maraş şəhər mərkəzi istisna olmaqla Maraş sancağı;

4. Adana, Sis (kozan) və Mersin səhər mərkəzləri istisna olmaqla Adana, Mersin, Kozan və Cebeli-Bərəkət sancaqları (126, 67). İln öncə Ərzurum, Van və Bitlis vilayətlərindən çıxarılan ermənilər Mosul vilayətinin cənubuna, Zor sancağına, həmçinin mərkəzi istisna olmaqla Urfa sancağına yerləşdiriləcəkdi. Adana, Hələb, Maraş ərazilərindən köçürülən ermənilər isə Suriya vilayətinin Şərq hissəsi ilə Hələb vilayətinin şərq və cənub-şərqinə məxsus olan ərazilərdə yerləşdiriləcəkdi. Köçürülmənin gedişatı zamanı təhlükəsizliyin təmin edilməsi üçün Adana bölgəsinə Əli Seydi bəy, Hələb və Maraş bölgələrinə isə Həmid bəy təyin edildi (100, 40). Adlarını

qeyd etdiyimiz ərazilərdə erməni ailələri ya mövcud kənd və qəsəbələrdə, ya da hökumət tərəfindən müəyyənləşdirilmiş yerlərdə yeni salınacaq qəsəbələrdə yerləşdiriləcəkdi. Nəzərdə tutulmuş plana uyğun olaraq kənd və qəsəbələrin Bağdad dəmir yolu xəttindən ən azı 25 km. məsafədə salınması məqsədəuyğun hesab edilmişdi. Köçürülmənin bütün məsuliyyəti vilayət məmurlarının öhdəsinə buraxılmışdı. Müəyyənləşdirilmiş ərazilərə köçürülən ermənilərin istəklərinə uyğun olaraq onların əmlakı da özləri ilə birlikdə aparılırdı (126, 67-68).

Qeyd etmək lazımdır ki, köçürülmə siyasəti şərti olaraq iki mərhələdə həyata keçirildi. Van üsyanından başlayaraq köçürülmə qanununun imzalandığı 27 may tarixinə qədərki I mərhələ, 1915-ci ildən başlayaraq 1916-cı ilin fevral ayına qədərki II mərhələ. I mərhələ hökumətin çıxardığı qərara qədərki mərhələdir ki, Tələt Paşanın birbaşa razılığı əsasında həyata keçirilmiş və kütləvi hal almamışdır. II mərhələ isə hökumətin rəsmi qərarından sonrakı mərhələni təşkil edir ki, ermənilərin kütləvi şəkildə köçürülməsi də bu mərhələdə həyata keçirildi. Bununla bağlı Kamal Çiçək "Ermənilərin zorunlu köçü" adlı əsərində yazır: "Buna bənzər yeni bir əmrdə 23 may 1915-ci ildə Daxili İşlər Nazirliyindən Mosul vilayəti ilə yanaşı Urfa və Zor Mutassarrıflığına (inzibati ərazi bölgüsü-T.C) da göndərilmişdi. Burada Van, Bitlis və Ərzurumdan köçürülən ermənilərin Urfada və erməni yaşamayan ərazilərdə eləcə də, Mosulun cənubundakı kənd və qəsəbələrdə yerləşdirilməsi göstərilirdi (100, 40)". Bəzi erməni (Hovanesyan, Karac-

yan və s.) və Avropalı alimlərin fikirlərinə görə ermənilərin Suriya və Mesopotamiya ərazilərinə köçürülməsi nəticə etibarı ilə ermənilərin növbəti fəlakəti idi. Onlar bunu çöl və quraq iqlimlə əlaqələndirirdilər. Əslində bu ərazilərin tarixən bərəkətli, məhsuldar torpaq olması və ilk dövlətçilik ənənələrinin də bu ərazilərdə meydana gəlməsi adlarını çəkdiyimiz və adları hələ də bizə bəlli olmayan əcnəbi "alimlərin" fikirlərinin üstündən birdəfəlik xətt çəkir.

Hökumət köçürmə siyasətini çox ehtiyatla və düşünülmüş şəkildə həyata keçirirdi. Osmanlı arxiv sənədlərində də göründüyü kimi, hökumət "Köçürülmə haqqında" qanunda nəzərdə tutulan müddəaların ermənilərə çatdırılması üçün qabaqlayıcı tədbirlər planı işləyib hazırladı. Bu işlə məşğul olan şəxslər bunu ermənilərə müxtəlif vasitələrlə çatdırırdılar. Belə ki, ilk olaraq Trabzonda sürgün əmrini bildirən afişalar küçə və meydanlardan asıldı. Ərazilərdəki yerli təlimatçılar ermənilərə qərarın mahiyyətini anlatmağa çalışırdılar. Xüsusilə, onlar ermənilərə köçürülməyə rəsmən iki həftədən sonra start veriləcəyini bildirirdilər. Yalnız bəzi ərazilərin təhlükədə olduğu nəzərə alınmış və həmin ərazilərdə köçürülməyə daha tez başlanılmışdır. Türk tarixçisi Kamal Çiçək arxiv sənədlərinə əsaslanaraq yazır: "27 may 1915-ci ildə Ərzuruma göndərilən şifrəli teleqrafda bölgənin Rusiya sərhədlərinə yaxın olduğu nəzərə alınaraq bir erməni belə buraxılmamaq şərti ilə" bütün ermənilərin ölkə xaricinə köçürülməsi vurğulanırdı. Burada həmçinin Diyarbəkir, Harput və Sivas erməni-

lərinin hələlik köçürülməsinə lüzum və ehtiyac duyulmadığı göstərilirdi(100, 88-89). Qeyd etdiyimiz teleqrafın mətninə diqqətlə baxsaq burada köçürülmə üçün komitəçi olmayan sadə ermənilərə 15 gün vaxt verildiyini aşkar şəkildə görmək mümkündür. Hökumət bununla köçürülənlərin hazırlıq işlərini asanlaşdırmağa, qida azuqəsi toplamağa, həmçinin məişət əşyalarının siyahılaşdırılmasına şərait yaratmışdır. İlk öncə teleqramda açıq şəkildə bəzi ermənilərin təcili olaraq ölkə hüdudlarından kənara köçürülməsi qeyd edilirdi.

Qeyd etmək lazımdır ki, 26 may 1915-ci ildə Baş Komandan tərəfindən Daxili İşlər Nazirliyinə göndərilən raportda ermənilərin Şərqi və Cənub-Şərqi Anadolu vilayətlərindən çıxarılaraq Diyarbəkir vilayətinin cənubuna, Fərat çayı vadisinə və Urfa-Süleymaniyyə ərazilərinə yaxın olan bölgələrə köçürülməsi rəsmən təsdiqlənirdi. Hökumət yeni üsyan mərkəzlərinin yaranmasının qarşısını almaq üçün aşağıdakı qaydalara əməl etməyi vacib bilirdi:

A) Yeni yaşayış məntəqələrinə köçürülmüş erməni əhalisinin ümumi sayı yerli müsəlman əhalisinin 10%-dən çoxunu təşkil etməməlidir.

B) Erməni ailələri üçün salınmış yeni yaşayış evlərinin ümumi sayı 50-dən çox olmamalıdır;

C) Erməni ailələri səyahət və köç zamanı öz şəxsi evlərini digərləri ilə dəyişdirə bilməzdilər(137, 78).

Avropa dövlətləri Osmanlı imperiyasında ermənilərlə bağlı həyata keçirilən bir sıra köçürülmə tədbirlərində bir başa Tələt Paşa günahlandırılırdı. Mə-

sələnin bu şəkildə qiymətləndirilməsinə qarşı çıxan Tələt Paşa köçürülmə siyasətinin təkbaşına aparılmasının ağırlığını nəzərə alaraq hökumətin bununla bağlı rəsmi qərar çıxarılmasını vacib bildi. Nəticədə, 26 may 1915-ci ildə hökumətə dövlətlərin öz istəklərini gerçəkləşdirmək-dən ötrü Osmanlı təbəəsi olan ermənilər arasında nifaq toxumu səpdiklərini, eyni zamanda üsyançı ermənilərin düşmənə qarşı vuruşan türk ordusuna arxadan zərbə endirmələri, düşmənlə iş birliyi qurduqlarını, bir qismi-nin düşmən tərəfinə keçdiklərini, əsgərlərə və günahsız insanlara qarşı silahlı basqın etdiklərini, şəhər və qəsəbə-lərdə qarətçiliklə məşğul olduqlarını, düşmənin hərbi dəniz qüvvələrini ərzaq və digər yeyinti məhsulları ilə təmin etdiklərini, strateji və məxfi obyektlərin kordinat-larının düşmən tərəfə ötürülməsini açıqladıqdan sonra dövlətin təhlükəsizliyi naminə köklü tədbirlərə ehtiyac duyulduğunu və onun üçün müharibə meydanında üsyan törədən ermənilərin başqa bölgələrə köçürülməsi lehinə hökumət tərəfindən rəsmi qərar qəbul edilməsinin vacibliyini ifadə etməkdə idi (126, 69). Nəticədə, 27 may 1915-ci ildə Nazirlər Kabineti köçürülməni zəruri bilərək "Sefer zamanında hökumətin icraatına qarşı gələnlər üçün ordu tərəfindən alınacaq önlemler hakkında Geçici Kanun" başlıqlı qərar qəbul etdi. Qərarın mətni 1 iyun 1915-ci ildə Takvimi Vekayidə dərc edildi. Dörd mad-dədən ibarət olan "Köçürülmə haqqında" qanunun mətni aşağıdakı kimi idi:

Maddə 1. Səfərbərlik zamanı ordu, artileriya və diviziya komandanları və onların vəkilləri, müstəqil

bölgə komandaları xalqdan hökumətin əmrləri məmləkətin müdafiəsi və asayişin qorunması ilə əlaqəli icraat və hazırlıqlara qarşı hər hansı bir müxalifət, silahlı təcavüz və müqavimət görülərsə bu müxalifətləri ən şiddətli şəkildə söndürməyə məcburdur.

Maddə 2. Ordu, müstəqil artileriya və diviziya komandaları əsgəri səbəblərə görə və ya casusluq, xəyanətlərini hiss etdikləri kənd, qəsəbə əhalisini bir-bir və ya cəm halında digər bölgələrə köçürə bilər.

Maddə 3. Bu qanun imzalandığı gündən qüvvəyə minir.

Maddə 4. Qanuun icra edilməsində Baş Komandan vəkili və Hərbi Nazirlik birbaşa məsuliyyət daşıyır(98, 199).

Göründüyü kimi tarixşünaslığa "Köçürülmə haqqında" qanun kimi daxil edilən sənədin heç bir yerində erməni kəlməsi belə işlədilməmişdir. Bəzi qərb və erməni müəlliflərinin iddia etdikləri əsas məsələ də güya hökumətin çıxardığı qanunun bir başa ermənilərə şamil edilməsidir. Əslində qanunun birinci maddəsinə baxsaq görərik ki, erməni və qərb müəlliflərinin fikirləri sadəcə olaraq cəfəngiyyatdan başqa bir şey deyildir. Çünki, birinci maddədə dövlətin bütövlüyünə və təhlükəsizliyinə əngəl törədən milliyyətindən asılı olmayaraq bütün qüvvələr zərərsizləşdirilməli və yerlərini dəyişdirməlidir. İlk öncə hökumət ona qarşı əks mövqedə dayanan bütün qüvvələri zərərsizləşdirməyi qarşısına məqsəd qoymuşdu. Bu zaman yunanların və ərəb qəbilələrinin də digər ərazilərə köçürülməsi məhz bu qəbildən olan hadisə-

lərdəndir. Belə ki, köçürülmə zamanı Ərəbistan yarmadasından Anadolu bölgəsinə çoxlu sayda vəhabi ərəblərin köçürülməsi də bir daha bizlərə əsas verir ki, həqiqətən də köçürülmə (türkcə-tehcir) qanunun bir başa ermənilərə şamil edilməsi kökündən yanlış və absurt bir məsələdir. Bir şeyi qeyd etmək lazımdır ki, müharibə zamanı istənilən bir ölkənin vətəndaşlı əgər öz ölkəsinə xəyanət edib düşmən tərəfə keçirsə onda hökumətin atdığı addım bir mənalı olaraq həmin əhalini müharibə ocağından çıxarılaraq digər ucqar ərazilərə köçürülməsidir. Məhz Osmanlı hökumətinin atdığı bu addım ölkənin bütövlüyü və təhlükəsizliyinin qorunması baxımından təqdirəlayiq və alqışlanası bir haldır. Məhz belə bir hadisə eyni ilə Fransa, İngəltərə, ABŞ və ya Rusiyada baş versə idi şübhəsiz aidiyyatı ölkənin rəsmiləri də oxşar qərarlar çıxarmış olacaqdı.

1 iyun 1915-ci ildə Daxili İşlər Nazirliyi 30 may təlimatnaməsinə əlavə olaraq bəzi məsələlərin yerinə yetirilməsi barədə qərar qəbul etdi. Bu barədə ingilis tarixçisi Selahi Sonyel yazırdı: "Hökumət başqa bölgələrə köçürüləcək ermənilərin özləri ilə apara bilmədikləri mal-qaranın silahlı qüvvələr tərəfindən saxlanılması, həmçinin müəyyənləşdirilmiş ərazilərdə yerləşdirilən əhalinin müharibə qurtarana qədər öz yerlərini ticarət və digər məqsədlərlə dəyişdirilməməsini təmin edən tədbirlərin həyata keçirilməsi barədə göstəriş verdi(114, 25). Bununla yanaşı, elə həmin gün Daxili işlər Nazirliyi daha bir qərar qəbul etdi. Qərarda əsasən köçürülmə ilə əlaqədar hazırlanmış təlimatlarda bəzi nöqsanlara yol

verildiyi və bu kimi halların tezliklə aradan qaldırılması məsələləri öz əksini tapdı. Burada hansı nöqsanlara yol verildiyi barədə türk tarixçisi Kamuran Gürün yazır: "Komitələrə rəhbərlik edən günahkar ermənilərin tutularaq hökumətə təhvil verilməsi əvəzinə bəzi yerlərdə yanlış olaraq günahı olmayan, amma gözə görünən ermənilərin həbsi və yaşadıqları yerlərdən çıxarılaraq digər qonşu ərazilərə köçürülməsi kimi hallar baş vermişdir(98, 219). Digər tərəfdən hökumət 2 iyul 1915-ci ildə az sayda Osmanlı ordusunda xidmət edən erməni əsgərlərinin barəsində də qərar qəbul etdi. Qərarda erməni əsgərlərinin ön cəbhədən alınaraq arxa cəbhəyə göndərilməsi ilə yanaşı, eyni zamanda döyüş bölgəsində xidmət edən erməni əsgərlərinin də İraqa göndərilməsi və s. məsələlər öz əksini tapmışdır.

Osmanlı dövləti köçürülən ermənilərin yaşadığı ərazilərə ciddi nəzarətin tətbiq edilməsi barədə qərar qəbul etdi. Daxili İşlər Nazirliyinin 9-10 iyun tarixli qərarı ilə ermənilərin əmlakı hökumət tərəfindən müəyyən edilmiş məmurların ixtiyarına verildi. Belə ki, qərara əsasən "Erməni Metruke Komissiyonu" (Tərk edilmiş Mallar Komissiyası) yaradıldı. Qərara görə, Komissiyanın tərkibi bir nazir və iki rəsmi şəxsdən ibarət olmalı idi. Onlardan biri Daxili İşlər, digərləri isə Maliyyə Nazirliyi tərəfindən təyin edilmişdi. Komissiya 10 iyun 1915-ci ildə 34 maddədən ibarət "Müharibə və siyasi hadisələrə görə başqa yerlərə köçürülən ermənilərə aid mülk və ərazinin idarə edilməsi haqqında tövsiyələr" adlı sənəd işləyib hazırladı. Biz bu maddələrin hər birinə ayrı-ayrılıqda

toxunmasaqda ümumilikdə bəzi məsələlərə diqqət yetirməyimiz daha vacibdir. Burada komissiyanın üzərinə düşən məsələlər tam təfərrüatı ilə işıqlandırılır. Məsələn, komissiya boşaldılan kənd və qəsəbələrdə ermənilərə məxsus daşınan və daşınmaz əmlakı siyahıya almaq üçün xüsusi dəftərlər tutmalı, dəftərlərdən biri məhəlli kilsələrdə qorunmalı, biri məhəlli idarəyə verilməli, digəri də komissiyada qalmalı idi. Komissiya tərəfindən müəyyən edilmiş əşya və mal-qaranın sayı artırılmaqla açıq satışa çıxarılmalı və dəyəri qorunmalıdır. Komissiyanın gedə bilmədiyi yerlərdə isə bu işi yerli idarəçilər yerinə yetirməli idi. Əmlakın ermənilərin yenidən öz əvvəlki yerlərinə qayıtmasına qədər qorunmasında həm komissiya, həm də yerli idarəçilər məsuliyyat daşımalı idilər. Türk tarixçisi Kamal Çiçək yazır ki, "Tərkedilmiş Mallar Komissiyasının yaradılması qərarı Amerikalı diplomatlar tərəfindən də müsbət qarşılandı(100, 62)".

Beləliklə, hökumət tərəfindən 27 may 1915-ci ildə köçürülməyə rəsmi icazə verildikdən sonra köçürülmənin II mərhələsinə start verildi. Amma hökumət bu işə rəsmi olaraq 3 gün sonra 30 may Təlimatnaməsinin işlənib hazırlanmasından sonra başladı. Arxiv materiallarından da göründüyü kimi ilk öncə Tələt Paşa tərəfindən hazırlanaraq həyata keçirilən və daha sonralar Meclisi-Vükelanın da məsləhət bildiyi köçürülmə siyasəti ilk öncə müharibə gedən bölgələrdə həyata keçirilməkdə idi. Bunlardan birincisi, Qafqaz və İran cəbhəsinin Qərb sərhədlərinə yaxın olan Ərzurum, Van və Bitlis əraziləri, ikincisi isə Sinay cəbhəsinin cənub ətraflarını əhatə edən Mersin-

İskəndərun bölgələri idi. Adları köçürülmə siyahısına daxil edilmiş vilayətlərin erməni əhalisi mərkəz hesab edilən Konya, Diyarbəkir, Cizrə, Biləcik və Hələb kimi ərazilərə toplaşmağa başladılar. Yolların uzunluğu və qış mövsümünün olduqca sərt keçməsi ilə əlaqədar olaraq əhalinin qısa yollarla köçürülməsi məqsədəuyğun hesab edildi. Beləliklə, Kayseri və Samsuna toplaşmış ermənilər Malatya yolundan, Sivas, Mamuratülaziz (Elazığ), Ərzurum və digər ərazilərdən köçürülənlər isə Diyarbəkir-Cizrə yolundan istifadə etməklə Mosulda yerləşdirildi. Bu barədə Yusuf Halaçoğlu yazır: "Şərqi Anadoludan köçürülən ermənilər isə Kutahya – Qarahisar - Konya – Qaraman - Tarsusdan keçməklə Qars-Maraş-Bazarcıq yolu ilə Zor sancağına köçürülmüşlər" (126, 129).

29 avqust 1915-ci ildə hökumətin bir sıra vilayət və mütasarrıflıqlara göndərdiyi şifrəli teleqrafda köçürülmənin məqsəd və qayəsi bu şəkildə izah edilirdi: "Ermənilərin yaşadığı yerlərdən çıxarılaraq təyin edilən ərazilərə köçürülməsində hökumətin əsas qayəsi dövlət əleyhinə antitürk təbliğatı aparılması və müstəqil Ermənistan dövlətinin yaradılması ehtimalını aradan qaldırmaq idi (120, 28)".

Ayrılmış ərazilərin məhdudluğunu nəzərə alan hökumət düşərgələrin genişləndirilməsi ilə bağlı qərar qəbul etdi. 1915-ci il 5 iyulda hökumətin bir sıra vilayət və mütasarıflıqlara göndərdiyi məktubda aşağıdakı ərazilərin ayrıldığı barədə məlumat yer almaqda idi.

1. Kərkük sancağının İranla 80 km. məsafədə yerləşən kənd və qəsəbələr daxil olmaqla Mosul vilayətinin şərq və cənub bölgəsi;

2. Diyarbəkir vilayətindən 25 km. daxildə Xabur və Fərat çayları vadisindəki yaşayış məskənləri daxil olmaqla Zor sancağının şərqi və cənubu;

3. Hələb vilayətinin şimal əraziləri istisna olmaqla şərq, cənub və cənub-şərqində yerləşən kənd və qəsəbələrlə Suriya vilayətinin Havran və Kereksancaqları daxil olmaqla dəmir yolu xəttindən 25 km. məsafədə salınan kənd və qəsəbələrdə ümumi əhalinin 10%-i nisbətində köçürüləcəkdir(126, 74).

Köçürülmə tarixi ayrı-ayrı ərazilərdə müxtəlif vaxtlarda başlanmışdır. Məsələn: köçürülməyə Bayburtda 1 iyunda, Eriznədə 8 iyunda, Kayseridə 9 iyunda, Sivas vilayətində 14 iyunda, Sisdə 17 iyunda, Merzifonda 28 iyunda start verildi. Yozqartda isə ilk köçürülmə əmri 18 iyulda verilsədə, köçürülməyə 3 gün sonra başlanmışdır. Digər ərazilərdə olduğu kimi burada da komitəçi ermənilər daha tez 18-21 iyul tarixlərində köçürülmüşlər

Köçürülmə zamanı əsas nəqliyyat vasitələri kimi dəmir yolu və su nəqliyyatından istifadə edilmişdir. Xüsusilə, Şərqi Anadoludan köçürülən erməni əhalisi dəmiryolu vasitəsilə köçürülmüdür. Bununla yanaşı, alternativ nəqliyyat vasitələrindən də istifadə edilmişdir. Qış mövsümünün olduqca sərt keçməsinə baxmayaraq, əhalinin əksəriyyəti vaqonlardan, dəvə karvanlarından və öküz arabalarından istifadə etməklə müəyyənləşdirilmiş vaxtdan gec də olsa yerlərinə çatmışlar. Hətta bir sıra

arxiv materiallarından aldığımız məlumatlara görə III Orduya ərzaq daşıyan 600 arabadan 510-nun ermənilərin daşınması üçün istifadəyə verilməsi də qeydə alınmışdır (34, 61). Bununla yanaşı əhalinin Dəclə çayından keçirilməsi üçün çoxlu sayda qayıqlardan da istifadə edilmişdir. Ümumiyyətlə, 1915-ci ilin may ayının sonlarından başlayaraq, 1916-cı ilin 16 fevralınadək davam etmiş və ümumilikdə 9 ay müddəti ərzində hökumət erməni köçkünlərinin işini asanlaşdırmaq üçün istənilən vasitələrə əl atmışdır. Bütün təhlükəsizlik tədbirlərinin görülməsi ilə yanaşı, eyni zamanda ərzaq, geyim və nəqliyyat vasitələri ilə təmin olunma sahəsində Valiliklər İskanı-Aşair və Mühacirin müdiriyyəti ilə birgə fəaliyyət göstərirdilər. Büdcədən 1915-ci il köçürülmələri üçün Konyaya 400 min, İzmitə 150 min, Əskişəhərə 200 min, Adanaya 300 min, Hələbə 300 min, Mosula 500 min lari olmaqla, cəmi 2.250.000 lari vəsait ayrılmışdır (126, 66-67). Türk tarixçisi Kamuran Gürün isə növbəti illərdə bu vəsaitin xeyli artırıldığı barədə yazır: "Bəhs olunan dövrdə 702.900 nəfərə qədər əhalinin köçürülməsi üçün ilkin olaraq  25 milyon lari xərclənmişdir. Müəllif 1916-cı ilin oktyabr ayının sonuna qədər 86 mln. lari xərcləndiyini qeyd etməklə ilin sonuna qədər, bu məbləğin 150 mln. lariyə çatdığını qeyd etmişdir (98, 223). Gündəlik məsələlər üçün hansı miqdarda vəsaitin ayrılması barəsində məlumatlara da arxiv materiallarından rast gəlmək mümkündür. Burada ermənilərlə yanaşı, yunanlara da eyni məbləğdə, yəni böyüklər üçün 3 lari, kiçiklər üçün 60 para məbləğində vəsaitin ayrıldığı qeyd

edilirdi. Bununla yanaşı hökumət daha bir humanist addım ataraq köçürülən ermənilərin vergi borlarını da ləğv etmişdi. Təkcə bünü nəzərə alsaq bəhs olunan dövrdə büdcəyə külli miqdarda ziyan dəydiyini görmək mümkündür. Dəymiş ziyanı nəzərə almasaq, köçürülmə ən qısa zamanda başa çatdırılmış və 9 ay ərzində 702. 900 nəfərə qədər qeyri-türk millətinin yeri dəyişdirilmiş, ümumilikdə plan müvəffəqiyyətlə yerinə yetirilmişdir. Köçürülmə zamanı meydana gələn xırda-para nöqsanları nəzərə almasaq, ümumilikdə hökumət bu işin öhdəsindən layiqincə və çox ustalıqla gələ bilmişdir. Bunu bir sıra Avropa və Amrekalı müəlliflərin əsərlərindən də açıq-aydın görmək mümkündür. Bu haqda Osmanlı III Ordusunun komandanı olmuş Feliks Güsenin fikirləri olduqca maraqlıdır. O, yazırdı: "Məcburi köçürülmə zamanı əlbəttə ermənilər bir çox təzyiqlərlə qarşılaşmışlar. Ancaq Osmanlı hökuməti köçürülmə zamanı gözlənilən təhlükələrə qarşı qabaqlayıcı tədbirlər planı işləyib hazırlamışdı. Şübhə yoxdur ki, həyata keçirilən tədbirlərə baxmayaraq, bir çox insan istənilmədən belə köç zamanı tələf olmuşdur. Fəqət bu gün Qərb mətbuatı ermənilərin şikayəti əsasında ermənilərin guya 1915-ci il hadisələri zamanı kütləvi qırğına məruz qaldığı haqqında məlumatlar yaymaqdadır. Bütün bu yalanlara inanmaq və doğruluğunu qəbul etmək çox yanlış bir addımdır (121, 57)". Əlbəttə müharibənin törətdiyi fəsadlar, eyni zamanda həmin dövrdə Rusiya ərazisindən bir milyona yaxın türkün Türkiyə ərazisinə qovulması, Şərqi Anadolu bölgəsinin nəzarətdən çıxması ilə yanaşı hökumətin

köçürülmə işini qısa zamanda başa çatdırmaq istəyi nəticədə çoxlu sayda itkilərin verilməsi ilə nəticələnmişdir. Həmin dövrdə aclıq və xəstəlik üzündən 25-30 min nəfərə qədər erməni də tələf olmuşdur(126, 78)".

Hökumət cinayətkar dəstələrin cəzalandırılması üçün Məhkəmə İstintaq bölməsinin yaradılması barədə qərar qəbul etdi. Müxtəlif qruplardan təşkil olunmuş komissiyaya Asmi bəyin rəhbərliyi altında I heyət Adana, Hələb, Suriya, Urfa, Zor və Maraş bölgələrinə; Hulusi bəyin rəhbərliyi altında yaradılmış II heyyət Hudavendigar, Ankara, İzmit, Karesi, Kütahya, Əskişəhər, Kayseri, Qarahisarı-Sahib və Niğdə bölgələrinə; Bitlisin keçmiş valisi Mazhar bəyin rəhbərliyi altında yaradılmış III heyət isə Sivas, Trabzon, Ərzurum, Mamuratülaziz (Elazığ), Diyarbəkir, Bitlis, Canik bölgələrinə göndərildilər (43, 36). Hökumətin heyətlərə verdiyi təlimatların nələrdən ibarət olduğu barəsində Y.Halaçoğlu yazır: "Heyətlərə verilən tədlimatlara görə jandarma, polis, məmur və digər vəzifəli şəxslər barəsində aparılan istintaq zamanı ortaya çıxan oxşarlıqlar qeydə alınmalı və bütün sənədlər Divani-Hərbə göndərilməlidir. Divani-Hərbə göndərilən sənədlərdən bir nüsxəsi də DİN-ə göndərilməlidir. Vali və kaymakamlar barəsində aparılan təhqiqatın materiallarında cinayət motivli əməllər sübuta yetirilərsə bu barədə raport hazırlanaraq çıxarılmış məhkəmə qərarı ilə cəzalandırılmalı idilər. Divani-Hərbdə çalışan məmurlar arasında da hər hansı bir xoşagəlməz hadisə baş verərdisə bu zaman aidiyyatı qurumlara bu barədə məlumat verilməli idi (126, 81).

Məhkəmə İstintaq Orqanlarının hazırladığı raportlar da xüsusilə vəzifəsindən sui-istifadə edərək erməni köçkünlərindən pul və qiymətli zinət əşyalarının toplanması, təhlükəsizlik tədbirlərinə vaxtında əməl edilməməsi nəticəsində silahlı birləşmələrin davamlı hücumları, köçürülmə əmrinə qarşı ciddi şəkildə mübarizə aparan, bu və ya digər arzuolunmaz hadisələrdə birbaşa əli olan şəxslərin tutduqları vəzifələrdən azad edilməsi barədə faktlar yer almaqda idi.

Məlum olduğu kimi, 1915-ci ilin may ayında hökumətin ermənilərin imperiyanın cənub ərazilərinə köçürülməsi ilə bağlı qəbul etdiyi qərar bütün ermənilərə şamil edilmədi. Bu barədə Eriq Fayql yazır: "Köçürülmə qərarı bütün ermənilərə şamil edilmədi. Köçürülmənin ilk aylarında bəzi bölgələrdə (Urfa, Germiş, Biləcik, Ərzurum, Aydın, Trabzon, Ədirnə, Canik, Adabazarı, Hələb, Bolu, Kastamonu, Temirdağ, Konya və Qarahisarı-Sahib) yaşayan ermənilərin bir hissəsi köçürülmədən kənarda qalmışdır. Fəqət daha sonra bunların da müxtəlif olaylarla qarşılaşmaları səbəbi ilə böyük bir hissəsi köçürüldü (130, 82)". Ümumiyyətlə, bəhs olunan dövrdə köçürülmə qərarının kimsəsiz uşaqlara, sənətkar və tacirlərə, dövlət işlərində çalışan məmurlara və dini məzhəbindən asılı olmayaraq katolik və protestant ermənilərə şamil edilməməsi bir daha türk hökumətinin humanizmindən xəbər verirdi. Bununla əlaqədar, hökumət 30 aprel 1916-cı ildə qərar qəbul etdi. Dörd maddədən ibarət qərarda aşağıdakı məsələlərə toxunulurdu:

a) ailə başçısını itirmiş və ya köçürülmüş, həmçinin ailə üzvlərindən hərbi xidmətdə olan kimsəsiz ermənilərin erməni və əcnəbi yaşamayan kənd və qəsəbələrdə yerləşdirilərək iaşə xərclərinin dövlət tərəfindən tənzimlənməsi;

b) 12 yaşına çatmış uşaqların bölgələrdəki uşaq evlərinə verilməsi və yerdə qalanların varlı müsəlman ailələrinə verilərək böyüdülməsi;

c) maddi baxımdan elədə imkanı olmayan müsəlman ailələrinə verilmiş erməni uşaqlarının iaşə xərclərinin tənzimlənməsi üçün Mühacirin Təhsisatından gündəlik 30 lari ödənilməsi;

d) Gənc və dul qadınların arzu və istəkləri ilə müsəlman kişilərlə ailə qurmalırına icazə verilməsi (45, 201).

İlk ncə kimsəsiz uşaqların köçürülməməsi ilə bağlı hökumət xüsusi olaraq tədbirlər planı işləyib hazırladı. Burada əsasən kimsəsiz uşaqların yerləşdirilməsi üçün yeni inzibati binaların ayrılması və nə qədər uşağın burada yerləşdirilməsi məsələləri qeyd edilirdi. Bu barədə 26 iyun 1915-ci ildə Maarif Nazirliyindən Diyarbəkir, Adana, Trabzon, Sivas, Bitlis, Van və digər vilayətlərə göndərilən teleqrafda da kimsəsiz uşaqların uşaq evlərinə yerləşdirilməsi üçün yeni bina ayrılması məsələsi qeyd edilirdi.

Hökumət kimsəsiz erməni uşaqları ilə yanaşı dövlət işlərində çalışan bəzi erməni məmurlarına da toxunmamışdı. Bunlardan İstanbul xəstəxanasının fotoqrafı Papazyanı, keçmiş deputat Aqop Boyacıyan, Adana

Osmanlı bankının işçilərindən Edvard Simkiyanı, Manok Sarrafyanı və Aqop Çağayanı ilə Serkis Kikiyanı qeyd etmək olar. 15 mart 1916-cı ildə DİN-dən bəzi vilayət və mutassarrıflıqlara göndərilən teleqrafda bundan sonra idarə və müəssisələrdə çalışan və erməni komitəçiləri ilə heç bir əlaqəsi olmadığı müəyyənləşdirilən şəxslərin (əsgər, zabit və səhiyyə sistemində çalışanlar, millət vəkilləri və onların ailə üzvləri) köçürülmədən kənarda qaldıqları qeyd edilirdi.

Qeyd edək ki, köçürülmə qərarına əlavə olaraq 30 may tarixində hazırlanan təlimatnamədə katolik və protestant ermənilərin də köçürüləcəyindən məyus olan Alman və Amerika səfirliklərinin təzyiqləri nəticəsində onların köçürülməsi arxa plana keçdi. Katolik və protestant ermənilərlə yanaşı qriqoryan ermənilərə də toxunulmamışdı. Bununla bağlı DİN-dən Ərzurum vilayətinə 17 iyun 1915-ci ildə, həmçinin 4 avqust 1915-ci ildə Adana, Ankara, Bitlis, Hələb, Diyarbəkir, Sivas, Trabzon, Elazığ, Van Vilayətləri ilə yanaşı, Urfa, Canik, Maraş mütasarrıflıqlara göndərilən teleqrafda adı çəkilən 13 vilayətdə yaşayan ermənilərin köçürülməsi barədə məlumat yer almaqdadır. Katolik ermənilərin köçürülməsinin qarşısının alınmasından 11 gün sonra protestant ermənilərin də köçürülməməsi haqqında qanun qəbul edildi. Bununla da protestant ermənilərin köçürülməsinin qarşısı alınmış oldu. Görkəmli ABŞ tarixçisi Jastin Makkartinin hesablamalarına görə 1922-ci ildə Türkiyə Cümhuriyyətində təxminən 140 min ermənininin qaldığını bildirmişdir. 1927-ci ildə Türkiyədə əhalinin ilk siyahıya

alınması zamanı ölkədə 77433 nəfər qriqoryan, 6658 nəfər protestant və nəhayət, 34000 nəfər katolik erməninin qaldığı bəlli olmuşdu(95, 126). Köçürülmədən kənarda qalanlar arasında ticarət və sənətkarlıqla məşğul olan ermənilərə rast gəlmək mümkündür. Dövlətin iqitsadi inkişafının yüksəldilməsini nəzərə alan hökumət 8 iyun 1915-ci ildə şifrəli teleqramla tacir və sənətkarların köçürülməməsi barədə də qərar qəbul etdi. Köçürülmə zamanı meydana çıxan ən problemli məsələ köçürülənlərin əmlakının qorunması ilə bağlı olmuşdur. Problemin tezliklə həll edilməsi üçün hökumət 10 iyun 1915-ci ildə "Köçürülənlərin əmlakının qorunması haqqında təlimatnamə" adlı sənəd hazırladı. Təlimatnaməyə görə istifadə müddəti başa çatmış əşyalarla yanaşı əhalinin mal-qarası və ya artıq istifadəsi mümkün olmayan emalatxanalar komissiyalar tərəfindən açıq satışa çıxarılaraq satılmalı və pulları sahiblərinə göndərilməlidir. Qeyd edək ki, satılan əmlakın ümumi dəyəri Əmvali-Metruke komissiyaları vasitəsilə sahiblərinə çatdırılırdı.

Bəhs olunan dövrdə köçdən qurtulmaq üçün hətta bəzi ermənilər din dəyişdirmək kimi çirkin əməllərə əl atmışdılar. 1 iyul 1915-ci ildə DİN-dən bir sıra vilayətlər və mutasarrıflıqlara göndərilmiş teleqrafda köçürülən ermənilərin bəzilərinin toplu və ya fərdi halda öz istək və arzuları ilə əvvəlki yaşayış yerlərində qalmalarına icazə verilsədə hökumət islam dinini qəbul etmiş bu insanlardan daima ehtiyatlı olmalarını məsləhət bilmişdir. Osmanlı təbəsi olan 17-55 yaşları arasında (2 avqust 1915-ci ildən etibarən yaşı 60-a çatanlara da şamil edildi) olan

kişi cinsinə mənsub ermənilərin ölkə sərhədlərindən xaricə çıxmalarına icazə verilmədi. Əcnəbi dövlətlərin vətəndaşı olan ermənilərə isə müharibə bitənə qədər ölkəyə geri dönməmək şərti ilə Osmanlı ölkəsindən ayrılmalarına icazə verildi. Kənardan Osmanlı sərhədlərini aşaraq ölkənin içərilərinə doğru hərəkət etmiş ermənilərə isə hansı ölkə vətəndaşı olmasından asılı olmayaraq ölkəni tərk etmək tapşırığı verilmişdir. Köçürülən ermənilərin əl atdıqları hiylələrdən biri də özlərini guya əcnəbi dövlətin vətəndaşı kimi təqdim etmələri idi. Köç zamanı bu kimi xoşagəlməz hallar çoxlu sayda problemlər yaratmışdı. 8 iyun 1915-ci ildə DİN-dən Mameratülaziz vilayətlərinə göndərilən teleqrafda hətta Amerika vətəndaşlığını qəbul etmiş ermənilərin köçürülməsinin dayandırılması tələb edilmişdir. Arxiv sənədlərindən göründüyü kimi hətta bəzi ölkələrin konsulları imperiyanın ərazilərini qarış-qarış gəzərək yalan məlumatları ölkələrinə göndərirdilər. Məhz bununla əlaqədar olaraq hökumətin 12 sentyabr 1915-ci ildə vilayətlərə göndəriyi şifrəli teleqrafda əcnəbilərin ölkənin imicinə vura biləcək çirkin əməllərə qarşı ciddi ölçülərin götürülməsi tələb edilirdi.

Beləliklə, 9 ay ərzində davam etmiş köçürülmə prosesi müharibənin şiddətli vaxtlarında müxtəlif səbəblərdən müvəqqəti olaraq dayandırıldı. Hökumət 21 fevral 1916-cı ildə bütün vilayətlərə köçürülmənin başa çatması haqqında məktub göndərdi. 15 mart 1916-cı ildə hökumətin yeni qanunda bütün vilayətlərə və sancaqlara köçürülmənin qəti olaraq başa çatdığını və bundan sonra

hər hansı bir səbəbdən əhalinin köçürülməsinə izn verilməyəcəyi barədə məlumatlar yer almaqda idi.

Nəticədə, I dünya müharibəsinin şiddətli vaxtlarında hökumətin güclü iradə nümayiş etdirərək Osmanlı təbəəsi olan ermənilərin imperiyanın cənub ərazilərinə köçürülməsini müvəffəqiyyətlə yerinə yetirmiş oldu.

## 2.3. I Dünya müharibəsinin başa çatması. Köçürülmüş ermənilərin geri dönməsi haqqında "Geri dönüş qanunnaməsi"nin imzalanması və həyata keçirilməsi

XX əsrin I rübündə Osmanlı imperiyasına məxsus ərazilərin Antanta blokuna daxil olan Rusiya, Fransa və İngiltərə dövlətləri arasında bölüşdürülməsi məsələsi mütəmadi olaraq iki tərəfli və ya üç tərəfli danışıqlarda əsas müzakirə predmetinə çevrildi. Görüşlər hətta birinci dünya müharibəsinin ən şiddətli vaxtlarında belə davam etdirildi. Müzakirələrdə başlıca olaraq Osmanlı imperiyasına məxsus ərazilərin imperialist dövlətlər arasında bölüşdürülməsi və ümumi prinsiplər əsasında idarə edilməsi kimi məsələlər barəsində fikir mübadiləsi aparıldı. Belə ki, ayrı-ayrılıqda hər bir dövlət milli maraqları üstün tutaraq əsas strateji məntəqələrdə möhkəmlənməyə can atırdı. İlk öncə Rusiya bəyanatla çıxış edərək Şərqi Anadolu vilayətində və eyni zamanda, Kilikiya bölgəsində möhkəmlənmək istəyində israrlı olduğunu bəyan etdi. Öz növbəsində Fransa da Kilikiya bölgəsinə olan maraqlarını gizlətməkdən belə çəkinmirdi. İngiltərə isə birmənalı olaraq Şimali Mesopotomiyada möhkəmlənməyə can atırdı. Belə olan halda, hər üç dövlət ümumi razılığın əldə edilməsi üçün rəsmi danışıqlara başladılar. 1915-ci ilin mart ayında ingilis-rus, 1916-cı ilin 3 yanvarında ingilis-fransız, 1916-cı ilin 26 aprelində fransız-rus və 1916-cı ilin may ayında ingilis-rus danışıqlarında bir sıra mübahisəli məsələlər barəsində ümumi razılıq

əldə edildi. İlk belə razılaşma 1915-ci ilin əvvəlində İstanbulda təşkil olunmuş toplantıda qərara alındı. Nəticədə, Çar Rusiyası Kilikiya bölgəsinin Fransaya verilməsinə razılıq verməklə yanaşı, həmçinin Fransa da öz növbəsində Şərqi Anadolu bölgəsində Rusiyanın mövqeyini tanımış oldu. Bundan sonra müttəfiq dövlətlər İtaliyanı da ittifaqlarına cəlb edərək 26 aprel 1915-ci ildə imzaladıqları London müqaviləsi ilə İtaliyaya Osmanlı İmperiyasına məxsus ərazilərdən pay verəcəklərini vəd etdilər. Osmanlı imperiyasının şərq əraziləri çar Rusiyası tərəfindən işğal edildiyindən İtaliyaya Antaliya ərazisi təklif edildi. Lakin İtaliya Antaliya ərazisi ilə yanaşı Aydın vilayətini də tələb etdikdə Rusiyanın narazılığı ilə qarşılaşdı. Yaranmış gərginliyin aradan qaldırılması üçün Rusiya Aydın vilayətinin Yunanıstana verilməsi təklifi ilə çıxış etdi. İtaliya isə bu təklifə rəsmi narazılığını bildirmədi. Bununla da hər iki dövlət arasında münasibətlər isti məcraya yönəldi. Lakin dövlətlər arasındakı münasibətlərdə bir sıra problemlər hələ də qalmaqda idi. Belə ki, imperiyanın bölüşdürülməsi ilə bağlı danışıqlır Fransanın Beyrutdakı konsulu Jorj Piko, İngiltərənin Şərq üzrə eksperti Mark Saysk və Rusiyanın Xarici İşlər Naziri Sazanov tərəfindən aparıldığından bu müqavilə tarixşünaslığa Saysk-Piko müqaviləsi kimi daxil oldu (19, 53). 1915-ci il mart ayının 12-də baş tutmuş birinci görüşdə İstanbulun və Qara Dəniz boğazlarının Rusiyaya verilməsi məsələsi barəsində fikir mübadiləsi aparıldı. 1916-cı ilin yanvarın 3-də təşkil olunmuş növləti görüşdə müzakirə edilmiş məsələlər barəsində tarixçi Kamuran Gürün

yazır: "Rusiya İngiltərə ilə Fransa arasındakı anlaşmanı qəbul edir, özu də Ərzurum, Trabzon, Van və Bitlis vilayətlərini, Trabzonun şərqində, Qara dənizin sahillərində seçilərək bir məntəqəyə qədər olan əraziləri alır. Ayrıca Muş, Siirt, Dəclə vadisi Rusiyaya verilir, Rusiyada buna qarşılıq olaraq Aladağ və Kayseri, Ulduzdağ və Zara, Egin, Harput arasındakı yerlərin Fransaya məxsusluğunu qəbul edirdi (98, 230). Tarixçi Bəxtiyar Nəcəfov "Düşmənin üç üzü" adlı əsərində isə Saysk-Piko müqaviləsinin Osmanlı imperiyasına vurduğu zərərlər barəsində yazır: "Mahiyyət baxımından Saysk-Piko sazişi Türkiyənin parçalanmasına olan açıq-aşkar yırtıcı imperialist sənəddən başqa bir şey deyildi(4, II cild, 6)".

1916-cı ilin aprelin 26-da Osmanlı imperiyasının mühüm strateji bölgəsi olan Şərqi Anadolu bölgəsinin Fransa ilə Rusiya arasında bölüşdürülməsi üçün danışıqlar prosesi davam etdirildi. Nəticədə, hər iki ölkə yekunda ümumi razılığa gələ bildi. Belə ki, hər iki ölkə Ərzurum, Trabzon, Van, Bitlis, Muş, Siirt, Kayseri ərazilərinin bölünməsi barədə razılığa gəldilər.

Artıq 1916-cı ilin sonlarında hərbi əməliyyatlar bütün cəbhələrdə nisbətən səngiməyə başladı. Bu barədə Bəxtiyar Nəcəfov yazır: "1916-cı ilin axırlarında vəziyyət bütün cəbhələrdə nisbətən sabitləşdi: müharibə mövqe xarakteri daşımağa başladı. Səngər xətləri Avropanı kəsib doğradı və səbatsız müvazinətdə dayanıb qaldı. Cənubi Qafqaz cəbhəsində də vəziyyət belə idi. Burada quru qoşunları bir sıra uğurlu hücum əməliyyatlardan sonra Trabzon-Ərzincan-Ognot-Muş-Bitlis xəttindən qərbdə,

cənub-qərbdə mövqe tutdular və bundan irəli getmədilər (4, II cild, 5-6)". Artıq uzun sürən hərbi əməliyyatlardan yorulmuş rus əsgərləri Şərqi Anadolu torpaqlarını tərk etmək məcburiyyətində qalmışdı. Belə olan halda rus ordusunda qarışıqlıq və pozuculuq halları durmadan artmağa başladı. Ordunun nəzarətdən çıxmasından yararlanan erməni-rus əsgərləri dinc müsəlman əhalisinə amansız işgəncələr verməklə öz mənfur missiyalarını davam etdirməkdə idilər. Bu barədə Bəxtiyar Nəcəfov yazır: "İndi onların törətdikləri vəhşiliklər cəzasız qalırdı. Rus zabitlərinin olmaması onların əl-qolunu açmışdı (4, II 7). Bununla əlaqədar Vehib Paşa general Odişelidzeyə və Prjevalskiyə şikayətlə müraciət etdi. Müraciətdə bildirildi ki, ermənilər ələ keçirdikləri ərazilərdə dinc türk əhalisinə vəhşicəsinə divan tutur, hətta onları yandırırdılar (4, II cild, 8-9)".

1916-cı ilin noyabr-dekabr aylarında rus ordusunun həyata keçirdiyi hücum əməliyyatları uğursuzluqla nəticələndi. Sərt iqlim şəraitinə malik Anadolu ərazilərində hərbi əməliyyatların aparılmasının çətinliyi, yorucu müharibə, iqtisadi böhran nəticəsində rus ordusu bir sıra problemlərlə qarşılaşmışdı. Belə olan halda işğal edilmiş türk torpaqlarının azad edilməsi üçün əlverişli məqam yetişmişdi. Lakin Türkiyənin ali baş komandanı Fariq Vehib Paşa hücum üçün əlverişli məqamdan istifadə etmədi, əksinə hərbi nazir Ənvər Paşanın adından gürcü komandanı general Odişelidzeyə ədalətli sülh konfransında iştirak etmək üçün danışıqlara başlamağı təklif etdi(29, 35). Sülh istəklərinin getdikcə artmasına

baxmayaraq, bu fikrə qarşı rus hökuməti, əhali və ordunun fikri bir deyildi. Kiyevdə təşkil olunmuş toplantıda rus ordusu generalları artıq müharibəyə son qoyulmasının tərəfdarı olduqlarını bəyan etdilər. Rus hökuməti isə işğal olunmuş ərazilərin dinc yolla türk hökumətinə "bağışlanmasına" razı deyildi. Ədalətli sülh sazişinin bağlanması üçün artıq əlverişli şərait yetişmişdi. 1916-cı ilin sonlarından başlayaraq daxili-siyasi hadisələr tamamilə başqa məcraya yönəldi, "erməni məsələsi" də ikinci plandan üçüncü plana keçdi. Bu dövrdə Rusiyada iqitsadi və siyasi vəziyyət xeyli pisləşdi. Uğursuz müharibə, iqitsadi böhran dağıntılar, ümumi narazılıq, bir çox siyasi partiyaların hökumət əleyhinə çıxışları, bir sözlə baş vermiş hadisələr 1917-ci ilin martın əvvəllərində Peterburqda inqilabın mümkünlüyünü şərtləndirdi. Martın 8-də imperiyanın paytaxtında üsyan başladı, sonra isə qarnizon itaətdən çıxdı. Martın 11-də Duma çara tabe olmaqdan imtina etdi və ertəsi gün Kerenskinin rəhbərliyi altında Müvəqqəti Hökumət formalaşdırıldı. İnqilabın baş verdiyi gün Petroqrada da Sovetlərin ikinci qurultayı keçirildi və inqilabın ertəsi günü konqress tərəfindən "sülh dekreti" imzalandı. Burada müharibə aparan bütün dövlətlərin torpaq və təzminat tələblərinə baxmayaraq, regionda sülhün bərqərar olması üçün səy göstərilməsi çağırışları səsləndirildi. Təbiidir ki, Müvəqqəti Hökumətin siyasəti bütün erməni partiya və təşkilatları tərəfindən bir mənalı şəkildə bəyənildi və dəstəkləndi. Moskvada xüsusi ümumerməni konfransı çağrıldı. Həmin konfransda "Daşnaksütyun", "Qnçaq" və digər

partiyalar yekdilliklə Rusiyanın xilası, başlıcası isə hələ o vaxt ciddi narahatlıq doğuran ordunun vəziyyətinin sabitləşdirilməsi üçün fövqəladə qüvvə sərf etməyə çağırdılar. İşğal edilmiş ərazilər boşaldılarkən rus ordusu geri çəkildikcə onların yerini quldur erməni silahlı dəstələri əvəz etdi. Günahsız türk əhalisinə qarşı yeni-yeni təxribatçı planların hazır olduğundan ehtiyat edən Ənvər Paşa III Ordu Komandanı Vehib Paşaya bir sıra göstərişlər verdi. Burada Ənvər Paşa ədalətli sülh sazişinin bağlanılmasının vacibliyini vurğulamaqla gələcəkdə baş verə biləcək hər hansı bir hadisənin qarşısının yerindəcə alınmasını qeyd edirdi. Rusiya və Osmanlı nümayəndə heyətinin birgə danışıqları nəticəsində 18 dekabr 1917-ci ildə Ərzincan barışığı imzalandı. Müqavilə Petroqraddakı Sovet hökuməti ilə deyil, Zaqafqaziya Komissarlığı və Qafqaz cəbhəsindəki rus ordusu komandanı tərəfindən imzalanmışdı. Eyni vaxtda Xalq Komissarları Məclisi Türkiyədəki ermənilər haqqında 13 yanvar 1918-ci ildə dekret imzaladı. Dekretdə ermənilərin Şərqi Anadoluda milli müqəddaratını müsətqil həll etmək hüququnun saxlanıldığı bəyan edilirdi. Həmçinin dekretdə rus ordu birləşmələrinin Türkiyə sərhədlərindən geri çəkildikdən sonra ərazilərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə erməni polisinin yaranması (I maddə), köçürülmüş ermənilərin əvvəlki yaşayış yerlərinə qaytarılması (2 maddə), demokratik yolla seçilmiş müvəqqəti erməni hökumətinin yaradılması və bu hökumətin vəzifələrinin sülh danışıqlarında müəyyən edilməsini nəzərdə tuturdu. Bu tədbirlərin hə-

yata keçirilməsinə Rusiya tərəfindən Qafqaz işləri üzrə komissar Ş.Şaumyan kömək göstərməli idi. Həmçinin erməni torpaqlarından xarici qoşunların çıxarılmasına nəzarət edən birgə komissiya yaradılmalı idi. Qərarın qüvvəyə minməsindən sonra ermənilər yeni yaranmış milis dəstələrinin tərkibinə könüllü şəkildə yazılmağa başladılar. Həmçinin şəhər və qəsəbələrdə idarəetmə sistemi bir başa ermənilərin ixtiyarına verilmişdi. Ermənilərin belə sərbəst fəaliyyətlərinin əsas səbəbkarı V.İ.Lenin idi. V.İ.Leninin erməniləri qorumağında bir sıra mühüm səbəblər mövcud idi. Başlıca səbəb kimi bolşevik partiyasının ən nüfuzlu üzvləri arasında bir çox erməninin (Avanesov, Şaumyan, Mikoyan) olması idi.

Baş vermiş hadisələrə görə narahatlıq keçirən Vehib Paşa dərhal araşdırmalara başlanılması haqqında göstəriş verdi. Aparılan araşdırmalar nəticəsində erməni ordusunun 1/3-nin Ərzincan ilə Qara dəniz arasında, 1/3-nin isə Van vilayətində toplaşdığı üzə çıxdı. Əslində bu ordu birləşmələri artıq 1917-ci ilin dekabrından etibarən formalaşdırılmışdı. Tərkibi 3 piyada bölüyündən, bir süvari alayından və çoxlu sayda cinayətkar qrupun birləşməsindən yaranan erməni ordusunun qarşısına qoyulan əsas vəzifələr bəlli idi. Yanvar ayından etibarən ordunun ön hissəsində bütün yaşayış mərkəzləri məhv edilməli, əhali qətlə yetirilməli idi. Bununla bölgədə türk əhalisinin sayını azaltmaqla yetərsay üstünlüyə malik olmaq və nəticədə müstəqil Ermənistan dövləti yaratmaq. Ermənilərin bu intiqam hissləri həm Rusiya, həm Antanta bloku ölkələri, həmdə ABŞ tərəfindən dəstəklənməkdə

idi. Hətta bəzi məlumatlara görə, ABŞ-dan 20 min könüllü əsgərin, çoxlu miqdarda vəsaitin tezliklə Qafqaz cəbhəsinə göndəriləcəyi qətiləşmişdi.

# III FƏSİL
# Qondarma "erməni soyqırımı"nın beynəlxalq aləmdə tanıdılması istiqamətində erməni diasporunun fəaliyyəti

## 3.1. Qondarma "erməni soyqırımı"nın beynəlxalq aləmdə tanıdılması istiqamətində erməni lobbisinin fəaliyyəti

I Dünya müharibəsində Antanta blokuna qarşı Almaniya ilə bir ittifaqda iştirak edən Osmanlı imperatorluğu müharibə nəticəsində ardıcıl olaraq bağlanmış müqavilələri, xüsusilə 1918-ci ilin oktyabrın 30-da Mudros sülh müqaviləsini imzalamaqla rüsvayçı məğlubiyyətə düçar oldu və imperiyanın varlığına son qoyuldu. Bununla da məğlub olmuş türk ordusu tərksilah olunmağa başladı. Beləcə, imperiyanın özəyi olan əzəli türk torpaqları imperialist dövlətlər arasında bölüşdürüldü. Hərbi və iqtisadi cəhətdən olduqca ağır duruma düşmüş hər iki imperatorluğun hakim dairələri vəziyyətdən çıxış yolları axtarmağa başladılar. Nəticədə, 1918-ci ilin oktyabr ayından etibarən Almaniyadan fərqli olaraq, Osmanlı imperiyasında türk zabitlərinin rəhbərliyi altında işğalçı qüvvələrə qarşı milli-azadlıq hərəkatı vüsət almağa başladı. Tərkibi tacir, sənətkar, kəndli və hərbiçilərdən təşkil olunmuş hərəkata milli burjuaziyanın da dəstək verməsi ilə azadlıq mücadiləsinin miqyası genişlənərək bütün ölkə ərazisini bürüdü. Mustafa Kamal Paşanın rəhbərliyi altında imperialist qüvvələrə qarşı

aparılan mübarizənin miqyası günü-gündən genişləndi. Milli-azadlıq hərəkatına dəstək verən Almaniyanın istəkləri bəlli idi. Məqsəd Yaxın Şərqdə mühüm strateji obyekt olan Berlin-Bağdad dəmir yolu xətti boyunca uzanan əraziləri geri qaytarmaq idi. Azadlıq mübarizəsinin qalibiyyətlə nəticələnməsi Almaniya Osmanlı dövlətinə üçün istənilən yardımı etmək məcburiyyətində qaldı.

Qeyd etmək lazımdır ki, hələ müharibənin şiddətli vaxtlarında xəyanət nəticəsində köçürülməyə məhkum edilmiş ermənilərin əksəriyyəti Suriya və Mesopotamiya ərazilərində məskunlaşmaqdan imtina edərək Avropanın bir sıra ölkələrində kütləvi şəkildə məskunlaşdılar. Qısa zaman kəsiyində hakim dairələrin diqqətini bu və ya digər formada cəlb edən ermənilərə istənilən kömək və yardım edilməyə başlanıldı. Köç zamanı daha çox Avropa və Amerika ölkələrinə üz tutan ermənilər burada tezliklə diaspora şəklində formalaşaraq Osmanlı dövlətinə qarşı terror, etnik təmizləmə və digər formada yenidən mübarizəyə başladılar. Əvvəlkindən fərqli olaraq artıq diaspor halında formalaşan ermənilər arasında hadisələrə münasibətdə fikir ayrılığı meydana gəlməyə başladı. Belə ki, ayrı-ayrılıqda 2 qrupa bölünən ermənilər arasında 1-ci qrupun tərəfdarlarının fikirlərinə görə, Zaqafqaziya Seyminin dağılmasından sonra Azərbaycan torpaqları hesabına yaradılmış müstəqil Ermənistanda daşnaq hökumətinin Sovet rejimi ilə əvəzlənməsi alqışlandığı halda, ikinci qrupun tərəfdarları isə bunun tam əksinə olaraq Ermənistanda daşnaq hökumətinin yenidən bərqərar olması tərəfdarı idilər. İkinci fikrin tərəfdarları

olan daşnaqlara görə, Ermənistan SSRİ və Türkiyənin işğalı atındadır və bu torpaqların hər iki dövlətin işğalından azad edilməsi vacib şərtdir. Ən əsası daşnaqların Ermənistanı tərk etmək məcburiyyətində qalmaları diaspor ermənilərini getdikcə siyasiləşdirdi (112, 36-37). Hətta daşnaqlar 1924-cü ilə qədər Fransada Müvəqqəti Hökumət yaratmağa nail oldular. Fransanın Türkiyə Cümhuriyyətinin müstəqilliyini tanıdıqdan sonra daşnaqlar yaranmış əlverişli şəraitdən istifadə edərək müvəqqəti hökumətin 1965-ci ilədək davam etməsinə nail oldular. Daşnaqlara görə Ermənistanda sovet rejiminin bərqərar olması, əslində müstəqil Ermənistanın varlığına son qoyulması demək idi. Daşnaqların bolşeviklərə ən böyük nifrəti isə Şərqi Anadoludakı "erməni torpaqları"nın türklərə verilməsindən qaynaqlanırdı. Daşnaqlara görə rusların türklərlə əməkdaşlığında qurban olaraq ermənilər seçilmiş və türk-sovet sərhəddi türklərə erməni torpaqları verilməklə çözülmüşdü(111, 91).

1919-cu ilin yanvarında Paris sülh konfransında "erməni məsələsi" yenidən müzakirəyə çıxarıldı. Erməniləri bu konfransda iki nümayəndə heyəti təmsil edirdi. Birinci nümayəndə heyətinin başında Ermənistan Respublikasının təmsilçisi Aqaranyan, ikinci milli nümayəndə heyəti adlandırılan heyətin başında isə Poqos Nubar dururdu. Fevralın 12-də konfrans Ermənistan dövlətinin yaradılması məsələsini müzakirə etdi. Bu dövlət Zaqafqaziya və Türkiyə ərazilərində yaradılmalı idi. Konfransda erməni qırğınında günahkar olan şəxslərin cəzalandırılması məsələsinə də baxıldı. Sonra er-

məni nümayəndə heyəti çıxış etdi. Konfransda erməni nümayəndə heyətinin başçısı Poqos Nubar Fransanın xarici işlər nazirinə məktub ünvanladı. Məktubda erməni mənbələrinə əsaslanaraq müharibə illərində sultan hökumətinin 300 mindən çox ermənini "soyqırıma" məruz qoyduğunu qeyd edir və Türkiyənin cəzalandırılmasını tələb edirdi(137, 64). Bütün bu vədlərə baxmayaraq, Paris sülh konfransında erməni istəklərinin gerçəkləşməsinə yol verilmədi.

Müharibədə qalib gəlmiş Antanta ölkələri türk hökumətini 13 noyabr 1922-ci ildə İsveçrənin Lozanna şəhərində təşkil olunmuş sülh konfransına dəvət etdilər. Konfransa İngiltərə, Fransa, İtaliya və Türkiyədən başqa Yaponiya, Rumıniya, Yuqoslaviya və Yunanıstan da dəvət edilmişdi. SSRİ və Bolqarıstan boğazlar məsələsi ilə bağlı olaraq nümayəndə göndərdi. ABŞ konfransda gözləmə mövqeyində iştirak etdi(31, 196). Konfransa qatılmış dövlətlər arasında ilk gündən yaranan gərginlik nəticəsində toplantı 1 həftəliyə təxirə salındı. Nəticədə, Lozanna konfransı 20 noyabr 1922-ci il tarixdə İsveçrə konfederasiyasının rəhbəri Robert Haabın giriş nitqi ilə öz işinə başladı. İlk öncə konfransda müzakirə ediləcək məsələlər müəyyənləşdirildi və 3 komissiya yaradıldı. Sərhədlər və hərbi məsələlər birinci komissiyada, milli azadlıqlar və əcnəbilərlə bağlı məsələlər ikinci komissiyada, iqtisadi məsələlər isə 3-cü komiyyada müzakirəyə çıxarıldı. Komissiyalara ayrı-ayrılıqda ingilis, fransız və italyan nümayəndə heyətləri rəhbərlik edirdi. Türkiyəni birinci komissiyada İsmət Paşa, ikinci komissiyada Rza Nur,

üçüncü komissiyada isə Həsən bəy təmsil edirdi. Konfransda Türkiyənin ən böyük rəqibi İngiltərə idi. Çünki, İngiltərə müharibə nəticəsində məğlub olmuş Osmanlı nümayəndə heyəti ilə bir konfransda iştirak etməkdən imtina etmək niyyətində idi. Lakin son anda ingilis hökumətinin konfransda iştirakı baş tutdu. Məhz buna görə də Lord Kerzon, Puancare və Mussolini arasında 22 noyabr tarixdə müttəfiq ölkələrin Türkiyəyə qarşı bir blokda mübarizəsinə dair qərar qəbul edildi. Gərgin keçən müzakirələrdə başlıca məsələ Türkiyənin Şərqi Anadolu ərazilərinin ermənilərə verilməsi, boğazlarda sərbəst hərəkətin təmin edilməsi idi. Qeyd edək ki, toplantıda erməniləri təmsil etmək üçün Ermənistan SSRİ-dən gəlmiş nümayəndələrlə Erməni Milli Heyyəti birləşərək Birləşmiş Erməni Heyəti təşkil olundu. Konfransda iştirak edən erməni nümayəndə heyətinin əsas istəyi bütöv və müstəqil Ermənistanın yaradılması və ən əsası, müharibə zamanı Osmanlı hökumətinin ermənilərin "soyqırıma" məruz qaldığını dünya dövlətlərinin nəzərinə çatdırmaq idi. Erməni Milli Heyyəti konfrans əsnasında bir sıra tələblərlə Lozanna Konfransına qatılan müttəfiq dövlətlərin təmsiçilərinə məktubla müraciət etdilər. Məktubda ermənilərin I dünya müharibəsi zamanı müttəifqlərinin yanında olduqlarını, bunun üçün istənilən köməyi göstərdiklərini və bunun nəticəsi olaraq Osmanlı imperiyasında yaşayan 2 mln. 250 min ermənidən 1mln. 250 mininin məhv edildiyini, 700 mininin ölkədən xaricə köç etdiyini, yalnız 280 mininin hələ də Türkiyə ərazisində yaşadığını və bunların

da hər an köç etmək təhlükəsi olduğu iddia edilirdi. Konfransda erməni diasporunun fəaliyyəti və irəli sürülən iddiaların olduqca təhlükəli olduğu barəsində türk tarixçisi Esat Uras yazır: "Erməni istəklərinin çözülməsi üçün onlara bir yurd verilməsi daha öncə razılaşdırılmış və bunun üçün ermənilərə torpaq parçası ayrılmalı, Yerevan Cumhuriyyətinə dənizdən koridor açılmalı və ya Kilikiyanın ermənilərə verilməsi ilə gerçəkləşdirilməli, bir sözlə bu dövlətin istənilən halda ancaq Türkiyənin Asiya torpaqlarında qurulacağı bildirilirdi(77, 710-713)". Heç şübhəsiz bu iddiaları irəli sürənlər sadəcə Erməni Milli Heyəti deyildi. Diaspor ilə yanaşı erməni məkrini hər zaman dəstəkləmiş və bu işə, bir növ təkan vermiş erməni dərnəkləri, kilsə, müttəfiq ölkələrin başçıları və erməni idealogiyasına xidmət edən erməni lobbisinin fəal nümayəndələri Arnold Toynbi, C.Lepsius və digərləri idi. Bu şəxslərin saxta "erməni soyqırımı" ilə bağlı uydurma və heç bir məntiqə əsaslanmayan fikirlərinə aşağıda toxunacağıq. İndi isə konfransda türk nümayəndə heyətinin rəhbəri İsmət Paşanın ingilis nümayəndə heyətinin rəhbəri Lord Kerzonla apardığı danışıqlara toxunaq. Lord Kerzon erməni mövqeyindən çıxış edərək "erməni məsələsi"nin çözülməsi üçün Türkiyə torpaqlarında, istər Şimali Anadoluda, istərsə də Kilikiyanın cənub-şərqində, həmçinin Suriya sərhədlərinə yaxın ərazidə müstəqil Ermənistan dövlətinin yaradılması təklifi ilə çıxış etdi. Türk nümayəndə heyətinin sərt təpkisi ilə qarşılaşmış Lord Kerzonun növbəti çıxışında ermənilərin sayı haqqında

açıqladığı rəqəmlərə 14 dekabr tarixdə münasibətini bildirən İsmət Paşa Lord Kerzonun yanlışlığa yol verdiyini qeyd edərək tarixin heç bir dönəmində Türkiyədə 3 milyona yaxın ermənininin olmadığını qeyd etməklə yanaşı, eyni zamanda ingilis, fransız, alman, rus və türk arxiv sənədlərinə əsaslanaraq burada göstərilən rəqəmlərin 1.300-1.500 mindən o tərəfə getmədiyini qeyd etdi (110, 182).

Qeyd edək ki, Lozanna konfransında erməni diasporunun davamlı təzyiqləri nəticəsində 20 noyabr 1922-ci ildən 4 fevral 1923-cü ilə qədər davam edən I dövrdə təşkil edilmiş iki və ya üç tərəfli görüşlərdə başlıca olaraq "erməni yurdu", 23 aprel – 23 iyul 1920-ci tarixləri arasındakı ikinci dövrdəki görüşlərdə isə "soyqırım"ı ilə bağlı məsələlər müzakirə edildi və Türkiyədən xarici ölkələrə köç edən ermənilərin geri dönməsi ilə bağlı türk hökumətinin razılığını ala bildilər. Missioner təşkilatların və erməni lobbisinin təzyiqləri qarşısında qalan ingilis və Amerikan hökuməti müttəfiqlərinə, Kilikiyada və ya Suriyanın şimalında müstəqil erməni dövlətinin yaradılması ilə bağlı təzyiq göstərilməsini istədi. Lakin türk hökumətinin sona qədər mübarizə apardığını görən amerikan nümayəndə heyətinin rəhbəri Greyn 1 yanvar 1923-cü ildə Vaşinqtona göndərdiyi teleqrafda müstəqil şəkildə "soyqırım"ı və "erməni yurdu" ilə bağlı proqram hazırlamaq niyyətində olmadığını qeyd etdi. Amerikan nümayəndələri ilə yanaşı digər müttəfiq ölkələrin təmsilçiləri də Türkiyədə ermənilər üçün torpaq və "soyqırım"la bağlı imtiyazlar

tələb etməyin imkansız və mənasız olduğunu anlamış oldular. Bununla əlaqədar olaraq, Lord Kezzon Londona göndərdiyi teleqrafında açıq-aydın şəkildə İsmət Paşanın iradə nümayiş etdirdiyini əsas tutaraq "erməni yurdu" və "soyqırım"ı iddialarından vaz keçmək məcburiyyətində qaldıqlarını qeyd edirdi. Lozannada istəkləri puça çıxan erməni nümayəndə heyəti 2 fevral 1923-cü ildə şəhəri tərk etməli oldu. Bunun əsas səbəbləri barəsində qısa olaraq qeyd edək ki, Lozanna sülh konfransına böyük ümidlərlə gələn erməni nümayəndə heyəti və erməni lobbisi tərəfindən irəli sürülən bir sıra iddiaların, ən əsası "erməni yurdu" və "soyqırımı" ilə bağlı məsələlərə dünya dövlətləri tərəfindən "hə" cavabının verilməməsi ilə bağlı idi. Vəziyyətin drammatik həddə çatdığını və getdikcə dərinləşdiyini görən erməni heyəti bundan lazımınca yararlanmaq niyyətində idi. Bir-birinin ardınca istər Antanta ölkələrinə, istərsə də Millətlər Cəmiyyətinin ünvanına yazılan saysız-hesabsız məktublarda əsas qayə "erməni soyqırımı" qurbanlarına və onların ailə üzvlərinə dəymiş ziyanın hesablanması və bunun təzminat şəklində Türkiyə hökumətindən tələb edilməsi idi. Daha çox İngiltərə hökumətinə müraciət etmiş erməni nümayəndə heyətinin və ona bu işdə bir başa dəstək olan erməni lobbisinin bu dəfəki istəkləri də cavabsız qaldı. Bu barədə türk tarixçisi Göyünc Necat yazır: "Erməni istəklərindən təngə gəlmiş İngilis hökuməti artıq bu məktublara cavab verməməklə öz işini bitmiş hesab etdi (83, 218)". O, fikirlərinə davam edərək yazır: "Lozanna görüşlərinin 4 fevral 1923-cü ildə dayanmasını ermənilər

öz tələbləri üçün yeni bir ümid işığı kimi başa düşdülər. Ancaq Antanta ölkələri belə düşünmürdü(83, 218)". Müəllif qeyd edirdi ki, bu istəklər Antanta ölkələrinin strateji maraqlarına vurulmuş zərbə idi. Bu haqda ötən fəsildə geniş məlumat verildiyi üçün bir daha bu haqda geniş məlumatın verilməsinə lüzum görmürük. Nəhayət, iki ilə yaxın davam edən danışıqlara 24 iyul 1923-cü ildə imzalanan Lozanna sülh müqaviləsi ilə yekun vuruldu. Qeyd edək ki, sülh müqaviləsində ermənilərlə bağlı heç bir maddə salınmamışdı. Bundan sonra İngilis-Erməni Dərnəkləri Birgə Məclisi 27 iyulda İngiltərə XİN-ə müraciət etdi. Müraciətdə daha öncə ermənilərə verilən vədlərə Lozannada əməl edilməməsi həmçinin İngəltərənin heç olmasa 1915-ci il köçürülmə hadisələri zamanı baş vermiş xoşagəlməz hadisələrə hüquqi-siyasi qiymətin verilməsi ilə bağlı idi. Lakin bu müraciət də əvvəlkilər kimi nəticəsiz qaldı.

Yuxarıda qeyd etdiyimiz kimi, bir məsələyə bu arada toxunmağımız daha məqsədəuyğundur. Vaxtı ilə birinci dünya müharibəsi zamanı Osmanlı hökuməti tərəfindən erməni qiyamçıları ilə yanaşı erməni ailələrinin müharibə meydanından çıxarılaraq Suriya və Mesopotomiya ərazilərinə köçürülməsi zamanı baş vermiş bir sıra səbəblərdən (soyuqdan, aclıqdan, xəstəlikdən) tələf olmuş ermənilərin sayı barəsində avropalı tədqiqatçıların irəli sürdüyü yalan və heç bir tarixi fakta əsaslanmayan fikirləri ilə tanış olaq. Erməni lobbisinin fəal üzvlərindən olub qondarma "erməni soyqırımı" haqqında çoxlu sayda əsərlər yazmış avropalı müəlliflərdən

A.Toynbinin, C.Lepsiusun, Ternonun və digərlərinin cəfəngiyatla dolu fikirlərini müzakirə edək. İlk öncə ingilis mənşəli A.Toynbinin yazdığı 684 səhifəlik "Mavi kitab"ında göstərilən "fakt"lara toxunaq. Qeyd edək ki, bu kitabın özünəməxsus ən böyük xüsusiyyəti ilk dəfə olaraq burada ermənilərin "soyqırım"a məruz qaldıqları haqda saxta məlumatların yer almasıdır. A.Toynbi burada türk hökumətinin ermənilərə olan isti münasibətindən söz açır və bu haqda yazır: "Türklər ermənilərə yuxarıdan aşağı baxır, onları 3-cü dərəcəli irqin nümayəndələri olduğunu bildirirdi(23, 54-55)". Müəllif əsərdə erməni xislətini əsas tutaraq türklər haqqında xoşagəlməz fikirlərə üstünlük verərək yazır: "Türk-qəfəsə salınması vacib olan vəhşi bir heyvandır(30, 55)". A.Toynbinin türklərə yönələn bu təhqiramiz fikirlərinə elə öz həmyerlisi mənşəcə ingilis D.Conson layiqincə cavab vermiş və onun fikirlərini başdan-başa alt-üst etmişdi. D.Conson yazır: "A.Toynbinin fikirlərinin tam əksinə olaraq silahlı erməni dəstələri ölkədə 1915-ci ildən başlayaraq iş başında oldular, Van şəhərini ələ keçirdilər, şəhəri rus qoşunlarına təslim etdilər və əhalini (türk əhalisini – T.C) vəhşicəsinə qətlə yetirdilər(115, 79). Biz burada iki ingilis müəllifinin bir-birinə zidd fikirləri ilə tanış olduq. D.Conson arxiv materiallarına əsaslanaraq A.Toynbinin cəfəngiyyatla dolu fikirlərinin heç bir tarixi məntiqə əsaslanmadığını qeyd edir. Müəllif əsərdə ermənilərin əvvəlcə 600 min nəfərin "qətlə yetirildiyini" qeyd edir və sonralar bu rəqəmin 1,5-2 milyon arasında olduğunu bildirir. Yuxarıda qeyd olunduğu kimi əsər

erməni lobbisinin şirnikləndirici vədləri əsasında yazılsa da bu günün özündə də heç bir dəyərə layiq görülməmişdir.

A.Toynbi ilə yanaşı qondarma "erməni soyqırımı" haqqında 1920-ci illərdə əsər yazmış müəlliflərdən biri də Ternondur. Onun "Cinayətkar sükut" adlı əsərində də "Mavi kitab"da göstərilən uydurulmuş fantastik rəqəmlər olduğu kimi göstərilmişdir. Müəllif A.Toynbinin "Mavi Kitab"ındakı rəqəmləri eyni ilə öz əsərində qeyd edir və bunu utanmadan "əsrin ilk genosidi" kimi qələmə verir. Şübhəsiz biz burada da erməni mövqeyini əsas tutan fikirlərə rast gəldik. XX əsrin 20-ci illərində Avropada bu formatda meydana gələn əsərlərin işıq üzü görməsi üçün ayrılan vəsait hesabına milyonlarla tirajda çap edildi və tez bir zamanda yayılmağa başlandı. Ermənilər haqqında yazdığı kitabları ilə Qərb Avropa ölkələrində böyük səs-küyə səbəb olmuş və "böyük uğurlara" imza atmış erməni lobbisinin fəal üzvlərindən biri də alman mənşəli Cohannes Lepsiusdur. Xatırladaq ki, alman-erməni cəmiyyətinin fəal üzvü olan C.Lepsius qərb və ən əsası alman ictimaiyyətində "soyqırımı" iddialarının ən fəal təbliğatçısı kimi tanınmışdır. Onun bir-birinin ardınca Türkiyə əleyhinə yazdığı əsərlərdə başlıca olaraq türk hökuməti ittiham edilir. İlk öncə onun 1897-ci ildə Berlində çapdan çıxmış "Ermənistan və Avropa" adlı əsəri haqqında məlumat verək. 5 fəsildən ibarət olan əsərdə ön sözdən başlayaraq "türk vəhşiliyi", "türk vandalizmi" qabarıq şəkildə Avropa ictimaiyyətinə sırı-

nır, başqa sözlə türk milləti dünya icitmaiyyətinə düşmən obrazında təqdim olunurdu.

Beləliklə, XX əsrin 20-30-cu illərindən başlayaraq erməni diasporu və lobbisinin Türkiyə əleyhinə Avropa ölkələri ilə bir ittifaqda apardığı kompaniya paralel şəkildə getmiş və "soyuq müharibə"nin başlanması ilə yeni bir mərhələyə qədəm qoymuşdur.

## 3.2. Qərb dövlətlərinin parlamentlərində qondarma "erməni soyqırımı"nın tanıdılması cəhdləri

XX əsrin 20-30-cu illərindən etibarən beynəlxalq aləmdə bir-birinin ardınca baş vermiş cinayət tərkibli hadisələrin əsas ideya və hərəkətverici qüvvəsinə çevrilmiş erməni lobbisinin qarşısında duran əsas vəzifələrdən biri və ya ən başlıcası 1915-ci ildəki olayların uydurma "erməni soyqırımı" kimi qərb dövlətlərində və beynəlxalq təşkilatlarda tanıdılması idi. Şübhəsiz diasporunun bu strateji məqsədə müvəffəq olması üçün qarşısındakı bütün maneələri aşması lazım idi. Çünki dünya müharibəsi illərində qaynar bölgələrdə həyata keçirmiş hərbi əməliyyatların bir növ şahidinə çevrilmiş olan avropalı nümayəndələrə uydurulmuş "erməni soyqırımı" haqqında yalan informasiya ötürmək və bunu beynəlxalq təşkilatların mötəbər tribunalarında müzakirə etmək olduqca mürəkkəb və ağır idi. Lakin bütün çətinliklərə baxmayaraq, erməni lobbisi bu işə ayırdığı külli miqdarda maliyyə vəsaiti hesabına ilk addımlarını atmağa başladı. Eyni zamanda buna nail olmaq üçün bu və ya digər ölkədə əhalinin aparıcı qüvvəsinə çevrilmək və bununla da ölkənin siyasi sferasına istənilən formada təsir etmək mexanizminə yiyələnmək lazım idi. Bunun nə dərəcədə erməni lobbisi tərəfindən mənimsənildiyini sonrakı hadisələrin gedişatından müşahidə edəcəyik.

Qeyd etmək lazımdır ki, I dünya müharibəsi illərində Osmanlı təbəəsi olan ermənilərin türk ordusu sıra-

larında vuruşmaqdan imtina edərək və rus ordusuna istənilən köməyi göstərməsi nəticəsində hökumətin haqlı narazılığı ilə qarşılaşdılar. Nəticədə, 1915-ci il may Qanunnaməsi ilə köçürülməsi reallaşdırılan erməni qiyamçılarının və onların ailə üzvlərinin Suriya və Mesopotomiya ərazilərinə köçürülməsinə başlandı. Şərqi Anadolu ermənilərinin əksəriyyəti məcburi şəkildə bu ərazilərə köçürüldü. Ancaq bu ərazilərə köçməkdən imtina edən erməni ailələrinin sayı da kifayət qədər idi. Onlar könüllü surətdəAvropanın və Amerikanın ən sabit və varlı dövlətlərinə üz tutmağa başladılar. Köç zamanı Avropa dövlətlərinin ermənilərə qucaq açması onların həmin ölkələrdə sərbəst fəaliyyətlərinə bir növ təkan vermiş oldu. Avropada ermənilərə bu cür isti münasibət göstərilməsinin bir sıra mühüm səbəbləri mövcud idi. Birincisi, yeni yaranmış Türkiyə Cumhuriyyətinin çiçəklənməsinə hər vəchlə mane olmaq, ikincisi, əsrlərlə Avropa missionerlərinin yağlı vədlərinə aldanaraq onların marağına xidmət etmiş ermənilərə heç olmasa cüzi miqdarda yardım etmək. Beləcə, Qərb dövlətlərində uydurulmuş "erməni soyqırımı" kartının əsas tutulması ilə Türkiyə Cümhuriyyətinə qarşı geniş miqyaslı kompaniyaya başlanıldı. Türkiyəni günahkar dövlət elan etmək üçün yürüdülən "erməni soyqırım"ı kompaniyasına ən böyük dəstək okeanın o biri tayından, ABŞ-dan dəldi. İlk öncə, 11 may 1920-ci ildə ABŞ Senatının Xarici Əlaqələr üzrə Alt Komitəsində keçirilən dinləmələrdə erməni xalqının məruz qaldığı "qətliam"ın gerçəkliyə uyğun olduğu "isbatlandı". Məhz bu, müzakirələrin müsbət nəticə-

lərindən ruhlanan erməni diasporu və lobbisi fəaliyyətini digər Qərb ölkələrində genişləndirməyə başladı. Hadisələrin sonrakı gedişatına nəzər salsaq, 30-cu illərin sonlarına doğru beynəlxalq təhlükəsizlik sistemində yeni müharibə əhval-ruhiyyəsinin hökm sürdüyünü görmək mümkündür. Belə ki, 1929-1933-cü illərdə Nyu-York Fond Birjasının iflasa uğraması ilə əlaqədar olaraq dünya iqtisadi böhranının dərinləşməsi, böyük dövlətlərin mövcud nüfuz dairələri, xammal və satış bazarlarını yenidən bölüşdürməyə cəhd etməsi, burjua-demokratik dövlətlərin totalitar rejimləri-faşizmi və kommunizmi, nasizmi bir-birinə qarşı qoyub zəifləmək və məhv etmək cəhdi, burjua-demokratik dövlətlər və SSRİ tərəfindən faşizm və nasizm təhlükəsinin lazımınca qiymətləndirilməməsi və digər səbəblər II dünya müharibəsinin başlanmasına gətirib çıxardı. Qeyd edək ki, II Dünya müharibəsinin başlanması ilə "erməni məsələsi" yenidən dünya dövlətlərinin müzakirə predmetindən kənarda qaldı. İyirmi ilə yaxın dünya dövlətlərinin nəzər diqqətindən uzaq olan "erməni məsələsi" 1965-ci ildən etibarən iri dövlətlər tərəfindən yenidən gündəmə gətirildi. Bu barədə Sedat Laçiner yazır: "O, tarixə qədər daha çox daxildən alov kimi közərən saxta "erməni soyqırımı" olayları 1965-ci ildən etibarən yenidən dünya dövlətlərinin nəzərini cəlb etməyə başladı(112, 59). Öncə 1964-cü ildə Ermənilərin böyük Patriarxı I Vazgen və Böyük Kilikiya Patriarxı I Xorenin dünya ermənilərinə müraciəti bu prosesi yenidən canlandırmış oldu. Hadisələr daha izdihamlı və qarşısı alınmaz bir mərhələyə qədəm qoydu. Qeyd etmək

lazımdır ki, 24 aprel 1965-ci ildə Yerevanda saxta "erməni soyqırımı"nın 50-ci ildönümü ilə bağlı keçirilən geniş miqyasla mitinq və nümayişlərə axışan minlərlə erməni böyük dövlətlərə müraciət edərək "soyqırımı" cinayətlərinin tanınmasına dəstək nümayiş etdirməsini tələb etdilər. Spendiaryan Opera binası önündə toplaşan mitinqçilər öz etiraz səslərini bildirdikdən sonra türklərin guya 1915-ci ildə erməniləri soyqırıma məruz qoyduqları barəsində çıxışlar səsləndirməyə başladılar. Mitinqə təxminən dörd yüz mindən artıq nümayişçi qatılmışdı.

Yuxarıda qeyd etdiyimiz kimi, 1965-ci ildə Sovet Ermənistanında mitinq və yürüşlərin ardı-arası kəsilmirdi. Saxta "erməni soyqırımı"nın 50-ci ildönümü ilə bağlı keçirilən mitinqlərə öncə Ermənistan SSRİ-in paytaxtı İrəvan (Yerevan) şəhərində, daha sonralar isə dünya dövlətlərinin paytaxt və iri şəhərlərində start verildi. Qısa zamanda "soyqırım"ı qurbanların xatirəsinə həsr edilmiş abidələrin ucaldılmasına başlanıldı. İlk belə abidə ABŞ-ın Montebello şəhərində ucaldıldı. Daha sonra Yerevanın mərkəzi yerlərindən olan Ssisernakaberd təpəsi üzərində də belə bir abidə ucaldıldı. Abidələrin ucaldılmasında əsas məqsəd bütün dünya ictimaiyyətində "qatil türk" obrazı formalaşdırmaq idi. Bununla yanaşı külli miqdarda maliyyə vəsaiti hesabına konfrans və simpoziumaların keçirilməsinə başlanıldı. Konfranslarda əsas müzakirə predmeti saxta "erməni soyqırımı" barəsində dünya ictimaiyyətini "doğru-dürüst" şəkildə maarifləndirmək və təbliğ etməkdən ibarət idi. 1965-ci ildə Ermənistan SSR Elmlər Akademiyasının dəstəyi ilə uydurma "erməni

soyqırım"ı haqqında yeni-yeni kitablar və jurnallar çap etdirilərək dünya dövlətlərinə göndərildi. Bütövlükdə, 1965-ci ilin "erməni məsələsi"ndə dönüş ili olduğu şübhəsizdir. Bu barədə türk tarixçisi Sedat Laçiner yazır: "1965-ci ilin yalnız Sovet Ermənistanı üçün deyil, bütün dünya erməniləri üçün önəmli bir  dönüş nöqtəsi olmuşdur və dünyanın dörd bir yanında mitinqlər və nümayişlər təşkil edilmşidir. Bəhs olunan dövr qlobal miqyasda erməni kompaniyasının başlandığı və illər ötdükcə sürətləndiyi dövr kimi xarakterizə olunmağa başladı. Bu kompaniyann güclənməsində Sovet Ermənistanı ilə birlikdə daha üç mərkəz ön plana keçdi: Livan, Kipr (Yunanıstan) və Həbəşistan (112, 61). Livan ermənilərin toplu və aktiv şəkildə fəaliyyət göstərdiyi bir yer olmaqla yanaşı, həmçinin buradakı dini liderlik erməni kilsələri içində öncül yerlərdən birinə sahibdir. Kipr və Həbəşistanda da bu məsələ ilə əlaqədar geniş təbliğat kompaniyasına başlandı. Qeyd edək ki, 17-25 yanvar 1965-ci ildə Həbəşistanın paytaxtı Əddis-Əbəbədə təşkil olunan toplantıya Patriarx I Xoren ilə birlikdə Baş yepiskop Manaryos da dəvət edilmişdi. Toplantıda yunanların və ermənilərin 24 aprel gününü birgə anmaları tarixi birlikdən irəli gəlirdi. Toplantıda ermənilərin və yunanların guya Osmanlı imperatorluğunun süqutu zamanı türklər tərəfindən 24 aprel 1915-ci ildə soyqırıma məruz qalmaları barəsində fikirlər səsləndirildi. Əsil həqiqətdə isə bu çıxışlar Türkiyənin beynəlxalq nüfuzuna zərər vurmaqdan başqa bir şey deyildir. 24 aprel 1968-ci ildə iqtisadi cəhətdən olduqca ağır durumda olan Həbəşis-

tanda da minitq və nümayişlərə icazə verildi. Bəhs olunan dövrdə erməni kompaniyasına əsil sahib çıxan ölkə isə ABŞ və Avropadakı erməni diasporu olmuşdur.

Qeyd edək ki, 1965-ci ildən başlayaraq növbəti illərdə də davam edən mitinq və nümayişlər Avropa ölkələri ilə yanaşı Latın Amerikası ölkələrində də təşkil edildi. Bu özünü ermənilərin toplu halında yaşadıqları ən böyük Latın Amerikası ölkəsi olan Argentinada daha qabarıq şəkildə biruzə verdi. Erməni diasporunun fəaliyyəti üçün hər cürə imkanlar yaradılan bu ölkədə 2 iyun 1968-ci ildə kütləvi mitinqlər və nümayişlərin keçirilməsinə icazə verildi. Mitinqlərə sadə xalq kütlələri ilə yanaşı ölkənin yüksək çinli məmurları da qatılmışdı. Şübhəsiz, bu ölkələrdə təşkil olunmuş mitinqlərin əsas təşkilatçı qüvvəsi SSRİ idi. SSRİ-nin bu kompaniyaya dəstək verməsinin əsas təşəbbüskarı kommunist Qnçaq partiyası idi. 1968-ci ildə Ermənistan SSR-də hazırlanan Qnçaq partiyasının yeni proqramında xüsusilə 2 məsələ diqqət mərkəzində saxlanılmışdı:

1. Tələblərimiz irqimizi qətlə yetirmiş Türkiyədəndir (maddə 4 və 5)

2. Ermənilərin dünyadakı təmsilçisi Sovet Ermənistanıdır (maddə 10 və 11) (112, 63).

Qeyd etmək lazımdır ki, ilk illərdə şəhər mərkəzlərində, küçə və meydanlarda keçirilən mitinq və nümayişlər sonrakı illərdə türk səfirliklərinin önündə təşkil olunmuşdur. Bunun ən bariz nümunəsi 24 aprel 1969-cu ildə erməni disporunun Londondakı türk səfirliyi önündə keçirilən mitinqdir. Mitinq izdihamlı keçməklə yanaşı

burada qarşıya qoyulmuş məqsədə çatmaq uğrunda bir sıra mühit addımlar atıldı.

XX əsrin 60-70-ci illərində dünya dövlətlərinin mərkəzi şəhərlərində erməni diasporunun maliyyə dəstəyi ilə təşkil edilmiş nümayişləri 80-ci illərdən etibarən türk diplomatlarına, missiyalarına və təşkilatlarına qarşı erməni terroru əvəz etdi. Türk vətəndaşlarına qarşı ən çox terror hadisəsi məhz Fransada törədilmiş və erməni terrorçularına ən böyük dəstəyi də elə Fransa dövləti vermişdi. 1971-ci ildə Marsel şəhərində yaşanan "heykəl olayı" prosesi daha da dərinləşdirmişdir. Marsel şəhərində kiçik bir erməni kilsəsinin bağçasında 1915-ci il saxta "erməni soyqırımı"na həsr edilmiş abidənin qoyulması türk diasporunun haqlı narazılığına səbəb olmuşdur. 1980-ci illərdə Fransanı başına almış erməni terroruna 19 aprel günü mərkəzi Marsel şəhərində yerləşən Türk konsulluğuna endirilmiş raket zərbəsi ilə start verildi. 5 avqustda ermənilərin Liondakı Türk konsulluğuna hücumu bir neçə diplomatın ölümcül vəziyyətdə klinikaya çatdırılması ilə nəticələnmişdir. Maraqlısı budur ki, Fransa Avropanın mərkəzində tüğyan edən qanlı terrorun qarşısını nəinki almır, əksinə baş vermiş qorxunc hadisələrin məhz türklər tərəfindən törədildiyini KİV vasitəsilə dünya ictimaiyyətinə çatdırırdı. Ermənilər bu terrorçuluq əməllərini həyata keçirməklə ilk növbədə soyqırımına uğradıqlarını dünyaya bildirmək, dünya xalqlarının gözündə türkləri ifşa etmək, onları qaniçən, qatı millətçi, başqa xalqları və millətləri sevməyən bir millət kimi tanıtmaq, bununla da ABŞ-ın, və eləcə də digər

qabaqcıl dövlətlərin marığını bir daha erməni məsələsinə yönəltmək istəyi dururdu.

Bəhs olunan dövrdə ABŞ-da, həmçinin Latın Amerikası ölkələrində təşkil olunmuş müzakirələr daha da intensivləşdi. Qeyd edək ki, 1985-ci ildə Argentinada Senat və parlamentdə dinləmələr aparılmışdı. Burada hökumət Birləşmiş Millətlər Təşkilatında saxta "erməni soyqırımı"nı dəstəkləməyə çağıran qanun" qəbul etmişdir. Digər Latın Amerikası ölkəsi olan Uruqvayda da bu kompaniya dövlət orqanları səviyyəsində müzakirə edilmişdir. Uzun müddət aparılan müzakirələr nəticəsində Uruqvay senatı və Təmsilçilər Məclisi saxta "erməni soyqırımı" ilə bağlı qanun layihəsini qəbul etmişdir. SSRİ-də də bu istiqamətdə bir sıra məsələlərə aydınlıq gətirilməkdə idi. Maraqlısı ondan ibarətdir ki, 1985-ci ilə qədər bu ittifaqda mətbuat səhifələrində, xüsusilə mərkəzi mətbuatda ermənilərin "soyqırımı" adlandırdığı 24 aprel tarixi ilə əlaqədar bir yazı, məqalə, tezis belə verilməmişdir. Lakin yenidənqurma adı altında, aşkarlığın yaranması ilə bağlı olaraq Yerevan Dövlət Universitetinin rektoru, akademik Ambarsumyan "Pravda" qəzetinin səhifəsində "Genosid" adlı məqalə dərc etdirdi. İlk dəfə olaraq ermənilər Sovet İttifaqında mətbuat vasitəsilə uydurduqları "soyqırımı" siyasətinə haqq qazandırmağa çalışırdı. Həmin məqalədə yazılmışdı: "Bəşəriyyətə qarşı ən qanlı, ən ağır cinayət "soyqırımı" cinayətidir. 70 il bundan əvvəl Osmanlı imperiyasının erməni xalqına qarşı həyata keçirdiyi "soyqırımı" ən böyük cinayətkarlıq aktıdır. Nəticədə, heç bir günahı

olmayan milyon yarım insan öldürülmüşdür. Soyqırımı bəşəriyyət qarşısında ən ağır cinayətdir-həyata keçirilmə müddətindən asılı olmayaraq o beynəlxalq təşkilatlar tərəfindən mühakimə olunmuşdur"(16). Ermənilərin türklərə qarşı belə mövqedən çıxış etməsi Sovet ittifaqını da təmin edirdi. Ümumilikdə, qondarma "erməni soyqırımı"nı tanıyan ölkələr aşağıdakılardan ibarətdir:

| **ÖLKƏLƏR:** | **TANINDIĞI İL** |
|---|---|
| 1.Uruqvay | 1965, 2004, 2005-ci il |
| 2. Kiprin yunan hissəsi | 1982-ci il |
| 3. ABŞ | Rəsmi olmasa da 41 ştatda artıq tanınmışdır. |
| 4. Argentina | 1993, 2003, 2004, 2005, 2006, 2007-ci illər |
| 5. Rusiya Federasiyası | 1995, 2005-ci illər |
| 6. Kanada | 1996, 2000, 2004-cü illər |
| 7. Yunanıstan | 1996-ci il |
| 8. Livan | 1997, 2000-ci illər |
| 9. Belçika | 1998-ci il |
| 10. İtaliya | 2000-ci il |
| 11. Vatikan | 2000-ci il |
| 12. Fransa | 1998-ci il |
| 13. İsveçrə | 2003-cü il |
| 14. Slovakiya | 2004-cü il |
| 15. Hollandiya | 2004-cü il |

| | |
|---|---|
| 16. Polşa | 2005-ci il |
| 17. Almaniya | 2005-ci il |
| 18. Venesuela | 2005-ci il |
| 19. Latviya | 2005-ci il |
| 20. Çili | 2007-ci il |
| 21. Böyük Britaniya | 2008-ci il |
| 22.İsveç | 2010-cü il |
| **CƏMİ:** | **22 ölkə** |

Bəhs olunan illərdə qondarma "erməni soyqırımı"ı bir sıra ölkələrlə yanaşı Beynəlxalq təşkilatlar tərəfindən də tanınmışdır. Aşağıdakı beynəlxalq təşkilatlar qondarma "erməni soyqırımı"nı tanımışlar:

1. BMT-nin Ayrımçılığın Önlənməsi və Azlıqların Qorunması Alt Komissiyası;
2. Avropa Birliyi;
3. Dünya Kilsələr Birliyi;
4. İnsan Haqqları Dərnəyi;
5. Gənc Xristian Kişilər Birliyi;
6. "Permanent Peoples" Tribunalı;
7. Avropa Parlamenti

Ümumiyyətlə, bəhs olunan dövrdə erməni diasporunun maraqlarına xidmət edən böyük dövlətlərin siyasi məqsədlərini analiz etdiyimiz zaman burada diqqəti cəlb edən əsas məsələlər birmənalı şəkildə Türkiyəni bu məsələdə günahlandırmaq, onun beynəlxalq təşkilatlara üzv olmaq strategiyasına mane olmaq, NATO-dakı mövqelərini zəiflətmək, daxildə sabitliyi pozmaq, Kiprə yeridil-

miş ordunun geri çəkilməsini təmin etmək və erməni iddialarını təmənnasız yerinə yetirməkdən ibarət idi.

1991-2001-ci illərdə Ermənistan hökumətinin digər ölkələrin qanunverici orqanlarında (Kanada, Argentina, Uruqvay, İsveçrə, Norveç və s.) "erməni soyqırımı" ilə bağlı qəbul etdirmiş olduğu qərarlar onun xristian bloku ölkələri arasındakı mövqelərini daha da möhkəmləndirmişdir.

## 3.3. Qondarma "erməni soyqımı"nın beynəlxalq aləmdə tanıdılmasında Ermənistan Respublikasının fəaliyyəti (1991-2001)

II Dünya müharibəsinin başa çatmasından sonra beynəlxalq münasibətlər sistemində yeni bir mərhələnin əsası qoyuldu. "Soyuq müharibə" adlandırılan bu mərhələdə dünya dövlətləri iki cəbhədə, sosializm və kapitalizm düşərgəsində həm iqtisadi-mədəni həm də, siyasi sahədə bir-birləri ilə gizli formada mübarizə aparırdılar. Sosializm düşərgəsinin ən böyük dövləti olan SSRİ ilə ABŞ arasında yaranmış gərginliyin tezliklə aradan qaldırılması üçün hər iki ölkənin rəhbərləri M.Qorbaçovla R.Reyqan arasında 1985-ci ilin noyabrında Cenevrədə, 1986-cı ilin martında Reykyavikdə, 1987-ci ilin dekabrında Vaşinqtonda zirvə görüşləri keçirildi. 1989-cu ilin 2-3 dekabrında SSRİ və ABŞ dövlət başçıları M.Qorbaçovla C.Buş arasında baş tutmuş Malta görüşündən sonra beynəlxalq münasibətlərdəki gərginlik tamamilə zəiflədi. Bir-birinin ardınca keçirilən görüşlərə baxmayaraq, 80-ci illərin sonu 90-cı illərin əvvəllərində SSRİ daxilində mərkəzdənqaçma meyllərinin güclənməsi, yenidənqurma, sürətli silahlanma, xarici təzyiqlər və digər səbəblər nəticəsində ölkə tənəzzülə uğradı. SSRİ-nin və dünya sosializm sisteminin dağılması ilə yer üzərində bir-birinə zidd olan müxtəlif ictimai quruluşlara da son qoyuldu. SSRİ və dünya sosializm sisteminin dağılması nəticəsində beynəlxalq səhnəyə yeni müstəqil dövlətlər çıxdı. 1991-ci ildə Cənubi Qafqazda yeni

müstəqil dövlətlər – Azərbaycan, Ermənistan və Gürcüstan da belə dövlətlər sırasında idi. 1991-ci ilin 21 sentyabrında müstəqil dövlətə çevrilən Ermənistanda hakimiyyət uğrunda mübarizə daha da gərginləşdi. Bir sıra partiyalar hakimiyyəti ələ keçirmək üçün digər ölkələrlə separat danışıqlara başladılar. Belə ki, müstəqilliyin qazanıldığı ilk gündən etibarən erməni disporasu Ermənistanın daxili və xarici siyasətinə hakim olmağa can atmış və buna birmənalı şəkildə nail olmuşdur. Erməni diasporu tərəfindən namizədliyi irəli sürülən və ABŞ tərəfindən də dəstəklənən Levon Ter- Petrosyan Ermənistan Respublikasının ilk prezidenti oldu. Hakimiyyətinin ilk illərindən başlayaraq Ter-Petrosyan ölkəsinin bu çətinliklərini nəzərə alaraq qonşu dövlətlərlə münasibətləri korlamamağa çalışırdı. Onun xüsusilə, Türkiyə və İranla siyasi-iqtisadi və mədəni əlaqələr qurmaq istəyi Rusiya hakim dairələri tərəfindən birmənalı qarşılanmadı. Rusiyanın təzyiqlərinə baxmayaraq, Petrosyan ölkəsinin beynəlxalq aləmə çıxışını, ən əvvəl qonşu ölkələrlə yaradılacaq iqitsadi əlaqələrin möhkəmlənməsində görürdü. Əslində belə bir siyasət Ermənistanın Rusiyaya olan bağlılığının azalmasına gətirib çıxartsa da milli-azadlıq hərəkatının fəal üzvləri tərəfindən də dəstəklənməkdə idi. Onlar ölkə prezidentinin Türkiyə ilə diplomatik əlaqələrin qurulması ideyasını dəstəkləyir, bir sözlə ona bu işdə yardım edirdilər. Məhz ölkəsində də bununla bağlı ictimaiyyət arasında artıq müsbət fikir formalaşmaqda idi. Ona görə də Petrosyan Türkiyə ilə əlaqələrin yaradılmasına qərarlı idi. Tezliklə iki ölkə

arasında əlaqələr bərpa olundu, hətta Türkiyənin təkidi ilə Ermənistan Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü oldu. (66, II cild, 283)Petrosyan Türkiyə ilə normal diplomatik və iqtisadi əlaqələrin qurmaqla Ermənistan iqtisadiyyatının gücləndirilməsi üçün Xəzərin neft və qaz yataqlarından çıxarılan xam neftin və təbii qazın dünya bazarına daşınmasında Ermənistanın tranzit ölkə olacağını yəqin etmişdir. Ancaq onun bu istəkləri bu və ya digər səbəblərə görə yarımçaq qaldı. Başlıca səbəb kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin daha da gərginləşməsi oldu. Azərbaycan torpaqlarına qarşı Ermənistanın işğalçılıq planları yenicə yaranmaqda olan Türkiyə-Ermənistan münasibətlərinə mənfi təsir göstərdi (66, II cild, 288). Belə ki, 1992-ci il fevral ayının 26-da Azərbaycanın Xocalı şəhərinin erməni millətçi ekstremistləri tərəfindən yerlə-yeksan edilməsi və dinc əhalinin soyqırıma məruz qalması xəbəri Türkiyənin hakim dairələrinin və icitmaiyyətinin haqlı narazılığına səbəb oldu və Ermənistana qarşı bir sıra sanksiyalar tətbiq edildi. Ermənistan hakim dairələri də buna cavab olaraq Türkiyənin beynəlxalq nüfuzuna zərər gətirən bir sıra qanun layihələrini qəbul etdi. 23 avqust 1991-ci ildə Ermənistan Respublikası 1915-ci ildə Osmanlı Türkiyəsi və Qərbi Ermənistanda baş vermiş "soyqırımı" hadisəsini beynəlxalq aləmdə qəbul edilməsi üçün atılmış addımlarını dəstəkləyəcəkdir" ifadəsi yer almışdır ( 112, 210) "Müstəqililk Aktı" qəbul olunduqdan sonra Ermənistan Respublikasının müstəqil Konstitusiyası işlənib hazırlandı. Burada "Müstəqillik aktı"nda yer almış 11-ci

maddə olduğu kimi Konstitusiya aktına bir maddə kimi əlavə edildi. Bununla da saxta "erməni soyqırımı"nın beynəlxalq aləmdə tanınması müstəqil Ermənistan Respublikasının xarici siyasət strategiyasının əsas hədəfləri sırasına daxil edildi.

Xaricdə erməni diasporunu təmsil edən bir sıra partiyalar Erməni İnqilab Partiyası – Daşnaksütyun, Sosial Demokrat – "Qnçaq" Partiyası və Liberal Demokrat Partiyası kimi tanınan Rangavar partiyası Ermənistanın daxili siyasətinə təzyiq göstərməyə başladılar. Levon Ter-Petrosyan hökumətinə müxalif olan bu siyasi partiyaların davamlı təzyiqləri nəticəsində Ter-Petrosyan 1998-də istefaya göndərildi. 1998-ci ildə Ermənistanda keçirilmiş prezident seçkiləri nəticəsində Robert Koçaryan hakimiyyətə gətirildi. Ermənistanın keçmiş prezidenti Levon Ter Petrosyandan fərqli olaraq Robert Koçaryanın prezident seçilməsindən sonra ölkənin xarici siyasətinin əsas prioritet istiqamətləri – qondarma "erməni soyqırımı"nın beynəlxalq aləmdə tanıdılması və bu işdə diaspor ermənilərinin fəaliyyətindən lazımınca istifadə edilməsi, həmçinin qonşu ölkələrlə bağlı qalan sərhədlərin açılması, Ermənistanda baş vermiş iqtisadi böhranın tədricən aradan qaldırılması və Dağlıq Qarabağ münaqişəsininn tənzimlənməsi istiqamətindəki məsələlərin müəyyənləşdirilməsi onun diaspordakı nüfuzunun artmasına gətirib çıxardı. Ölkənin xarici siyasəti ilə bağlı çıxışlarında Robert Koçaryan qondarma "erməni soyqırımı"nın beynəlxalq aləmdə tanıdılması Ermənistanın xarici siyasətindəki yerini almışdır və vəziyyət erməni xalqının haqlı tələb-

lərini və istəklərini ortaya qoymaqdadır" kimi sərsəm fikirlər səsləndirməsi onun bu məsələyə daha çox üstünlük verdiyindən xəbər verirdi. Robert Koçaryan hökuməti bu dəfə də erməni diasoporunun gücündən maksimum dərəcədə bəhrələnməyə çalışırdı. Burada erməni diaspor təşkilatlarının bu dəfəki əsas hədəfi yenə də ABŞ oldu (112, 248). Yuxarıdakı bölümdə qeyd etdiyimiz kimi, 70-80-ci illərdə saxta "erməni soyqırımı" məsələsi ABŞ Təmsilçilər Məclisinin gündəliyinə bir neçə dəfə daxil edilmiş və cüzi səs çoxluğu ilə qəbul edilmşidi. 1996-cı ildə cari ildə xarici ölkələrə ediləcək yardımlarla əlaqədar büdcə layihəsinin müzakirəsində Türkiyəyə ediləcək yardımın azaldılması əsas müzakirə predmeti oldu. Osmanlı dövləti 1915-1923-cü illərdə erməni xalqına edilən "qətliam"ın tanınması ilə bağlı sənəd müzakirəyə çıxarıldı. Sənəd 268 səs lehinə, 153 səs əleyhinə olmaqla qəbul edildi və daha sonra qərar Senatın müzakirəsinə göndərildi. Bu dəfə də qərar Senat tərəfindən rədd edildi

21 sentyabr 2000-ci ildə Təmsilçilər Məclisi İnsan Haqları Alt Komitəsi qondarma "soyqırımın"ın tanınması istiqamətində qərar qəbul etdi. Qərar daha sonra Təmsilçilər Məclisinin Ölkələrarası Əlaqələr Komitəsindən də keçərək Senatın müzakirəsinə göndərildi. ABŞ-ın dövlət başçısı Bill Klintonun və Müdafiə naziri Henri Şheltonun təzyiqləri nəticəsində Təmsilçilər Məclisinin gündəliyinə daxil edilmiş, saxta "erməni soyqırımı" ilə bağlı keçiriləcək dinləmələr təxirə salındı. Qeyd edək ki, 2000-ci il ABŞ-da prezident seçkilərinə start verildi. Həmin ildə ABŞ prezidentliyinə Respublikaçılar partiya-

sından öz namizədliyini irəli sürmüş Corc Buşun seçki kompaniyası zamanı erməni diaspor üzvləri ilə görüşlər keçirildi. Görüşlər zamanı Corc Buş erməni seçicilərinin səslərini qazanmaqdan ötrü onlara bir sıra vədlər vermiş oldu. O, çıxışında: "Ermənilər keçdiyimiz yüzillikdə ən böyük faciələrindən birinə, "soyqırıma" məruz qalmışlar. "Seçilərsəm ölkəmin bu soyqırımı tanıması üçün əlimdən gələni edəcəyəm" (34, 86). Məhz həmin ildə ABŞ prezidenti seçilən Corc Buşun ünvanına erməni diasporası tərəfindən çoxlu sayda məktublar göndərildi. Məktublarda ən diqqət çəkən hissə "bizə vermiş olduğumuz sözlərə əməl edin" fikirlərinin yer alması idi. İstər Bill Klintonun, istərsə də Corc Buşun hakimiyəti dövründə hər il 24 aprel günü erməni xalqına müraciətlər ünvanlanmışdır. Müraciətlərdə "soyqırım"ı ifadəsi işlədilməsə də, Osmanlı imperatorluğunun son dövrlərində ermənilərin köçürülməsinə və bunun nəticəsində də guya 1,5 milyondan artıq ermənininin qətlə yetirilməsinə toxunulmuş və bu hadisənin tarixin ən böyük faciələrindən biri kimi qeyd edilmişdir. Ölkə başçılarının öz çıxışlarında hər dəfə soyqırımı ifadəsini işlətməməsi ABŞ-da və eləcədə dünyanın müxtəlif yerlərində fəaliyyət göstərən erməni diaspor təşkilatlarının narazılığına səbəb olmuşdur.

Bəhs olunan dövrdə digər ölkələrdə olduğu kimi, Fransada yaşayan ermənilər də ölkənin rəsmi dairələrində saxta "erməni soyqırımı"nın tanıdılması istiqamətində səylərini gücləndirdilər. Zaman-zaman saxta soyqırımın beynəlxalq aləmdə tanıdılması istiqamətində çarpışan diaspor erməniləri 2001-ci ilə qədər bu və ya digər yolla

məsələnin hökumət qarşısında qaldırılmasına nail olmuşlar. 1998-ci ilin mayın 29-da Fransa parlamentinin Alt Palatasında az sayda millət vəkilinin irəli sürdüyü "erməni soyqırımı"nın tanıdılması təşəbbüsü ilə bağlı dinləmələr keçirildi. Uzun sürən müzakirələrdən sonra qərar 29 səs lehinə olmaqla qəbul edildi. Bunun əsas səbəbi digər parlamentarilərin iclasa qatılmamaları və bu işə birbaşa dəstək olmamaları idi. Fransa parlamentinin Alt Palatasında qəbul edilmiş bu qərar Türkiyədə etirazla qarşılandı. Hətta Türkiyə hökuməti bu məlum qərarla bağlı Fransa hökumətinə etiraz notası göndədi. Lakin Fransa hökuməti bu notanı nəinki ciddi qəbul etdi, hətta qəbul edilmiş sənədi Məclisdən keçirərək Senata göndərdi. Türkiyə buna qarşılıqlı olaraq Fransa ilə ticarət əlaqələrini kəsəcəyini və bu ölkənin ağır sənayesinə yatırılmış türk kapitalını geri götürəcəyini açıq-aşkar bəyan etdi. Fransa hökuməti Türkiyənin atacağı bu addımın ölkə iqtisadiyyatının inkişafına mənfi təsir göstərəcəyini nəzərə alaraq parlamentə müraciət ünvanladı. Müraciətdə qəbul edilmiş qərarın Türkiyə üçün heç bir mənfi təsir göstərməyəcəyini, əksinə bunun (saxta "erməni soyqırımı" nəzərdə tutulur. T.C.) keçmişdə baş vermiş bir "anlaşılmazlıq" olduğunu önə çəkərək Türkiyə ilə əvvəlki münasibətlərini korlamamağa çağırırdı. Əsl həqiqətdə Fransa hökuməti bu qərarın qəbul edilməsinin nə lehinə, nə də ki, əleyhinə idi. Eyni zamanda məsələyə Türkiyənin davamlı sərt bəyanatları öz növbəsində Fransanı bərk narahat etdiyindən hökumət parlamentə təzyiqlərini gücləndirdi və son anda qərar Senatdan keçmədi.

2000-ci ilin fevral ayında parlamentarilər bir daha qərarın Senatda müzakirə edilməsinə səy göstərsələr də sonda məsələ yenə də baş tutmadı. Hadisələrin bu cür gedişatı Türkiyənin milli maraqlarına tamamilə zidd idi. Erməni lobbisi Fransanın rəsmi dairələrinə və siyasi partiyalarına çox saylı məktublar ünvanlayaraq hökuməti Türkiyə ilə gizli danışıqlar aparmaqda günahlandırdı. Fransa hökuməti beləcə seçim qarşısında qalmışdı. Avropanın Asiya ilə qovşağında yerləşən Türkiyəni ermənilərə qurban vermək, yoxsa xristian qardaşlarının mənafelərini müdafiə etmək. Son anda Fransa hökuməti ikinci fikrin üstündə dayanmalı oldu. Nəticədə, 2000-ci ildə saxta "erməni soyqırımı" ilə bağlı məsələ Fransa parlamentində yenidən müzakirəyə çıxarılacaq Senata göndərildi. Senatda müzakirələrin vaxtı yaxşılaşdıqca erməni meylli deputatların sayı da durmadan artırdı. Bu azmış kimi baş nazir və ölkə prezidenti Jak Şirakda öz çıxışlarında məsələnin tez bir zamanda Senatda müzakirə olunacağına və hökumət tərəfindən heç bir əngəl törədilməyəcəyinə söz vermişdi. Beləcə, 8 noyabr 2000-ci il tarixdə məsələ Senatda müzakirə olunaraq 40 nəfər əleyhinə, 160 nəfər lehinə səs verməklə qərar qəbul edildi. Qərarın mətni 29 may 1998-ci ildə Alt Məclisdə qəbul edilmiş sənədlə eyni idi, fərq ancaq qərarların qəbul edilməsinin üsullarında idi. Qərarın qəbul edilməsi ilə Fransız malları küçələrə səpildi. Bir çox siyasi partiya liderləri Fransa ilə əlaqələrin tamamilə kəsilməsini, ölkədə fəaliyyət göstərən Fransa səfirliyinin bağlanmasını, fransız dilinin ölkə təhsilindən həmçinin, universitetlərdən çıxarılmasını

tələb etdilər. Hətta İstanbul Unievrsiteti Fransa ilə bütün əlaqələrin kəsildiyini açqıladı. Qərardan dərhal sonra Ermənistan prezidenti Robert Koçaryan Fransaya rəsmi səfərə yollandı. R.Koçaryan Parisdə "soyqırımı" qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət etdi. Abidə önündə nitq söyləyən Jak Şirak da Türkiyənin Avropa Birliyinə qəbul edilməsi məsələsində "erməni soyqırımı"nın bu ölkə tərəfindən tanımasını bir şərt kimi qoyulduğunu xatırlatdı. Jak Şirak prezident seçkiləri öncəsi erməni Ramqavar-Azatakan partiyasının Paris şəhər şöbəsi başçısına göndərdiyi məktubda "soyqırım"ı həqiqətləri müzakirə mövzusu olmayacaq", "qətliyam keçən əsrin ən dəhşətli hadisələrindən biridir" və "tarixin dəyişdirilməsi qəbul edilməyəcək" şəkildə fikrini bildirmiş və digər ölkələrin də Fransanın atdığı addımı atacağını bildirmişdi. Qərarın qəbul edilməsində əlindən gələn köməkliyi göstərmiş qüvvələr arasında ASALA terror təşkilatının aparıcı funksionerlərindən olan Patrik Dəvəçiyanı misal göstərmək olar ki, bu şəxs Fransanın hal-hazırki ki, prezidenti Nikolas Sarkozinin ən yaxın köməkçisidir.

Xatırladaq ki, 2001-ci id yanvarın 29-da Fransa prezidenti Jak Şirak ölkə parlamentinin "Osmanlı imperiyasında 1915-ci il erməni soyqırımı haqqında 18 yanvar tarixli qətnamə"sini təsdiq etdi. Bu haqda akademik Cəlal Əliyev yazır: "Bu hadisə Türkiyə hökuməti və ictimaiyyətini, o cümlədən Türkiyə ermənilərinin dini başçısı II Mesporun da haqlı etirazına səbəb oldu. Patriarx 1915-ci ildə Türkiyə ermənilərinə qarşı soyqırım

iddiasını, yəni onların kütləvi şəkildə, qəsdən qətlə yetirilməsi "faktını" qətiyyətlə təkzib etdi. Amma artıq iş-işdən keçmişdi. Bəzi siyasi liderlərin və parlament xadimlərinin simasında Fransa özünün NATO üzrə müttəfiqinin, Şərqi Avropanın iri dövləti olan Türkiyə ilə münasibətlərinin kəsiknləşməsinə rəvac verdi.(5, 23) Məlum olduğu kimi, fransızların bu əməli Türkiyədə qəzəbli etiraz dalğalarının kükrəməsinə səbəb oldu. Dərhal fransız şirkətlərinə qarşı iqtisadi sanksiyalar tətbiq edildi

Xatırladaq ki, dünyada ən böyük və güclü nüfuza malik yəhudi lobbisinin və İsrailin rəsmi dəstəyini qazanmağa çalışan erməni lobbisi də öz arzusuna çata bilməmişdir. Onlar saxta "erməni soyqırımı"nın "Xlolokorst"a bənzətməyin mükün ola biləcəyini düşünürlər və fəaliyyətlərini də bu istiqamətdə müəyyənləşdirmişlər. Lakin Yaxın Şərq regionuna nəzarət edən İsrail ilə Türkiyə arasında hərbi əməkdaşlığın yüksək səviyyədə olması və hər iki ölkənin hava məkanının açıq olması bu ölkələri bir-biri ilə daha da yaxınlaşdırmışdır. Amma bu iki ölkənin yaxınlığından qorxuya düşən Ermənistan hökuməti beynəlxalq aləmdə İsrailin dəstəyini qazanmaq üçün əlindən gələni etməkdədir. İsrail hökuməti isə 1915-ci il olaylarının heç bir şəkildə "Xolokorst"a bənzəmədiyini və soyqırımı iddialarının uydurma olduğunu bəyan etməkdədir. İsrailin bu sərt bəyanatlarına qarşılıq olaraq Ermənistan hökuməti bu ölkədə yaşayan az sayda Yəhudinin tezliklə ölkədən deportasiya ediləcəyi ilə İsrail hökumətini hədələdi. Qeyd edək ki, müstəqillik əldə edildikdən sonra, Ermənistan ərazisində 1000-ə yaxın yəhudi

yaşadığı halda 2001-ci ilin rəsmi məlumatlarına görə artıq Ermənistan ərazisində yəhudi əhalisinin sayı 100-ə çatmışdır. Bu da İsrail ilə Ermənistan arasında yaranmış gərgin siyasi münasibətlərin nəticəsidir.

# IV FƏSİL

## HAY DAD ("ERMƏNİ MƏHKƏMƏSİ") İDEOLOGİYASININ HÜQUQİ-SİYASİ MAHİYYƏTİ, VƏ ƏSAS HƏDƏFLƏRİ

XIX əsrin 80-90-cı illərində Avropanın kapitalist ölkələrinin Türkiyəyə olan münasibəti bir qədər də sərtləşdi. İstər bölgədə, istərsə də regionda sənaye sahələrinin və iri ticarət mərkəzlərinin ələ keçirilməsi uğrunda gedən mübarizə Anadolu ərazilərində bu dövlətlərin siyasi və iqtisadi maraqlarının toqquşması ilə nəticələndi. Berlin-Bağdad dəmir yolu xəttinin çəkilməsində israrlı görünən Almaniyanın istəklərinə qarşı Rusiya və İngiltərənin təpki göstərməsi mövcud ziddiyyətləri bir qədər də gərginləşdirdi. İngiltərədə sənaye mallarının anbarlarda yığılıb qalması bu ölkənin yeni satış bazarları ələ keçirmək istəyinindən xəbər verirdi. Bəhs olunan dövrdə isə Yaxın Şərq regionu bu maraqların təmin olunmasında ən real bazar idi. Məhz bu bazarların ələ keçirilməsi uğrunda böyük güclərin apardığı mübarizə XX əsrin əvvəllərində özünün ən gərgin fazasına qədəm qoydu.

Hadisələrin bu məcrada inkişaf etməsi erməni millətçi ekstremistlərinin və quldur dəstələrinin bu ərazilərdə fəallaşmasına yol açmış oldu. Bölgəyə iqtisadi maraqlar arxasınca gələn yırtıcı qüvvələr burada möhkəmlənmək məqsədilə xırda etnik qruplardan öz məqsədləri üçün istifadə etməyə başladılar. Şərqi Anadolu

bölgəsində özünə sığınacaq tapmış erməni etnosunun "bacarıq"larından mümkün qədər faydalanmağı daha məqsədəuyğun hesab edən bu qüvvələr onların imkanlarından da istifadə etməyə başladılar. Bu və ya digər formada erməniləri təmin edən dövlətlər erməni milli ideologiyasını kökündən dəyişdirərək onları qonşu xalqlara qarşı qaldırmağa başladılar. Belə bir zamanda Rusiyada təhsil almış bir qrup erməni gəncinin də yeni ideyalarla çıxış etməsi "erməni məsələsi"nin daha da canlanmasına yol açmış oldu. Yenicə yaranmış Daşnaqsütyun partiyasının bir qrup fəalının iştirakı ilə ümumerməni irqi milli hərəkatının gələcək istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı toplantı keçirildi. Uzun əsrlər boyu türklərlə dinc və əmin-amanlıq şəraitində yaşayan ermənilər toplantıda əsas hədəflərini müəyyənləşdirdilər. Əsas hədəflər dedikdə burada ilk növbədə üsyanlar, qiyamlar təşkil etmək, bölgəni silah anbarına çevirmək, partiyaların və siyasi təşkilatların regional mərkəzlərini yaratmaq, kilsənin fəaliyyətini genişləndirmək və üsyanın idarə olunmasında kilsədən bir mərkəz kimi istifadə etmək, bölgənin yerli türk əhalisini buradan sıxışdırıb-çıxarmaq, bölgədə Rusiyanın himayəsi altında bir erməni muxtariyyəti yaratmaq, imperiyanın digər ərazilərində pərakəndə şəkildə yaşayan erməniləri buraya köçürməklə yetərsay üstünlüyə nail olmaq idi. Bütün bu məsələlərin hansı formada həyata keçirilməsi məqsədilə partiyanın I qurultayının çağrılması qərara alındı.

Qeyd etmək lazımdır ki, Daşnaqsütyun partiyasının yaradılmasından iki il sonra partiyanın Cenevrədə I Qurultayı keçirildi. Qurultayda partiyanın proqramı qəbul edildi. Praqramda daha çox aşağıdakı məsələlər öz əksini tapmışdır:

1. hərbi dəstələrin yaradılması;
2. əhalinin silahlandırılması;
3. xalqın inqilabi şüurunun möhkəmləndirilməsi;
4. inqilabi komitələrin yaradılması;
5. ermənilərin təhlükəsizliyinin təmin edilməsi.

Daşnaqlar həmçinin bu qurultayda silahlı birləşmələrin təlimi və hazırlığını, inqilabi komitələrin yaradılmasını, hökumət məmurlarına qarşı terrordan istifadə edilməsinin vacibliyini önə çəkirdilər. Həmçinin digər fəallar buraya ermənilərin silahlandırılması, hökumət məmurlarının və idarələrinin müflisləşdirilməsi haqqında müddəalar da əlavə etmişdilər. Beləliklə, məqsədə çatmaq üçün strategiya tam olaraq işlənib hazırlandı. Xüsusilə, qarşıya qoyulmuş məqsədə çatmaq üçün taktiki gedişlərin təşkili də maraq doğurmaya bilməzdi. Daşnaqlar arasında daha çox yayılmış fikirlər necə hərəkət etməli, təşkilatı necə formalaşdırmalı, burada hansı formada nizam-intizam yaratmalı və qismən də terror hərəkətlərindən istifadə etmək idi. Beləcə Daşnaqsütyun partiyasının yaranması və fəaliyyəti ilə istər Anadoluya, istərsə də Qafqaza terror toxumları səpilməyə başlandı.

XIX əsrin sonlarından başlayan erməni terrorizmi yüz minlərlə dinc Türkiyə və Azərbaycan əhalisinin həyatına son qoymaqla bu xalqlar üçün əsl bəlaya çevril-

mişdir. Erməni terrorizmi müəyyən dövrlərdə səngisə də, onu hərəkətə gətirən qüvvələr yox olmadığı üçün vaxtaşırı daha şiddətlə özünü göstərirdi. I Dünya müharibəsindən sonra ermənilərdə irqçilik meyilləri möhkəmləndikcə onlar arasında terrora olan maraq da artmaqda idi. Belə ki, bəhs olunan dövrdə Daşnaqsütyunun başlıca vəzifələrindən biri Türkiyə və Azərbaycanın ictimai-siyasi xadimlərini qətlə yetirmək olmuşdur. Qatillərin cavabsız qalması erməni terrorçularının sonrakı fəaliyyəti üçün zəmin yaratmışdır. Terror əməllərini həyata keçirmək üçün 1919-cu ildə Yerevanda partiyanın IX ümumdünya konqresində "Nemesis" adlı xüsusi qrup təşkil edilmişdir(21, 21). Məhz bu yığıncaqda "Nemesis" terror qrupuna əvvəllər öz ölkəsinin hökumətində aparıcı vəzifələrdə işləmiş bütün mühacir türkləri məhv etmək tapşırığı verilmişdi. Antitürk kompaniyasına erməni mənşəli amerikan Saxan Natali başçılıq edirdi. Bununla da sərhədlərsiz terrorun bünövrəsi qoyuldu, sonralar təkcə türklər deyil, dünyanın bütün ölkələrinin on müxtəlif millətlərinin nümayəndələri də bu terror təşkilatının qurbanları oldular(117, səh. 105).

Qeyd etmək lazımdır ki, Daşnaqsütyunun terror fəaliyyəti nəticəsində 1920-1921-ci illərdə Azərbaycanın dövlət xadimləri F.X.Xoyski və H.Ağayev Tiflisdə, B.Cavanşır İstanbulda, Osmanlı dövlətinin dövlət xadimləri Tələt paşa, professor Azmi Kamal və Bəhaəddin Şakir Berlində, Səid Həlim paşa Romada, Kamal paşa və onun müavini Sürəyya bəy Tiflisdə, Ənvər paşa Buxarada erməni terrorçuları tərəfindən qətlə yetirildi (21, 21). Məhz

bu illər ərzində bütün mövcudluğu dövründə erməni terrorizmi uzunmüddətli, mahir təbliğat və ictimai rəyə, mütəşəkkil psixoloji təzyiqlə müşayiət olunur. Nəticədə erməni terror təşkilatları milli-azadlıq hərəkatının bir hissəsi kimi qəbul edilir, bununla da onların cinayətkar əməlləri dəstəklənir. Erməni terroru bir sıra dövlətlər üçün Türkiyədə sabitliyi pozmaq və ona təsir vasitəsidir, "erməni soyqırımı" isə siyasi möhtəkirlik predmetinə çevrilmişdir(21, 20-21).

I Dünya müharibəsi başa çatdıqdan sonra erməni siyasi dairələri və xarici havadarlar müharibə illərində erməni əhalisinin türklər tərəfindən olmazın işgəncələrə və məhrumiyyətlərə məruz qalması, uzun əsrlər boyu "tarixi torpaqlarından" deportasiya edilərək təbii şəraiti isti olan yerlərə köçürülməsi, 1.5 milyon ermənininin qətlə yetirilməsi kimi cəfəng iddiaları şişirdərək dünyanın nüfuzlu jurnallarında yaymağa başladılar. Onlar erməni xalqı qarşısındakı günahlarını bu cür yollarla yumağa çalışırdılar. Məqsəd isə Osmanlı imperiyasının hüquqi varisi olan Türkiyə Respublikasının Avropada və beynəlxalq miqyasda nüfuzunu sarsıtmaq və onun Avropaya açılan qapılarını birdəfəlik bağlamaq idi. Buna nail olmaq üçün böyük güclər daşnaq başbilənləri ilə birgə erməni maraqlarını özündə əks etdirən Hay Dad ideologiyasını işləyib hazırladılar. "**Hay**" (erməni) və erməni dilində **"dadavarutyun"** ("məhkəmə") sözlərindən əmələ gələn Hay Dad erməni məhkəməsi, mühakiməsi anlamı kəsb etməkdədir. İdeologiyanın əsas qayəsi guya tarix boyu ermənilərin türklər tərəfindən olmazın işgəncələrə,

məhrumiyyətlərə məruz qalması və dünya dövlətləri tərəfindən mühakimə olunmasıdır. Qeyd etmək lazımdır ki, erməni kilsəsi və ziyalıları tərəfindən əsrlərdir yaşadılan, hər şeyə rəğmən həyata keçirilməsi vacib olan məsələlərin XIX əsrin sonu-XX əsrin əvvəllərində ideologiya halına salınmış məcmusu olan Hay Dad bir növ böyük güclərin maraqlarına xidmət edirdi. Bu ideologiyanın işlənib hazırlanmasında, istiqamətlərinin müəyyənləşdirilməsində Daşnaqsütyun partiyasının mühüm rolu olmuş və sonradan onun əsas ideologiyasına çevrilmişdi. Bu barədə tarixçi Hatəm Cabbarlı yazır: "...Belə ki, 1920-ci ildə Ermənistan dövlətinin bolşeviklər tərəfindən işğal edilməsindən sonra Avropaya mühacirət edən iqtidar partiyasının ciddi siyasi mübarizə dövrü başlamışdır. İdeoloji sahədə mümkün parçalanmaların qarşısının alınması və sürgündə yaşamaq üçün mücadilə edən Daşnaqsütyun partiyası zamanla Hay Dad ideologiyasını mənimsəmiş və ona sahib çıxmışdır (143)". Maraqlısı ondan ibarətdir ki, xaricdə yaradılan bu doktrinanı Ermənistana transformasiya etmək məsələsi heç də asan başa gəlməmişdir. Hardasa 30-40 il Avropa saraylarında dolasan ideologiya erməni alimlərinin təbirincə desək, 1965-ci ilə qədər sürgün həyatı yaşamışdır. Lakin 1965-ci ildə SSRİ-nin qondarma "erməni soyqırımı" qurbanlarının anılmasına icazə verilməsindən sonra Hay Dad ideologiyasını müəyyən edən erməni milli ideologiyası Ermənistana ayaq açmış, müstəqillikdən sonra isə daha da möhkəmlənmişdir. Hay Dad ideologiyası 1990-cı illərə qədər, xüsusilə diaspor

ermənilərinin maraqlarının və milli kimliyinin qorunmasına xidmət etmiş və bu özəlliyini böyük ölçüdə bu gün də davam etdirməkdədir.

Erməni irqçi milli ideologiyasını təşkil edən Hay Dad doktrinasının təməl prinsiplərindən Ermənistanın xarici siyasətinin istiqamətlərinin müəyyənləşdirilməsində geniş istifadə olunmuşdur. Eyni zamanda erməni diasporunun göstərdiyi həmrəylik, milli ideologiyaları olan ənənəvi Hay Dad-ın XIX əsrin sonlarında və XX əsrin əvvəllərində Ermənistanın xaricindəki şərtlərdə yaradılan, dəyişməz əbədi milli məqsədlər olaraq mənimsənilən təməl məqsədləri vardır (26, 124). ....Həmçinin, qonşu dövlətlərə qarşı əsassız ərazi iddiaları, habelə etnik təmizləmə, terror, deportasiya, milli düşmənçilik də məhz bu təməl prinsiplərə söykənir.

Qeyd edək ki, Hay Dad ideologiyasının əsas təməl prinsipləri aşağıdakılardan ibarətdir:

-tarixi erməni torpaqlarının geri alınması və "Böyük Ermənistan" dövlətinin yaranması;

-tarix boyunca dünyanın müxtəlif bölgələrinə səpələnmiş erməni əhalisinin "doğma torpaq"lara qayıdışını təmin etmək;

-sosial dövlətin bərqarar olması.

Hay Dad ideologiyasının nəzəri əsaslarını böyük güclərin işğalçı siyasətini özlərinin təhlükəsizlikləri üçün başlıca təhdid vasitəsi olaraq qəbul edən erməni tarixi-siyasi xətti müəyyən edir. Bunun başlıca səbəbi tarix boyu ermənilərin azad, müstəqil dövlətlərinin olmaması, yalnız xırda knyazlıq şəklində varlıqlarının qorunması və

bunun da iri dövlətlər tərəfindən vassal asılılığında idarə olunması ilə əlaqələndirmək olar.

Müasir dövrdə Hay Dad ideologiyasının mərkəzi ofisi İrəvanda yerləşir. Daşnaqsütyun partiyasının mövcud olduğu bütün ölkələrdə - ABŞ, Belçika, Rusiya, İran və Livanda regional büroları fəaliyyət göstərməkdədir. Tarixi keçmişi, siyasi və iqtisadi əlaqələri baxımından Hay Dad-ın ABŞ büroları daha geniş fəaliyyət göstərməkdədir. Hay Dad büroları xüsusilə, dövlət orqanlarına, Senata, Təmsilçilər Məclisinə və seçkili orqanlara daha aktiv şəkildə inteqrasiya etməkdədirlər. Bu barədə Hatəm Cabbarlı yazır: "Qeyd etmək lazımdır ki, 2004-cü ildə Senata və Təmsilçilər Məclisinə keçirilən seçkilərdə Hay Dad bürolarının dəstəklədiyi 202 namizəddən 199-u seçkidə qələbə qazanmışdır. Hay Dad-ın maliyyələşməsi əsasən Ermənistan hökuməti, diaspor təşkilatları və erməni iddialarını dəstəkləyən bəzi Avropa dövlətlərinin maliyyə yardımları ilə öz fəaliyyətini davam etdirməkdədir(143)".

Hay Dad ideologiyasında daxili məsələlərə qismən toxunulsa da, əslində xarici siyasətdə xüsusi əhəmiyyət daşıyan qondarma erməni soyqırımı iddialarının beynəlxalq aləmdə tanınması, torpaq və təzminat tələbi, xüsusi olaraq Dağlıq Qarabağ ermənilərinin müstəqilliyinin tanınması və digər məsələlərdə olduğu kimi ciddi əhəmiyyət kəsb etməmişdir.

Hay Dad adlanan ümumerməni irqçi milli ideologiyasının əsas funksionerləri II dünya müharibəsindən sonra 4 "T" gizli kodu adı altında plan işləyib hazırladılar

və bu gün də bu plana uyğun hərəkət etməkdədirlər. Ermənilərin məşhur 4"T" və ya 4 "istək" planı aşağıdakılardan ibrət idi:

1.Terror;

2.Torpaq;

3.Tanıtmaq;

4. Təzminat.

Yuxarıda qeyd etdiyimiz kimi, erməni millətçi ekstremistləri öz istəklərinə çatmaq üçün daha çox bölgədə terror fəaliyyətlərini genişləndirmək və bunun nəticəsində siyasi sabitliyi pozmaq taktikasından istifadə edirdilər. Bu haqda daha geniş şəkildə danışdığımız üçün bir daha həmin dövrə qayıtmaq niyyətimiz yoxdur. Lakin XX əsrin 70-ci illərinin ortalarında erməni terrorizmi yenidən fəallaşmış, 1972-1991-ci illərdə bu qruplaşmalar Türkiyəli diplomatlara, siyasətçilərə və iş adamlarına qarşı 300-dən çox terror əməli törətmişlər. Tədqiqatçılar bu prosesi Türkiyənin Kipr siyasətində geri çəkilməyə vadar etmək məqsədilə, Livanda gedən vətəndaş müharibəsinin təsiri və digər səbəblərlə əlaqələndiririrlər. Qeyd edək ki, türk diplomatlarına, missiyalarına və iş adamlarına qarşı ilk terror hadisəsi dünyanın əsas güc mərkəzlərindən biri olan ABŞ-ın Koliforniya ştatında həyata keçirildi. Belə ki, 27 dekabr 1973-cü ildə Türkiyənin Los-Ancelesdəki Baş Konsulu Mehmet Baydar ilə köməkçisi konsul Bahadır Demir Kaliforniyanın Santa-Barbara qəsəbəsində Mığırdıç Yanıkyan adlı erməni terrorçusu tərəfindən qətlə yetirildi. Bu faciədən iki il sonra Avropanın mərkəzində iki türk diplomatı vəhşi-

cəsinə qətlə yetirildi. Bu dövrdə Daşnaqsütyunun və ASALA-nın çoxlu terrorçu qruplaşmaları təşkil olunur. Onlarla yanaşı FJA, NRA, DRO-8, 88, 888, 8888 və digər erməni terror təşkilatları da fəaliyyət göstərir. Yalnız 1975-1985-ci illər arasında ASALA qruplaşmaları dünyanın 21 ölkəsinin 38 şəhərində 110 terror aktı törətmişlər. Yeni yaranmış erməni terrorçu təşkilatlarına XIX əsrin sonu-XX əsrin əvvəllərinin xüsusiyyətləri xas idi və XX əsrin ikinci yarısı-XXI əsrin əvvəlləri onların fəaliyyəti dünyanın bütün regionlarını əhatə edirdi(21, 21).

Müasir dövrdə gizli şəkildə fəaliyyət göstərən bir sıra erməni terror təşkilatları mövcuddur ki, onların bir neçəsinin adlarını qeyd etməyimiz olduqca vacibdir. Bunlara misal olaraq "Ermənilərin Qabaqcıl Birliyi", "Ermənilərin Milli Birliyi", "Gizli Erməni Azadlıq Ordusu", "Orli" qruplaşması, "55-lərin Komitəsi", "Erməni Azadlıq Hərəkatı", "Krunk", "Apostol" və s. yüzlərlə bu kimi terror təşkilatlarının adlarını qeyd etmək olar.

Qeyd etmək lazımdır ki, ermənilərin Qafqaza gəlmə olduqları tarixi faktlarla sübuta yetirilmişdir. E.ə. XIV-XIII əsrlərində Balkan yarımadasının Tassaliya və İlliriya adlanan əyalətlərində kiçik şəkildə qəbilə formasında yaşayan friq tayfaları yerli yunan qəbilələri ilə ədavətə girdikdən sonra onları bu ərazilərdən qovmağa başladılar. Bu proses e.ə VIII-VII əsrlərə qədər davam etmişdir. Qara dənizin şimal sahillərinə gələn friqlər kimmer-skif-sak tayfalarının güclü axınları qarşısında tab gətirməyərək onlarla birlikdə Anadolu və İberiya ərazilərinə pənah gətirmişlər. Sonradan qonşu ərazilərə ya-

yılan haylar (ermənilər) çox keçmədən yerli əhali ilə dil tapa bilmiş və bölgədə öz mövqelərini daha da möhkəmləndirmişlər. Davamlı şəkildə qonşu ərazilərdən köçürülərək Kiçik Asiya və Qafqazda yerləşdirilən ermənilər çox keçmir ki, bu ərazilərin onlara məxsus olduğunu iddia edir və silahlı quldur dəstələri vasitəsilə yerli dinc əhalini qismən həmin ərazilərdən qovmağa müvəffəq olurlar. Bu işdə onlara mane olacaq elə bir ciddi qüvvənin olmamasından istifadə edərək yerli əhaliyə qarşı etnik-təmizləmə siyasəti aparırlar. I Dünya müharibəsindən sonra Şərqi Anadolu əraziləri də daxil olmaqla ermənilər böyük Ermənistan yaratmaq üçün əlverişli məqamın yetişdiyini nəzərə alaraq böyük dövlətləri bu işdə fəal olmağa çağırdılar. 1919-cu ildə ABŞ senatına senator Lodginin təqdim etdiyi layihədə gələcəkdə yaranacaq "Böyük Ermənistan"a aşağıdakı torpaqlar qatılmalı idi:

1. Türkiyədəki altı vilayətdən ibarət "Türkiyə Ermənistanı";
2. Qafqaz Ermənistanı;
3. İran Ermənistanı; (burda əsasən İran Azərbaycanı nəzərdə tutulur)

Amerikada Erməni Milli İttifaqının "1919-cu ildə Ermənistan haqqında" adlı hazırladığı əsərdə yuxarıda göstərilən layihə ilə bərabər "Böyük Ermənistan" xəritəsi də hazırlanmışdır. Həmin xəritədə Böyük Ermənistana-Ermənistan, Trabzon və Samsun da daxil olmaqla Gəncə şəhəri yaxınlığından başlayaraq Kür çayı boyu ilə Xəzər dənizinə qədər uzanan yerlərdəki Salyan, Muğan, Mil, Qarabağ, Zəngəzur, Göycə qəzasının dağlıq hissəsi, Nax-

çıvan, Ordubad; İran Azərbaycanından Astara, Ərdəbil, Qaradağ, Təbriz, Xoy, Urmiya və digər ərazilər daxil idi. Bütün bunlara baxmayaraq, 1923-cu ildə çağırılmış Lozanna konfransında "Böyük Ermənistan" xülyası müəyyən müddətə arxa plana keçirilmiş oldu.

Bildiyimiz kimi, XX əsrin əvvəllərində bəşəriyyət özünün ən təlatümlü dövrünü yaşamışdır. Birinci dünya müharibəsinə cəlb olunmuş böyük dövlətlər iqtisadi və siyasi cəhətdən durğunluq dövrünü keçirirdilər. Osmanlı imperiyası da belə dövlətlərdən biri idi. O zaman Osmanlı imperiyasında türklərlə yanaşı bir çox xalqlar, o cümlədən ermənilər də dövlət idarəçiliyinə cəlb olunmuşdular. Hətta ermənilər maliyyə, vergi və iqtisadi sahələrdə çoxluq təşkil edirdilər. Lakin sonradan ermənilərə havadarlıq edən iri imperialist dövlətləri onlara məhz "Böyük Ermənistan" yaradılacağını vəd edərək, ermənilərdən osmanlılara qarşı gizli təxribatların törədilməsini tələb edirdilər və nəticədə Türkiyənin şərq bölgələrində Zeytunda, İqdırda, Qarsda, Vanda və digər ərazilərdə türklərə qarşı kütləvi surətdə soyqırımı həyata keçirdilər. Maraqlısı ondan ibarətdir ki, ermənilər öz dövlətlərini yaratmaqda daha çox ruslara bel bağlayırdılar. Bunu vaxtilə birinci dünya müharibəsi ərəfəsində erməni siyasətbazlarının Tiflisdə fəaliyyət göstərən Erməni Milli Bürosunun prezidenti ilə Osmanlı imperiyasına qarşı ermənilərin əməkdaşlıq planını tam hazırlamaq məqsədilə Qafqaza gələn çar II Nikolaya ünvanlanan məktubdan da açıq-aydın görmək mümkündür. Məktubda qeyd edilirdi: "Bütün ölkələrin erməniləri şanlı rus

ordusu sıralarına daxil olmağa, rus silahının qələbəsi naminə öz həyatlarını verməyə tələsirlər. Qoy rus bayrağı Bosfor və Dardanel üzərində azad şəkildə dalğalansın. Qoy zati-aliləri, türk zülmü altında yaşayan xalqlar sizin icazənizlə azadlıq qazansın. Qoy Türkiyədə yaşayan və İsa naminə əzab çəkən erməni xalqı Rusiyanın müdafiəsi altında yeni azad həyatda yaşasın". Bu ideyalara köklənən erməni terrorçuları rus boyunduruğunu qəbul edərək dəstələr şəkilində qiyamçı qruplar yaratmışdılar. Bu dəstələrin hücumları nəticəsində demək olar ki müharibə dövründə 2 milyondan artıq türkün həyatına son qoyulmuş, şəhərlər, kəndlər dağıdılıb viran edilmişdir. Bütün infrastruktur məhv edilmiş, bölgənin iqtisadi həyatına ağır zərbələr vurulmuşdur.

XX əsrin 20-ci illərində qondarma "erməni soyqırımı"nın beynəlxalq aləmdə tanıdılması istiqamətində bir sıra addımlar atılmasına baxmayaraq, bu sahədə elə də ciddi "uğurlar" əldə edilmədi. 1923-cü ildə Lozannada keçirilən konfransda çoxsaylı iştirakçı ilə təmsil olunan Türkiyə nümayəndə heyətinin ciddi təpkiləri sayəsində qondarma "erməni soyqırımı" iddiaları təmin edilmədi. Hadisələrin gedişatından narahat olan daşnaqlar konfransın təşkilinə rəhbərlik edən ölkələrə açıq məktublar göndərməyə başladılar. Bu proses davamlı xarakter almağa başladı. II dünya müharibəsindən sonra erməni iddialarının yenidən gündəmə gətirilməsi sahəsində canlanma hiss olunmağa başladı. Bu haqda ötən paraqraflarda geniş məlumat verdiyimizdən bir daha həmin məsələlərə toxunmaq istəmirik.

Bu gün ermənilərin soyqırımı iddialarının dünyanın bir sıra yüksək inkişaf etmiş ölkələrinin qanunvericilik orqanlarında müzakirə olunaraq qəbul edilməsi bütövlükdə həmin dövlətlərin türk dünyasına qarşı atdıqları ən böyük səhv addımlardan biridir. Türkiyəli mütəxəssislər hesab edirlər ki, dünya ölkələrinin "soyqırımı" qərarlarını qəbul etməsində 5 amil əsas rol oynayır:

1. Həmin ölkələrdə erməni azlığının təsiri;
2. Türkiyəyə düşmən münasibət;
3. Türkiyəni Avropa Birliyində görməmək istəyi;
4. Özünün törətdiyi soyqırıma ortaq günahkar axtarmaq cəhdi;
5. Din.

Müharibə bitdikdən sonra qərb ölkələrində ermənilərin uydurma iddiaları haqqında çoxsaylı kitablar, məqalələr yazılmağa başlandı. Bir sıra fondlar, banklar bu işə dəstək verməkdən çəkinmədilər, əksinə çoxlu miqdarda vəsait ayırmaqla erməni iddialarına "sahib çıxmağa" çalışdılar. Bu proses bu gün də davam etməkdədir. Qeyd etmək lazımdır ki, dünyanın bir çox ölkələrində yaşayan ermənilərin yaratdıqları ictimai birliklər, fondlar və hərəkatlar əsassız erməni iddialarının aparıcı qüvvəsi və maliyyə qaynağıdır. Dünya erməni təşkilatlarının fəaliyyətlərinin əlaqələndirilməsi məqsədilə 1979-cu ildə Parisdə I, 1983-cü ildə Lozannada II, 1985-ci ildə Sevrdə isə III konqresləri keçirilmişdir. SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış Ermənistan erməni diaspor hərəkatları və terrorçu təşkilatları ilə birgə fəaliyyət

göstərir, dünya erməni fondları və təşkilatlarından külli miqdarda maliyyə yardımı alaraq erməni terror təşkilatlarının sponsoru rolunu oynayır, onların fəaliyyətlərini planlaşdırır və əlaqələndirir. (21, 21) Son illərdə dünyanın bir sıra iri şirkətləri, bankları və fondlarının Türkiyəyə qarşı təzyiqləri daha da güclənmişdir. Dünyanın ən böyük şirkətlərindən biri olan və İngiltərəyə məxsus "British Airways", dünyanın 77 ölkəsində xüsusi nümayəndəliyə malik "HSBC" bankı, ABŞ-a məxsus "AKSA" Sığorta Şirkətinin erməni şəbəkələri ilə əməkdaşlığı haqqında dəqiq faktlar üzə çıxarılmışıdır. Həmin maliyyə təsisatlarının beynəlxalq səviyyədə uydurma "erməni soyqırımı" haqqında elmi konfransların keçirilməsinə və bu istiqamətdə nəşr edilən kitablara maliyyə dəstəyi vermələri artıq sübutlarla təsdiq edilib. Xatırladaq ki, adını çəkdiyimiz bankın dünyanın müxtəlif regionlarını birləşdirən 120 milyondan artıq müştərisi vardır. Qazi Universitetinin professoru İlkay Orxan bu kompaniyanın səbəbləri haqqındakı izahatlarında yazır: "Həmin maliyyə sektorlarının Türkiyədə çox geniş şəbəkələri var. Türkiyə vətəndaşlarının həmin banklarda əmanətləri saxlanılır. Ölkə vətəndaşlarının hesabına qazanc əldə edən bu şirkətlər və bankların öz gəlirlərinin bir hissəsini uydurma "erməni soyqırımı"nın tanıdılmasına yönəltmələri barədə bizim əlimizdə çox ciddi faktlar var(8, 10)".

Qondarma "erməni soyqırımı"nın beynəlxalq maliyyə resurlarından biri də "AKSA" Sığorta Şirkətidir. Mərkəzi ofisi ABŞ-da yerləşən bu şirkətin dünyanın əksər

dövlətlərində xüsusi nümayəndəlikləri fəaliyyət göstərir. Bu şirkət 1915-ci il qondarma "erməni soyqırımı" qurbanlarının sağ qalmış ailə üzvlərinə maddi təzminat ödəmək barədə xüsusi qərar qəbul edib. Bu gün ABŞ, İngiltərə, Fransa, Kanada, Belçika, İsveç, İsveçrə və digər dövlətlərdə yaşayan ermənilər "soyqırımı qurbanları" olmaları barədə bu sığorta şirkətinə sənədlər təqdim etməkdədirlər. HSBC Bankın Yerevandakı təmsilçiliyinin müraciətində qeyd edilir: "Ermənistanda 1915-ci il erməni soyqırımının qurbanı olmuş 1353 nəfərə sığorta şəklində maliyyə yardımları olunacaq. Bunun üçün bankın hesabından 3 milyon 650 min dollar vəsait ayrılacaq. Bizim bu addımı atmağımıza səbəb isə ABŞ-a məxsus "New York Life" Sığorta şirkətidir. Bu şirkət uzun illərdir ABŞ, Fransa və digər dövlətlərdə 1915-ci il qurbanları barədə müvafiq sənədlər toplamaqla məşğuldur. "Nyu York Life" Sığorta Şirkətinin əsas hədəfi 26 dövlətdə yaşayan ermənilərə 119 milyon həcmində təzminatların ödənilməsini təmin etməkdədir. Məlumat üçün qeyd edək ki, ötən əsrin sonlarında bu şirkətin himayədarlığı ilə ABŞ-da ermənilər "soyqırım"ı iddiasını gündəmə gətirməklə məhkəmələrdə hətta qələbə çala biliblər. Hal-hazırda 20 milyon dollar həcmində 2500 erməni vətəndaşına maliyyə yardımlarının ödənilməsi planlaşdırılıb. Çünki bu vətəndaşların əcdadı olmuş şəxslər bir zamanlar Osmanlı dövlətində yaşamaqla, həm də ABŞ-a məxsus sığorta şirkətlərinin uzvü olublar(8. 10), Bununla yanaşı ermənilərin əsas tələbi Osmalı imperiyasinin hüquqi varisi olan Türkiyədən vaxtilə 1915-ci il hadisələri ilə

bağlı həyatlarını itirmiş çoxsaylı erməni qurbanlarına dəymiş zərərin Ermənistana ödənilməsidir. Maraqlıdır ki, Türkiyə hökuməti bu tələbi qəbul edərsə, təzminatın məbləği milyonlarla yox, milyard dollarlarla ölçüləcəkdir. Bu da sonda Türkiyənin iqtisadi-siyasi qüdrətinin zəifləməsinə və günahkar dövlət və ya millət obrazını öz üzərinə götürəcəyinə gətirib çıxaracaqdır. Ümumiyyətlə, bu plan qərb dairələrində işlənib hazırlandığına görə, onlar Türkiyənin gündən-günə güclənən hərbi, iqtisadi və siyasi qüdrətinə qısqanclıqla yanaşır və bu ölkənin yaxın gələcəkdə dünyanın 10 iqtisadi cəhətdən ən güclü dövləti sırasına yüksələcəyini həzm edə bilmirlər. Ona görə də böyük dövlətlərin əsas niyyəti mütəmadi olaraq erməni maşınını işə salmaqla dövlətin başını daxili problemlərə qatmaq və onun beynəlxalq və regional məsələlərə aktiv müdaxiləsini sıfıra endirməkdir.

# NƏTİCƏ

Məlum olduğu kimi, XIX əsrin sonu–XX əsrin əvvəllərində Osmanlı imperiyası öz mülkərini itirmək təlükəsi ilə üzləşmişdi. Anadolunun Avropanın iri kapitalist ölkələri arasında parçalanma təhlükəsi ilə üzləşməsi, milli kapitalın formalaşmasında yaradılmış süni maneələr, orduda nizam-intizamın getdikcə zəifləməsi və digər amillər Osmanlı hökumətini Almaniya ilə olan münasibətləri bir qədər də yaxşılaşdırmağa sövq edirdi. Məhz bu təhlükələrin vaxtında qarşısının alınması üçün sultan hökuməti Almaniya imperatorluğu ilə bir ittifaqda Antanta ölkələrinə qarşı mübarizəyə başladı. Beləliklə, I Dünya müharibəsinin başlanmasına gətirib çıxaran bu siyasət Osmanlı imperiyasının iflasına səbəb oldu.

Müharibənin ən şiddətli vaxtlarında Osmanlı təbəəsi olan ermənilərin öz vətənlərinə xəyanətkar əməlləri nəticəsində ölkənin Şərqi Anadolu bölgəsi tamamilə düşmən ordusu tərəfindən işğal olundu. Aramsız hücumlar nəticəsində qədim tarixə və mədəniyyətə malik kənd və qəsəbələr tanınmaz hala düşdü. Yüzminlərlə türk vətəndaşının qanının töküldüyü bu yurdda həyat tamamılə iflic vəziyyətə düşdü. Hökuməti hiddətləndirən də oz ölkəsinin vətəndaşlarının ona qarşı silah çevirməsi idi. Ermənilərin xəyanətkar əməllərindən ehtiyatlanan sultan hökuməti 27 may 1915-ci ildə erməni millətçi ekstremistlərinin və komitəçi ermənilərin Suriya və Mesopotomiya ərazilərinə köçürülməsi ilə bağlı qərar qəbul etdi. Məşhur Amerika tarixçisi S.C.Şou 1915-ci il

hadisələri barədə daha dolğun şəkildə məlumat verərək yazırdı: "O vaxt (1915-ci il) Rusiyanın Qafqaz ordusunun tərkibində böyük sayda erməni könüllüləri vardı. Rus çarı II Nikolayın yağlı vədlərinə inanıb vəhşi Andranikin başçılığı altında təpədən-dırnağadək silahlanmış 50 min nəfərlik könüllülər ordusu həmin vaxt yüz minlərlə dinc, silahsız türkü qılıncdan keçirmişdi. Rusiya 1915-ci il aprelin 20-də Türkiyə ilə sərhəddə yaşayan müsəlman əhalini son nəfərinədək qovub uşaqlı-böyüklü Türkiyəyə keçirmiş və ev-eşiklərini yandırıb külə döndərmişdi. Rusiyanın bu cinayətkar aksiyasından qəzəblənmiş türk hökuməti də buna cavab olaraq Van gölü ətrafında yaşayan və türklərə qarşı qanlı mübarizədə ruslara böyük canfəşanlıqla kömək edən satqın erməniləri müharibə zonasından ölkənin uzaq güşələrinə köçürmüşdü. Həmin köçürmə zamanı aclıqdan və xəstəlikdən minlərlə erməni öz dünyasını dəyişmişdi. Sonralar erməni tarixçiləri bu köçürməyə "erməni soyqırımı" damğası vurmuş və türkləri Yer kürəsində ifşa hədəfinə çevirmək üçün bu qondarma faktdan böyük ustalıqla istifadə etmişlər(178)". 1916-cı ilin fevral ayının 16-dək davam etmiş köçürülmədə 702 min 900 nəfərə qədər qeyri-türk millətinin yeri dəyişdirilmiş və ümumilikə, bu siyasət uğurla həyata keçirilmişdir. Hökumət əhalinin təhlükəsizliyini tam təmin etmək üçün mühüm tədbirlər planı işəyib hazırladı. Bəhs olunan dövrdə qış mövsümünün olduqca sərt keçməsi ilə əlaqədar olaraq əhalini tez bir zamanda yeni salınmış yaşayış məskənlərinə çatdırılması işinin sürətləndirilməsi xüsusi olaraq qeyd edilirdi. Qeyd edək ki,

əhalinin dəvə karvanlarından, at arabalarından, vaqonlardan istifadə etməsi onların işini daha da asanlaşdırdı. Hökumət bunun üçün dövlət xəzinəsindən ilkin olaraq 85 milyon lari vəsaitin ayrılması ilə bağlı qərar qəbul etdi. Ümumilikdə, hökumət bu  işin öhdəsindən çox ustalıqla gələ bildi.

I Dünya müharibəsi başa çatdıqdan sonra sultan hökuməti köçürülmüş ermənilərin yenidən öz əvvəlki yerlərinə qayıtması ilə əlaqədar qərar qəbul etdi. Nəticədə, Suriya və Mesopotomiya ərazilərinə köçürülmüş 500 minə yaxın erməni əhalisi öz əvvəlki yaşayış yerlərinə qayıtmağa başladı.

Artıq müharibə başa çatsa da qalib dövlətlər Osmanlı imperiyasını təslimçi sülh müqaviləsini imzalanmağa məcbur etdilər. Beləcə, Sevr, Mudros müqavilələri ilə imperiyanın bir sıra mülkləri qalib dövlətlər arasında bölüşdürüldü. Məhz bundan sonra ölkədə gündən-günə vüsət alan milli-azadlıq hərəkatı qarşısında duran əsas məsələ imperialist qüvvələri ölkə ərazisindən təmizləmək və sərhədlərin təhlükəsizliyini təmin etmək idi. Müvəffəqiyyətlə nəticələnən azadlıq mübarizəsi ilə məğrur türk milləti  öz ata - baba torpaqlarını imperialist qüvvələrdən təmizləmiş oldu. Bununla barışmayan Qərb dövlətləri 1923-cü ildə Lozonnada toplaşaraq Türkiyə Cumhuriyyətini 1915-ci il hadisələri ilə əlaqədar ittiham etməyə başladılar. Lakin türk nümayəndə heyətinə rəhbərlik etmiş İsmət Paşanın tutarlı faktlara əsaslanan çıxışları konfransa qatılmış erməni nümayəndə heyətini və onlara havadarlıq edən qüvvələri susmağa məcbur

etmişdir. Lozonnada məğlubiyyətə uğramış erməni lobbisi öz mənfur missiyasını artıq beynəlxalq təşkilatların mötəbər tribunalarında və bəzi dövlətlərin parlamentlərində təbliğ etməyə nail olmuş, hətta bu günə kimi 20-dən artıq dövlətin qanunverici orqanlarında bununla bağlı müvafiq qərarlar qəbul etdirmişlər. Bununla kifayətlənməyən ermənilər 1991-ci ildə qəbul edilmiş Ermənistan Respublikasının "Müstəqillik Aktı»"nın 11-ci maddəsində qondarma "erməni soyqırımı"nın beynəlxalq miqyasda tanıdılması Ermənistan Respublikasının xarici siyasət strategiyasının tərkib hissəsi kimi" göstərilmiş və maddə olduğu kimi Ermənistan Konstitusiyasına daxil edilmişdir.

Qeyd edək ki, 2015-ci ildə qondarma erməni soyqırımının 100-cü ildönümü yaxınlaşmaqdadır və bütün erməni diaspor təşkilatları və lobbisinin bu törəni böyük izdihamla qeyd edəcəkləri gözlənir. Bununla əlaqədar olaraq dünya dövlətlərini bu problemin həllinə yönəltməyə çalışan erməni diaspor təşkilatları məhz bu illərdə daha da fəallaşmağa çalışacaqlar. Onların Türkiyə və eləcə də dünya türklərinin beynəlxalq imicinə zərbə vura biləcək yeni iyrənc kompaniyalara əl atacaqları şəksizdir. Deməli, bütün türk dünyası sərsəm erməni iddialarına qarşı mübarizəni daha da gücləndirməli, müdafiə taktikasından birbaşa hücum taktikasına keçməyi planlaşdırmalıdır. Bu istiqamətdə görülən işlər daha da gücləndirilməlidir. Ölkələrarası münasibətlər inkişaf etdirilməli və diaspor qurumları arasındakı mövcud əlaqələr daha da intensivləşdirilməlidir.

Göründüyü kimi, erməni diasporu və lobbisi öz arzu və istəklərinə çatmaq üçün istənilən vasitələrə əl atmış, bu günə qədər bu istiqamətdə kifayət qədər iş aparılmış, müəyyən mənada qismən də olsa məqsədlərinə nail olmuşlar. Türk dünyasının beynəlxalq nüfuzuna xələl gətirən bu iyrənc siyasət məğrur türk millətini sarsıtmamış, əksinə mənfur qüvvələrə qarşı mübarizənin sona qədər aparacağı bəyan edilmişdir. Bu işdə Azərbaycan - Türk və Yəhudi diasporunun birgə fəaliyyəti uğurla həyata keçirilməkdədir.

## "Daşnaksütyun" İttifaqının Nizamnaməsi

*1907-ci ildə ümumi toplantı ilə qəbul olunmuşdur*

### Üzvlər

1. Erməni İnqilabı İttifaqının üzvü olmaq istəyən hər bir şəxs təşkilatın proqramını və taktikalarını tamamilə qəbul etməli, Nizamnaməsinə tabe olmalı və bütün vasitələrlə onu həyata keçirməyə cəhd etməlidir.

2. İttifaqın ("Daşnaksütyun") üzləri iki yerə bölünür:

a) Fəaliyyət göstərən üzvlər;

b) Köməkçi üzvlər.

Fəaliyyət göstərən üzvlər o üzvlərdir ki, onlar İttifaqın hər hansı bir orqanında iştirak edir və gəlirlərinin ən az 2%-ni həmin orqana keçirir.

Köməkçi üzvlər o üzvlərdir ki, onlar təşkilatımızın proqramını qəbul edir, ona maddi cəhətdən köməklik edir, amma təşkilatın taktikasını və qərarlarını əldə rəhbər tutmurlar.

**Qeyd:** Köməkçi üzvlərin seçki hüququ yoxdur.

### Ayrı fəaliyyət göstərən üzvlər

3.Ayrı fəaliyyət göstərən üzvlər iki yerə bölünür:

a)Təbliğatçılar;

b)Nümayəndələr.

Təbliğatçılar Mərkəzi Komitənin seçimi və ya təqdimatı üzrə rayonlarda təbliğatla məşğul olan yol-

daşlardır. Onlar həm də aidiyyatı orqanların səlahiyyət verməsi halında təşkilati işlərlə də məşğul ola bilərlər.

Nümayəndələr İttifaqın orqanının adından təyin olunmuş yerə təyin olunmuş vaxtda təyin olunmuş tapşırıqla gedir. Bütün bunlar onun vəsiqəsində qeyd olunmalıdır.

**Təşkilat**

4.İttifaqın orqanları hesab olunur:

a) Qrup;
b) Yardımçı komitə;
c) Komitə;
ç) Mərkəzi Komitə;
d) Məsul Orqan;
e) Büro

**Qrup**

5.Qrup 7 və ya daha çox daşnakdan təşkil olunur. İttifaq qrupları siyasi, hərbi, peşəkar, kənd təsərrüfatı, Qırmızı Xaç və başqalarına bölünür. Hər bir belə qrup üçün xüsusi daxili nizamnamə hazırlanır.

6.Yeni üzvlər qrupların üzvlərinin qarşılıqlı razılığı əsasında qəbul olunur.

**Yardımçı Komitə**

7.Əgər rayonda ən azı 50 fəaliyyət göstərən üzv varsa, onda Yardımçı Komitə qurula bilər.

8.Yardımçı Komitələrə üzvlər səs çoxluğu əsasında qrup üzvlərindən seçilir.

9.Yardımçı Komitə qrupların ümumi işlərini görür və daha çox Səlahiyyətli orqan və nümayəndələr arasında vasitəçilik edir.

10.Yardımçı Komitə 3-5 nəfər üzvdən ibarət olur.

**Komitə**

11. Əgər rayonda ən azı 200 fəaliyyət göstərən üzv varsa burada Komitə qurula bilər.

12. Komitəyə üzvlər qrup üzvlərindən və ya onların nümayəndələrindən seçilir. Hər iki halda keçirilən seçkidə üçdə iki hissənin iştirakı tələb olunur.

13. Komitə ən azı 5 üzvdən ibarət olur.

14. Komitə yerli məsələlərin həllində müstəqil fəaliyyət göstərir. Lakin Ümumi Məclisin qərara aldığı və planlaşdırdığı işlərin həyata keçirilməsi zamanı Komitə təşkilatları Mərkəzi Komitənin və ya Məsul Orqanın, yaxud da onların nümayəndələrinin razılığı ilə fəaliyyət göstərməlidir.

15. Komitə öz kapitalını rayonun Mərkəzi Komitəsinin kassasına, istisna hallarda isə əvvəlcədən əbərdar etməklə rayondakı Büronun kassasına köçürür.

16. Komitə möhürə malik deyil.

**Mərkəzi Komitə**

17. Rayonda ən azı 1000 fəaliyyət göstərən üzv varsa burada Mərkəzi Komitə təşkil edilə bilər.

18. Mərkəzi Komitə hər il öz rayonundakı nümayəndələr yığıncağında seçilir.

19. Nümayəndələr yığıncağı hər rayonda daşnakların sayından asılı olaraq seçilmiş nümayəndələrdən ibarətdir.

**Qeyd:** Hər rayonun Nümayəndələr yığıncağına həmin rayonda səsləri yoxlamaq hüququ verilir.

20. Mərkəzi Komitə ən azı 5 üzvdən təşkil olunur.

21. Hər Mərkəzi Komitə özünün minimum ehtiyaclarını ödəməklə qalan kapitalı Büronun kassasına, yaxud Büronun əmri ilə Ümumi Məclisin tərtib etdiyi siyahı əsasında təşkilatlara göndərir.

**Qeyd;** a) Bu kiçik məbləği rayondakı bütün təşkilatlar üçün (Yardımçı Komitələr və Komitələr üçün) minimum məbləği Mərkəzi Komitə müəyyən edir;

b) İanələr ayrılan müəssisələr üçün istifadə olunur.

22. Mərkəzi Komitə ildə bir dəfə dekabrın əvvəlində tabe olduğu Büroya göstərdiyi fəaliyyət haqqında məlumat göndərir...

28. Mərkəzi Komitə möhürə malikdir.

29. Bütün xarici əlaqələr Mərkəzi Komitənin vasitəsilə, yaxud onun razılığı ilə həyata keçirilir.

30. Mərkəzi Komitə inqilabi-tarixi əhəmiyyətli sənədlərini, kağızlarını və əşyalarını qorunub saxlanıl-

ması üçün Qərb Bürosuna göndərir, digər kağızlar isə məhv edilir...

**Məsul Orqan**

54.Məsul Orqan Ümumi Məclis tərəfindən seçilir. Məsul Orqan müəyyən edilmiş rayonda fəaliyyətə rəhbərlik edir və iri idarələrin mövcudluğuna, onların fəaliyyətinə cavabdehdir.

**Qeyd:** Məsul Orqanların üzvlərinin sayı və yerləşmə yeri Ümumi Məclis tərəfindən təyin olunur.

55. Məsul Orqan ən azı 5 nəfərdən təşkil olunur. Onların 3-ü Ümumi Məclis tərəfindən, ikisi isə rayonun Mərkəzi Komitəsi tərəfindən seçilir.

56. Çatışmayan üzvün yerinə yeni üzv rayon Bürosunun və digər yoldaşların məsləhəti ilə seçilir.

57. Məsul Orqan yerləşdiyi fəaliyyət dairəsi olan rayonda rəhbər rola malikdir...

63.Məsul Orqanlar öz rayonlarında ən azı ildə bir dəfə tabe olan bütün orqanları yoxlamalıdır.

64. Məsul Orqanların pul böhranı zamanı qonşu komitələrdənolan bir üzvü və ya Bürodan olan bir yoldaşı, vəsait axtarmaq üçün başqa yerlərə göndərmək hüququ var.

**Büro**

65. İttifaqın ("Daşnaksütyun") iki Bürosu var:

a) Şərq;

b) Qərb

66. Büro ümumi və Rayon Məclislərinin qərarlarına nəzarət etməyə və təşkilatların qayda-qanunlarını qeyd etməlidir.

67. Büro rayon Mərkəzi Komitəsi ilə təşkilatın işi ərzində onunla əlaqə saxlayır və ən azı 6 ayda bir dəfə öz fəaliyyəti haqqında Mərkəzi Komitəyə hesabat hazırlayır.

68. Büro ehtiyac olduğu zaman, yerli nümayəndələrin razılığı ilə Mərkəzi Komitəyə bu orqanın gücləndirilməsi üçün bərabərhüquqlu yoldaşları ora göndərə bilər.

69. Büro Ümumi Məclisin siyahısı əsasında pulun xərclənməsi işində tənzimləyici rol oynayır.

70. Yalnız Büro möhürə və dəftərxana ləvazimatının istifadəsi üçün qaydaları hazırlamaq hüququna malikdir:

**Qeyd:** a) Ancaq Büro, Mərkəzi Komitələr xüsusi nişanlardan istifadə etmək lazımdır.

b) Rayonun Mərkəzi Komitəsi təşkilatların peşəkar birliyinə möhür verir. Möhürün forması İttifaqın möhürünün formasından fərqli olmalıdır. Bunu Rayon Məclisi müəyyən edir...

73. Büro ilin sonunda onun səlahiyyətində olan orqanların hesabatı haqqında rəy verməli və bunu Mərkəzi Komitəyə bildirməlidir.

74. Büro qəbul etdiyi vacib qərarların protokollarını qoruyub saxlamalıdır.

75. Büro Ölkədən (burada Ölkə dedikdə xəyali "Türkiyə Ermənistanı" nəzərdə tutulur-S.İ) aldığı məktublara 3 gün ərzində cavab verməlidir.

76. Büronun üzvləri arasında iş bölgüsü aparıldıqdan sonra onlar birlikdə Ümumi Məclisin qarşısında öz bütün işlərinə görə in corpore (?) cavabdehdir.

**Şərq Bürosu**

77. Şərq Bürosu rayonuna daxildir:

a) Ölkə: Kirasan-Xarbert-Tiqranakertdən (Girəsun-Harput-Diyarbəkir – S.İ) şərqə tərəf olan ərazi;

b) Qafqaz, Rusiya və Farsıstan.

78. Şərq Bürosu ən azı 7 üzvdən ibarət olur. Onlardan beşini Ümumi Məclis, birini isə Ölkənin Məsul Orqanları seçir (digər bir nəfərin hansı orqan tərəfindən seçilməsi barədə məlumat yoxdur- S.İ.)...

79. Şərq Bürosunun yerləşməli olduğu şəhəri isə Qafqaz Rayon Məclisi müəyyən edir.

80. Şərq Bürosunun azı 3 üzvü ancaq inqilabi işlərlə məşğul olmalıdır. Onların yaşamaq üçün zəruri ehtiyaclarını təşkilat ödəyir.

81. Şərq Bürosu vacib məsələlərin həlli ilə bağlı fövqəladə Rayon Məclisini çağırır...

**Qərb Bürosu**

85. Qərb Bürosu rayonuna daxildir:

a) Kirasan-Xarbert-Tiqrakakertdən (Girəsun-Harput-Diyarbəkir) qərbə tərəf, Kiçik Asiya;

b) Balkan yarımadası, Amerika, Misir və Rusiya ilə Farsıstandan başqa bütün digər ərazilər

86. Qərb Bürosu üç nəfəri Ümumi Məclis, iki nəfəri Qərb Bürosu rayonunun Məsul Orqanları tərəfindən seçilən 5 üzvdən ibarətdir.

87. Əgər hansısa bir səbəbdən Qərb Bürosunda üzv çatışmazlığı olduqda, Şura və yaxud Rayon Məclisi tərəfindən yeni üzv təyin olunur.

**Qeyd:** Qərb rayonunun məclisində daxili qaydalar üçün nizamnamə qəbul edilir.

88. Qərb Bürosu, özünün ümumi təşkilat işlərindən başqa:

a) Ümumi Məclisin təlimatlarını əldə rəhbər tutaraq "Droşak" ("droşak" sözü "bayraq" mənasını verir və Erməni İnqilab İttifaqı "Daşnaksütyun"un əsas mətbuat orqanının adı olub-S.İ) və digər nəşrləri erməni və xarici dillərdə dərc etdirmək;

b) Xarici dillərdə erməni məsələsinə həsr olunmuş nəşrləri buraxır;

c) Ölkədən xaricdə təbliğatla məşğul olur;

89. Qərb Bürosu kömək məqsədilə üçün daşnak yoldaşları dəvət etmək hüququ verilir:

a) redaksiyada; b)təbliğat üçün; c) yerli işlərin idarəçiliyində.

Bu yoldaşlar yalnız özlərinə tapşırılmış işlərdə Bürodan yoldaşlar ilə bərabər səs hüququna malikdir.

90. Büro öz üzvlərindən bir ya iki nəfərin rayonun işləri ilə səyyar agent kimi məşğul olmasının qayğısına qalmasıdır.

**Rayon Məclisi**

91. Rayon Məclisinə üç ittifaq daxildir:
a) Böyük Ermənistan;
b) Qafqaz ( bura Vrej də daxildir);
c) Qərb rayonu

92. Rayon Məclisi lazımlı olduqda və şəraitə əsasən çağırılır. Onlar aşağıdakı nümayəndələrdən ibarət olur:
a) Büro;
b) Məsul Orqan;
c) Mərkəzi Komitənin Rayon Məclisi;
ç) Rayonun rəsmi çap orqanın redaksiyasından;
d) Rayonun ərazisindəki tələbələrdən;
e) Dəvət olunmuş fəaliyyət göstərən yoldaşlardan;

**Qeyd:** Məclis üzvlərin üçdə iki hissəsinin iştirak etməsi halında keçirilməsi məqbuldur. Məclis Büro vasitəsi ilə çağırılır.

93. Rayon Məclisinin Ümumi Məclisin qərarlarından və layihələrindən kənara çıxmamaq şərtilə rayonun işlərində yeni taktikalar qəbul etmək hüququ var.

**Qeyd:** Rayon Məclisi öz işləri və daxili qaydaları barədə Nizamnamə hazırlayır.

94. Rayon Məclisi rayondakı bütün orqanlar üçün Ümumi Məclisin qərarlarına və Nizamnaməsinə uyğun olaraq nizamnamələr hazırlayır.

**İttifaq Şurası**

95. İttifaq Şurasına aşağıdakılar daxildir:

a) İki Büro;

b) Məsul Orqanlar;

c) Qərb Rayon Məclisindən 1, Şərq Rayon Məclisindən 2 nümayəndə...

97. İttifaq Şurası iştirak edən səlahiyyətli nümayəndələr üçdə iki hissədən az olarsa iclas səlahiyyətsiz hesab olunur.

**Qeyd:** Əgər İttifaqın iclaslarında orqan nümayəndələrinin üçdə iki hissəsi iştirak etmirsə, onun Ölkəyə aid olan qərarları məcburi xarakter daşımır.

98. İttifaq Şurasının öhdəlikləri bunlardır:

a) Ümumi Məclis tərəfindən müəyyən olunmuş çərçivədə məsul orqanların və Büronun fəaliyyətinin qiymətləndirilməsi;

b) Məsul orqanların icra etdiyi işlərin müzakirəsi və qiymətləndirilməsi, qiymətləndirmənin nəticələri haqqında Ümumi Məclisə məlumat verilməsi;

c) İnqilabi qüvvələrin nizama salınması və istehsalata məqsədəuyğun şəkildə pul ayrılması;

ç) Məsul orqanların və Büronun işçi heyətinin işinə nəzarət;

d) pul vəsaitinin axtarılması;

e) Gözlənilməz siyasi böhran zamanı öz səlahiyyəti çərçivəsində Ümumi Məclisin qərarları ilə ziddiyyət təşkil etməyəcək formada fəaliyyətin yeni istiqamətini müəyyən etmək.

99. Şura məhkəmə məsələlərində ali orqan hesab edilir.

100. İttifaq Şurasının erməni və fransız dillərində iki möhürü olur. Axırıncıda aşağıdakı məzmunda cümlə öz əksini tapıb: "Conseil a la Federation Revolutionnarie Armenienne". Bu möhürlər Bürolardan birində saxlanılır.

**Ümumi Məclis**

101. Ümumi Məclisin müntəzəm iclaslarının vaxtları Ümumi Məclis tərəfindən müəyyən olunur, fövqəladə hallarda isə iclas İttifaq Şurası tərəfindən çağırılır.

102. Ümumi Məclisdə nümayəndələri iştirak edir;

a) Büronun;

b) Məsul orqanların;

c) Mərkəzi Komitələrin Rayon Məclislərinin;

ç) Mərkəzi Komitələrin...

111. Nümayəndələr öz razılıqları ilə səs verirlər.

